Əlixan Musayev

# ÖLÜMDƏN SONRAKI HƏYAT

Uca Allah buyurur:

**“Harada olursunuzsa olun,**
**hətta əlçatmaz qalalarda olsanız belə,**
**ölüm sizi haqlayacaq”.**

*(Quran, “ən-Nisa” surəsi, 78)*

Rəsulullah ﷺ belə buyurmuşdur:

**“Ləzzətlərə son qoyan ölümü**
**tez-tez xatırlayın”.**

*(“Sunən ət-Tirmizi”, 2307)*

**Redaksiya heyəti:**

**Ə. Musayev**

**M. Qarayev**

**A. Salehli**

**M. Kərim**

**F. Allahverdiyev**

**E. Rüstəmov**

بسم الله الرحمن الرحيم

**Mərhəmətli, Rəhmli Allahın adı ilə**

# MÜQƏDDİMƏ

Həqiqətən, həmd-sənalar yalnız Allaha məxsusdur! Biz Ona şükür və həmd edir, Onu köməyə çağırır, Ondan bağışlanmağımızı və bizi haqq yoluna yönəltməsini diləyir, nəfsimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona sığınırıq. Allah kimə hidayət versə, o kimsə haqq yolunda olar. Azmaq istəyəni də haqq yoldan azdırsa, onu bu yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd ﷺ Onun qulu və rəsuludur.

**“Ey iman gətirənlər, Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!”**[1]

**“Ey insanlar, sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan bir çox kişi və qadın *törədib yer üzünə* yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən *cürbəcür şeylər* istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir”.**[2]

**“Ey iman gətirənlər, Allahdan qorxun və doğru söz danışın ki, O, əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun rəsuluna itaət etsə, böyük bir uğur qazanar”.**[3]

Şübhəsiz, ən xeyirli kəlam Allahın Kəlamı, ən doğru yol da Peyğəmbərimiz Muhəmmədin ﷺ yoludur. Ən pis əməl isə dinə əlavə edilən yeniliklərdir. Hər bir yenilik bidət, hər bir bidət zəlalət, hər bir zəlalət də Cəhənnəmə aparan yoldur.

---

[1] “Ali-İmran” surəsi, 102.

[2] “ən-Nisa” surəsi, 1.

[3] “əl-Əhzab” surəsi, 70-71.

Möhtərəm oxucu!

Bu kitabı qələmə almaqda qayəmiz hər bir fərdə ölümü xatırlatmaq və ölümdən sonrakı həyatı anlatmaqdır. Belə ki, insan dünya həyatında etdiyi yaxşı və ya pis əməllərinə görə əvvəlcə bərzəx aləmində[1], sonra da axirətdə haqq-hesaba çəkiləcəkdir. Əgər insan bunu bilsə və bu haqda dərindən düşünsə, Allahdan qorxar, pis əməllərinə son qoyar və yaxşı işlər görməyə tələsər. Beləliklə də, Allah yanında ən xeyirli insanlardan sayılar. Bizim də məqsədimiz insanları yaxşı işlər görməyə təşviq etməkdir.

Allahın Kitabında və Peyğəmbərin ﷺ səhih hədislərində insanı öldükdən sonra əvvəlcə qəbirdə, sonra Qiyamət günü məhşərdə və nəhayət, Cənnət, yaxud Cəhənnəmdə nələr gözlədiyi xəbər verilir. Ağıllı insanlar Allahın kitabını və Onun Peyğəmbərinin ﷺ hədislərini oxuyub, o mərhələlərdə uğur qazanmaq üçün səy göstərirlər. Fani dünya həyatına aldananlar isə ölümdən sonrakı həyata inanmırlar. Quranda uca Allah onları belə xəbərdar edir: **“Ey insanlar, həqiqətən, Allahın vədi haqdır. Qoy dünya həyatı sizi aldatmasın, tovlayan *şeytan da* sizi yoldan çıxartmasın. Şübhəsiz ki, şeytan sizin düşməninizdir, siz də onu düşmən qəbul edin! O öz tərəfdarlarını Cəhənnəm sakini olmağa çağırır”.**[2]

Qurani-Kərim insana ölümdən sonrakı həyatı xatırladan əzəmətli bir kitabdır. Əgər insan bu Kitabı oxuyub öyrənsə və ölümdən sonrakı həyatda onu nələr gözlədiyini dərk etsə, tez bir zamanda pis əməllərinə son qoyar və gücü yetdiyi qədər yaxşı işlər görməyə səy göstərər.

---

[1] Bərzəx – insanın öldükdən sonra diriləcəyi günə qədər qalacağı aləm. (Bax: İbn Kəsir, “Təfsir”, 5/430).

[2] “Fatir” surəsi, 5-6.

Fərz edək ki, bir dəstə adam bir yerdə oturub söhbət edir və onlardan hər biri bir neçə saat sonra günah iş görəcəyini düşünür. Kimisi zina edəcəyini, kimisi adam öldürəcəyini, kimisi şərab içəcəyini, kimisi oğurluq edəcəyini və sairə buna bənzər günahlar edəcəyini planlaşdırır. Elə bu vaxt ölüm mələyi عليه السلام və ya Cəbrail عليه السلام gəlib onlara beş dəqiqədən sonra öləcəklərini xəbər verir. Məgər bundan sonra bu adamlar günah iş görmək barədə düşünməyə davam edərlərmi?! Yoxsa, o beş dəqiqəni ancaq Allahdan bağışlanma diləməyə sərf edərlər?

Çəkdiyimiz bu misal sadəcə bir fərziyyədir. Real həyatımızdan həkimin xəstəyə qoyduğu diaqnozu buna misal çəkə bilərik. Təsəvvür edin ki, xəstəni müayinə edən həkim ona bir aydan sonra öləcəyini bildirir. Təbii ki, həmin andan etibarən o xəstənin əhval-ruhiyyəsi dəyişir, gələcək planları alt-üst olur, fani dünya ləzzətləri onun gözündə heç olur və o, ölümdən sonrakı əzabdan xilas olmaq üçün əlindən gələni edir. Bax, ölümü xatırlamağın faydası budur!

Elə isə gəlin, bizə ölümü xatırladan Quranı və Peyğəmbərin ﷺ səhih hədislərini oxuyub ibrət alaq, bununla da ölümdən sonrakı həyata hazırlıq görək.

İnsan ölümdən sonrakı həyatı üçün hazırlıq görməlidir ki, sonra peşman olub deməsin:

**“Kaş, *axirət* həyatım üçün öncədən hazırlıq görəydim!”**[1]

**“Kaş, Peyğəmbərin yolu ilə gedəydim. Vay halıma! Kaş, filankəslə dost olmayaydım. Zikr** (haqq) **mənə çatdıqdan sonra o məni ondan uzaqlaşdırdı”.**[2]

---

[1] “əl-Fəcr” surəsi, 24.

[2] “əl-Furqan” surəsi, 27-29.

Bu kitabda biz insana öləcəyini və ölümündən sonra nələr baş verəcəyini xatırlatmaq üçün aşağıda qeyd olunan mövzulardan bəhs edəcəyik:

– *Ölümü xatırlamaq;*
– *Ölüm anı;*
– *Ölüm anında insanı xilas edən zikrlər*
– *Ölümdən sonrakı həyata hazırlıq görmək;*
– *Gözəl sonluğun əlamətləri;*
– *Bərzəx aləmi;*
– *Qəbir əzabı;*
– *Qəbir əzabından qurtulmağın yolları;*
– *Dirilmə;*
– *Məhşər günü;*
– *Cənnət və Cəhənnəm;*
– *Cənnətə ən son daxil olacaq möminin əhvalatı.*

Əzəmətli və qüdrətli Allahdan Onun gözəl adları və uca sifətləri ilə diləyirik ki, bizim bu əməlimizə bərəkət versin, onu məhz Allahın rizasını qazanmaq xatirinə edilən əməllərdən etsin, bunun sayəsində bizə savab və mükafat bəxş etsin. Bu kitabı, onu oxuyub içində yazılanlara əməl edən və onun təbliğinə vəsilə olan kimsələr üçün faydalı etsin; bizi daim Özünün sevdiyi və razı qaldığı saleh əməlləri yerinə yetirməyə və haqqı deməyə müvəffəq etsin. Allah hər şeyi Eşidən, duaları Qəbul Edəndir. İnsanı yaxşı işlər görməyə müvəffəq edən və onu doğru yola yönəldən də yalnız Allahdır.

Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur.

Peyğəmbərimizə, onun ev əhlinə, səhabələrinə və onların ardıcıllarına Allahın salavatı və salamı olsun!

***Əlixan Musayev***
*04.04.2026*

# Ölümü xatırlamaq

İnsana ölümü xatırladan ən gözəl nəsihətçi Allahın nazil etdiyi Qurandır. Bu mübarək Kitabı oxuyan hər kəs əcəli yetişdikdə öləcəyini və bunun qaçılmaz olduğunu dərk edir. Ölümü xatırladan ayələrdən bəzisini misal çəkək:

**"Hər kəs ölümü dadacaq".**[1]

**"*Yer* üzündə olan hər kəs ölməyə məhkumdur".**[2]

**"Harada olursunuzsa olun, hətta əlçatmaz qalalarda olsanız belə, ölüm sizi haqlayacaq".**[3]

**«De: "Qaçdığınız ölüm sizi mütləq haqlayacaq. Sonra siz qeybi və aşkarı bilən *Allahın* hüzuruna qaytarılacaqsınız. O da sizə nə etdiklərinizi xəbər verəcək"».**[4]

"(Ey Muhəmməd!) **Şübhəsiz ki, sən də öləcəksən, onlar da öləcəklər".**[5]

Quranda ölümün təkrar-təkrar xatırlanması məsələnin ciddiliyindən xəbər verir. Belə ki, insan öləcəyini və ölümdən sonrakı həyatda əməllərinə görə haqq-hesaba çəkiləcəyini bildikdə, pis əməllərindən çəkinib yaxşı işlər görməyə tələsir. Beləliklə o, Allah yanında ən ağıllı insanlardan sayılar. Bu xüsusda rəvayət edilmiş hədisdə xəbər verilir ki, bir gənc Peyğəmbərdən ﷺ: "Ey Allahın elçisi, hansı mömin ən ağıllı *mömin* sayılır?"– deyə soruşdu, Peyğəmbər ﷺ də dedi: **"Ölümü tez-tez xatırlayan və ölümdən sonrakı həyata tədarük görən *möminlər*. Onlar həqiqətən də, ağıl sahibləridir".**[6]

---

[1] "Ali-İmran" surəsi, 185.
[2] "ər-Rəhman" surəsi, 26.
[3] "ən-Nisa" surəsi, 78.
[4] "əl-Cumuə" surəsi, 8.
[5] "əz-Zumər" surəsi, 30.
[6] "Sunən İbn Macə", 4259; "Səhih İbn Macə", 3454.

Digər bir hədisdə Peyğəmbər ﷺ: **“Ləzzətlərə son qoyan ölümü tez-tez xatırlayın!”**– demişdir.[1]

Başqa bir hədisdə rəvayət edilir ki, İbn Ömər رضي الله عنهما demişdir: “*Bir dəfə* Peyğəmbər ﷺ mənim çiynimdən tutub dedi: **“Dünyada bir qərib, yaxud bir müsafir kimi ol!”**

İbn Ömər رضي الله عنهما [bu hədisi danışdıqda] deyərmiş: “Axşama çıxdıqda səhərə, səhərə çıxdıqda da axşama sağ qalacağına arxayın olma! Xəstələnənədək sağlamlığından və ölənədək həyatından istifadə et”.[2]

Bu hədislər dünya həyatının fani olduğunu və axirətlə müqayisədə Allah yanında heç bir dəyəri olmadığını xəbər verir. Bu həqiqətə etiqad edən hər kəs öləcəyini daim xatırlamalı və ölümdən sonrakı əbədi həyata hazırlıq görməlidir. Belə ki, əcəlin insanı hər an haqlaya biləcəyi danılmaz həqiqətdir, ölüm barədə düşünmədən uzun illər yaşamaq arzusu isə xam xəyaldır. Bu xüsusda rəvayət edilmiş hədisdə xəbər verilir ki, bir dəfə Peyğəmbər ﷺ əlindəki çubuqla yerdə düzbucaq cızdı. Sonra onun ortasından kənara bir düz xətt çəkdi, həmin xətt boyu da qısa-qısa xətlər cızıb dedi: **“Bu *ortadakı xətt* insandır. Bu *düzbucaq* onun əcəlidir. Kənara çıxan bu *uzun* xətt onun arzularıdır. Bu qısa xətlər *qədərinə yazılmış* müsibətlərdir. Əgər bir müsibət ondan yan keçərsə, digəri onu yaxalayar. İnsan arzularla yaşadığı bir vaxtda yaxın olan əcəli onu haqlayar”.**[3]

Hədisdən aydın olur ki, hər bir insan arzularla yaşasa da, əcəli onun bir çox arzularının həyata keçməsinə imkan vermir. Odur ki, ağıllı insan könlünü fani dünyaya bağlamadan əbədi

---

1 “Sunən ət-Tirmizi”, 2307; “Səhih ət-Tərğib vət-Tərhib”, 3333.

2 “Səhih əl-Buxari”, 6414.

3 “Səhih əl-Buxari”, 6417.

Axirət yurduna hazırlıq görməlidir. Bu mənada iki dahi şəxsiyyətin şeirlə dedikləri nəsihətləri də ibrətamizdir:

İmam əş-Şafii ﵀ belə demişdir:

*Ağlayırdın ey insan sən dünyaya gələndə,*
*Sevinib gülürdülər insanlar yan-yörəndə.*
*Özün üçün gün ağla, elə işlər gör ki sən,*
*Onlar ağlayan zaman, sevinəsən, güləsən.*[1]

Nizami Gəncəvi ﵀ də belə demişdir:

*İstər bir gün yaşa, istərsə yüz il,*
*Bu nurlu eyvandan köçəcəksən, bil.*
*Yaxşısı budur ki, könlünü şad et,*
*O böyük Allahı şadlıqla yad et!*[2]

*Uzaq yola çıxırsan, mənzilin çox uzaqdır,*
*Azuqəni hazırla, son mənzil – ölüm haqdır.*[3]

---

[1] "Bəyan Əhəmiyyətul-vəqt", səh. 22.
[2] "Xosrov və Şirin", səh. 53.
[3] "Sirlər Xəzinəsi", səh. 113.

# Ölüm anı

Əvvəlki fəsildə qeyd etdik ki, əcəli çatan hər bir insan bu fani dünyadan köçür. İnsan ölüm ayağında can verərkən, bir dəstə mələk yer üzünə enir və onun gözünün gördüyü son məsafədə durub, Allahın buyuruğunu gözləyirlər. Nəhayət, uca Allah o insan barədə hökm verdikdə, mələklər onu – əməlisaleh insandırsa, cənnətlik, əks halda isə cəhənnəmlik olacağını xəbər verirlər. Bu xüsusda Quranda belə xəbər verilir:

**"Həqiqətən də: "Rəbbimiz Allahdır!"– deyib, sonra düz yol tutan *ölüm yatağında ikən* mələklər nazil olub onlara *deyirlər:* "Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin! Biz dünya həyatında da, axirətdə də sizin dostlarınızıq. Cənnətdə sizin üçün nəfsinizin çəkəcəyi hər şey hazırlanmışdır. Orada istədiyiniz hər şey vardır".**[1]

**"Zalımları ölüm girdabında olduqda, mələklərin də əllərini uzadıb onlara: "Canınızı çıxarın! Allaha qarşı nahaq sözlər söylədiyinizə və Onun ayələrinə təkəbbür göstərdiyinizə görə bu gün siz alçaldıcı əzabla cəzalandırılacaqsınız!"– *dediklərini* bircə görəydin".**[2]

Hədisdə Rəsulullah ﷺ belə demişdir: **"İnsan ölüm yatağında ikən mələklər onun yanına enir. Əgər o əməlisaleh insandırsa, mələklər ona belə buyururlar: "Ey gözəl bədəndə olan gözəl can, oradan tərifə layiq olduğun halda çıx! Sənə verilən rahatlığa və ruziyə[3], üstəlik, Rəbbinin sənə qəzəblənməməsinə**

[1] "Fussilət" surəsi, 30-31.

[2] "əl-Ənam" surəsi, 93.

[3] Bu xüsusda Quranda belə buyurulur: **"*Can* boğaza yetişdiyi zaman siz *can verən adama* baxırsınız. Biz ona sizdən daha yaxın oluruq, siz isə**

**sevin!" Onun canı bədənindən çıxanadək mələklər belə deməyə davam edərlər".**[1]

Nəhayət, cənazə mafəyə qoyulub məzarlığa aparıldıqda insanlar onun ünvanına ya xoş sözlər, ya da xoşagəlməz sözlər söyləyirlər. Bu da, onun üçün bir müjdə sayılır. Bu xüsusda rəvayət edilmiş hədisdə Peyğəmbərin ﷺ səhabəsi Ənəs رضي الله عنه demişdir: "*Bir dəfə* bir cənazə aparılarkən biz onu xoş sözlərlə yad edib təriflədik. Peyğəmbər ﷺ: **"Vacib oldu!"**– dedi. Sonra başqa bir cənazə aparılarkən biz onu xoşagəlməz sözlərlə yad edib pislədik. Peyğəmbər ﷺ *yenə*: **"Vacib oldu!"**– dedi. Ömər ibn əl-Xattab رضي الله عنه soruşdu: "Nə vacib oldu, *ey Allahın elçisi*?" Peyğəmbər ﷺ buyurdu: **"Siz bu adamı xoş sözlərlə yad etdiniz, Cənnət ona vacib oldu. O birini də xoşagəlməz sözlərlə yad etdiniz, Cəhənnəm ona vacib oldu. Siz Allahın yer üzündəki şahidlərisiniz".**[2]

Bu hədisdə diqqət çəkilən məqam əməlisaleh möminlərin tərifləməsidir. Peyğəmbər ﷺ: **"Siz Allahın yer üzündəki şahidlərisiniz"**– deyir. Burada **"siz"** deyildikdə, Peyğəmbərin ﷺ yolu ilə gedən əməlisaleh möminlər qəsd edilir. Yoxsa, kafirin, müşrikin, münafiqin və ya bidət əhlinin ölən adamı tərifləməsinin ona heç bir faydası yoxdur.

Digər hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ məzarlığa aparılan bir cənazəni görüb belə dedi: **"Rahatlıq tapan və**

---

***bunu* görmürsünüz. Madam ki, siz haqq-hesab olunmayacağınızı iddia edirsiniz və doğru danışanlarsınız, onda, o canı geri qaytarın. Əgər o, *Allaha* yaxın olanlardandırsa, onda, o, rahatlığa, gözəl ruziyə və Nəim bağına yetişər".** ("əl-Vaqiə" surəsi, 83-89).

[1] "Sunən İbn Macə", 4252; "Mişkat əl-Məsabih", 1627.

[2] "Səhih əl-Buxari", 1367.

**əlindən** (şərindən) **rahatlıq tapılan kəs".** Səhabələr: "Ya Rəsulullah, istirahət edən kəs və əlindən istirahət edilən kəs nə deməkdir?"– deyə soruşduqda, Peyğəmbər ﷺ belə dedi: **"Mömin adam dəfn edildikdə, dünyadakı yorğunluqdan və əziyyətlərdən qurtulub Allahın rəhmətinə qovuşur və canı rahatlıq tapır. Günahkar adama gəlincə, onun əlindən zara gəlmiş insanlar, məmləkətlər, ağaclar və heyvanlar onun əziyyətlərindən qurtularaq rahatlıq tapırlar".**[1]

[1] "Səhih əl-Buxari", 6513; "Səhih Muslim", 950.

# Ölüm anında insanı xilas edən zikrlər

Əziz müsəlmanlar! Ölüm anı hər nə qədər gözlənilməz, stresli və acınacaqlı olsa da, Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi zikrləri ölüm yatağında olan müsəlmana təlqin edin ki, uca və nöqsansız Allah bunun sayəsində onu Cəhənnəm odundan xilas edib, Cənnətlik etsin. Bu xüsusda Allah Rəsulu ﷺ ümmətinə belə tövsiyə etmişdir: **“Ölüm yatağında olanlarınıza:**

(( لاَ إِلَهَ إِلاَّ اللَّهُ ))

**“La ilahə illəllah”[1] kəlməsini təlqin edin. Kimin ölüm ayağında son sözü “la ilahə illəllah” olarsa, o, Cənnətlik olar”.[2]**

Digər hədisdə Peyğəmbər ﷺ demişdir: **“Bəndə: “Allahdan başqa haqq məbud yoxdur, Allah ən böyükdür!”– deyəndə, izzət və cəlal sahibi Allah: “Qulum doğru söylədi. Məndən başqa haqq məbud yoxdur və Mən ən böyüyəm”– buyurur. Bəndə: “Allahdan başqa haqq məbud yoxdur, O, Təkdir!”– deyəndə, izzət və cəlal sahibi Allah: “Qulum doğru söylədi. Məndən başqa haqq məbud yoxdur. Mən Tək İlaham”– buyurur. Bəndə: “Allahdan başqa haqq məbud yoxdur, Onun şəriki yoxdur!”– deyəndə, izzət və cəlal sahibi Allah: “Qulum doğru söylədi. Məndən başqa haqq məbud yoxdur və Mənim şərikim yoxdur”– buyurur. Bəndə: “Allahdan başqa haqq məbud yoxdur, mülk Onundur, həmd Ona məxsusdur!”– deyəndə, izzət və cəlal sahibi Allah: “Qulum doğru söylədi. Məndən başqa haqq məbud yoxdur. Mülk Mənimdir, həmd**

---

[1] Tərcüməsi: Allahdan başqa *ibadətə layiq* məbud yoxdur.

[2] “Səhih İbn Hibban”, 3004; “Səhih əl-Cami”, 5150.

**Mənə məxsusdur!"– buyurur. Bəndə: "Allahdan başqa haqq məbud yoxdur, qüdrət və güc yalnız Allahdadır!"– deyəndə, izzət və cəlal sahibi Allah: "Qulum doğru söylədi. Məndən başqa haqq məbud yoxdur, qüdrət və güc yalnız Məndədir!"– buyurur".** Sonra Peyğəmbər ﷺ sözünə davam edib buyurdu: **"Kim ölüm qabağı bu zikri etsə, Cəhənnəm odu ona toxunmaz!"**[1]

Bu hədisdə qeyd edilən beş zikrin ərəbcəsi belədir:

(( لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَاللَّهُ أَكْبَرُ، لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ، لاَ إِلَهَ إِلاَّ اللَّهُ لاَ شَرِيكَ لَهُ، لاَ إِلَهَ إِلاَّ اللَّهُ لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَلاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللَّهِ ))

**[La ilahə illəllah, vəllahu əkbər! La ilahə illəllah, vəhdəhu! La ilahə illəllah, lə şərikə ləh! La ilahə illəllah, ləhul-mulku və ləhul-həmd! La ilahə illəllah vələ hovlə vələ quvvətə illə billəh".**

Yenə bir rəvayətdə xəbər verilir ki, Aişə رضي الله عنها demişdir: "Peyğəmbər ﷺ ölüm yatağında ikən əllərini suyun içinə salır, sonra yaş əllərini üzünə sürtüb deyirdi: **"La ilahə illəllah! Həqiqətən də, ölümün bihuşluğu vardır".** Son nəfəsində o, əllərini qaldırıb:

(( اللَّهُمَّ اغْفِرْ لِي وَارْحَمْنِي وَأَلْحِقْنِي بِالرَّفِيقِ الأَعْلَى ))

---

[1] "Sunən ət-Tirmizi", 3728; "Sunən ən-Nəsai əl-Kubra", 10108; "Sunən İbn Macə", 3794; "Silsilə əl-Əhadis əs-Səhihə", 1390.

**"Allahumməğ-firli, vər-həmni və əlhiqni bir-rəfiqil-ə'la"**[1]– deməyə başladı. Nəhayət, ruhu bədənindən çıxdı və əlləri yanına düşdü."[2]

Qeyd etmək lazımdır ki, ölüm yatağında olan adamın bu zikrləri ərəbcə deməsi daha yaxşıdır. Elə isə, qoy, bu zikrləri ona təlqin edən adam bunları ona ərəbcə söyləsin, o da, bunu təkrarlasın. Eyni zamanda yaxşı olar ki, həyatda ikən müsəlmanlar bu zikrləri özləri üçün əzbərləsinlər.

Dahi şairimiz Nizami Gəncəvinin ﷺ bu xüsusda gözəl şeir parçası var. Diqqət edin, görün, şair Allahdan nə diləyir:

*Gələndə son yuxu, bitəndə tabım,*
*Güllərim tökülsə, qalsın gülabım.*
*Dilimə Sən Özün bəxş et şəhadət,*
*İşimin sonunda tapım səadət.*[3]

Şairin sözündən başa düşülən budur ki, "Allahım, əcəlim yetişib, ruhum bədənimdən çıxdıqdan sonra özüm dünyadan köçmüş olsam da, əməllərimi yaşat. Son nəfəsimdə məni: **"La ilahə illəllah"** deməyə müvəffəq et ki, axırda cənnətlik olum!"

---

[1] Tərcüməsi: Allahım, məni bağışla, mənə rəhm et və məni uca dosta qovuşdur!

[2] "Səhih əl-Buxari", 5674; "Səhih Muslim", 7/137.

[3] "Xosrov və Şirin", səh: 29.

# Ölümdən sonrakı həyata hazırlıq görmək

Əvvəldə qeyd etdiyimiz hədisdən bizə aydın oldu ki, ölümü xatırlayan və ölümdən sonrakı həyata hazırlıq görən insan möminlərin ən ağıllısı hesab edilir.

"Hazırlıq görmək" deyəndə, Allahın razılığını qazanmağa səy göstərmək qəsd edilir. Yəni bu həyatda Allahın razı qaldığı əməlləri edib, Onun razılığını qazanan mömin adam artıq bərzəx aləmindəki, sonra da axirətdəki sorğu-suala hazırlıq görmüş sayılır. Bu xüsusda rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: **"Kim Allahla qarşılaşmaq istəsə, Allah da onunla qarşılaşmaq istəyər, kim də Allahla qarşılaşmaq istəməsə, Allah da onunla qarşılaşmaq istəməz".** Aişə dedi: "Axı, biz ölmək istəmirik?" Peyğəmbər ﷺ dedi: **"Mən bunu qəsd etmirəm. İş orasındadır ki, möminə ölüm yetişdiyi zaman ona müjdə verilir ki, Allah *ondan* razı qalmış və ona ehtiram göstərmişdir. Həmin an onun üçün qarşıda onu gözləyən *nemətdən* daha sevimli bir şey ola bilməz. Odur ki, o, Allahla qarşılaşmaq istəyir, Allah da onunla qarşılaşmaq istəyir. O ki, qaldı kafirə, *ölüm* onu haqladığı zaman ona müjdə verilir ki, Allah onu əzaba düçar edəcək və onu cəzalandıracaqdır. Həmin an onun üçün qarşıda onu gözləyən *bəladan* daha pis bir şey ola bilməz. Odur ki, o, Allahla qarşılaşmaq istəmir, Allah da onunla qarşılaşmaq istəmir".**[1]

Digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: **"Cənazə hazırlanıb mafəyə qoyulduqda və kişilər onu çiyinlərinə alıb apardıqda, ölən adam əməlisaleh olmuşdursa: "Məni tez aparın"– deyər, yox, pis adam olmuşdursa: "Vay halıma! Məni**

[1] "Səhih əl-Buxari", 6507.

**hara aparırsınız?"– deyər və onun səsini insanlardan başqa hamı eşidər. Əgər insan bu səsi eşitsə, bayılıb yerə yıxılar".**[1]

"Allahın razılığını qazanmaq və Onunla qarşılaşmaq istəyən möminlərdən olmaq üçün nə etmək lazımdır?" – Allahın rizasını qazanmaq üçün Onun buyuruqlarını yerinə yetirmək, qadağalarından çəkinmək və göndərdiyi Rəsulun ﷺ yolu ilə getmək lazımdır. Eyni zamanda, bütün bu edilənlər ixlasla, yəni yalnız Allahın razılığını qazanmaq üçün edilməlidir. Belə olarsa, Allah bizi sevər, bizdən razı qalar və bizi Öz mərhəmətinə qovuşdurar. Bu xüsusda Qurani-Kərimdə belə buyurulur:

**«De: "Əgər siz Allahı sevirsinizsə, mənim yolumla gedin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah çox bağışlayandır, rəhmlidir"».**[2]

**"Kim Allaha və Onun rəsuluna itaət edərsə,** ***Allah*** **onu** *ağacları və qəsrləri* **altından çaylar axan, içində əbədi qalacağı cənnətlərə daxil edər".**[3]

**"Mərhəmətim hər şeyi əhatə edir. Mən onu pis əməllərdən çəkinən, zəkat verən və ayələrimizə iman gətirənlər üçün yazacağam. O kəslər ki, yanlarındakı Tövrat və İncildə özü barəsində yazılmış olduğunu gördükləri elçinin – yazıb-oxumaq bilməyən peyğəmbərin ardınca gedirlər".**[4]

İslam tarixində Allahın razılığını qazanmış ən nümunəvi möminlər səhabələr olmuşlar. Peyğəmbər ﷺ onlar haqqında belə buyurmuşdur: **"Mənim səhabələrimi söyməyin! Əgər sizdən biriniz Uhud dağı boyda qızıl sədəqə versə, onlardan**

---

1 "Səhih əl-Buxari", 1380.

2 "Ali-İmran" surəsi, 31.

3 "ən-Nisa" surəsi, 13.

4 "əl-Əraf" surəsi, 156-157.

**birinin verdiyi bir ovuc sədəqəyə, hətta onun yarısına belə çata bilməz”.**[1]

Bu səhabələr:

1) Mühacirlər. Mədinəyə hicrət etmiş möminlər.

2) Ənsar. Mədinə əhalisindən İslam dinini qəbul etmiş və mühacirlərə sığınacaq vermiş möminlər.

3) Məkkənin fəthindən sonra Peyğəmbərin ﷺ vəfatınadək İslam dinini qəbul etmiş möminlər[2].

Səhabələr İslam ümmətinin ən fəzilətli möminləri sayılırlar. Ona görə İslam tarixi boyu, həmçinin indiki dövrdə də dünyanın hər yerində səhabə adı çəkildikdə böyük ehtiramla: “Radıyallahu anhu” (Allah ondan razıdır) deyilib, deyilir və deyiləcək də.

Uca Allah onlardan razı qaldığını Quranda belə bildirir:

***“Dində*** **hamını ötüb keçən mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da** ***Allahdan*** **razıdırlar.** ***Allah*** **onlar üçün** ***ağacları və qəsrləri*** **altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər hazırlamışdır. Bu, böyük uğurdur.”**[3]

Bu ayədə: **“həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlər...”** deyilir. Bu da, o deməkdir ki, Allah səhabələr kimi Öz buyuruqlarını yerinə yetirən, habelə qadağalarından çəkinən və Peyğəmbərin ﷺ yolu ilə ilə gedən hər bir mömindən razıdır.

---

[1] “Səhih əl-Buxari”, 3673.

[2] Yəni hicrətin 10-cu ilinədək Peyğəmbərlə ﷺ görüşərək İslamı qəbul etmiş möminlər. Belə ki, Peyğəmbərin ﷺ vəfatından sonra İslamı qəbul etmiş möminlər artıq səhabə sayılmır.

[3] “ət-Tövbə” surəsi, 100.

Peyğəmbər ﷺ də onları belə tərif etmişdir: **"Ən xeyirli insanlar mənim dövrümdə yaşayan səhabələrimdir. Sonra onların ardınca gələnlər, sonra da onların ardınca gələnlər".**[1]

Gəlin özümüzü imtahan edək: "Allahın razılığını qazanmaq üçün Ona ibadət edirikmi – namaz qılır, oruc tutur, zəkat verir və digər ibadətləri yerinə yetiririkmi? Həmçinin, Allaha şərik qoşmaqdan uzaq dururuqmu? Zina etmək, içki içmək, qumar oynamaq, adam öldürmək, oğurluq etmək və başqa bu kimi günahlardan çəkinirikmi?" Əgər bunları ixlasla və Sünnəyə uyğun ediriksə, xoş bizim halımıza! Ümid edə bilərik ki, bəlkə Allah bizdən razı qalar və bizi Öz dostlarının cərgəsinə daxil edər: **"O kəslər ki, Rəbbinin rizasını qazanmaq üçün səbir edir, namaz qılır, onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləyir və pisliyi yaxşılıqla dəf edirlər. Onlar üçün Axirət yurdu – özlərinin, əməlisaleh atalarının, zövcələrinin və övladlarının daxil olacaqları Ədn cənnətləri hazırlanmışdır. Mələklər *Cənnətdəki* hər bir qapıdan onların yanına daxil olub *deyəcəklər*: "*Dünyadakı çətinliklərə* səbir etdiyinizə görə sizə salam olsun! Axirət yurdu necə də gözəldir".**[2]

Əziz müsəlmanlar! Bilin ki, mömin insana bəxş ediləcək ən böyük nemət Allahın ondan razı qalmasıdır. Bu xüsusda Qurani-Kərimdə belə buyurulur: **"Allah mömin kişilərə və mömin qadınlara *ağacları və qəsrləri* altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər və Ədn cənnətlərində gözəl məskənlər vəd etmişdir. Allahın razılığı isə daha böyükdür. Bu, böyük uğurdur".**[3]

---

[1] "Səhih əl-Buxari", 2652.
[2] "ər-Rəd" surəsi, 22-24.
[3] "ət-Tövbə" surəsi, 72.

Peyğəmbər ﷺ xəbər vermişdir ki, Qiyamət günü uca Allah möminlərə belə buyuracaq: **“Cənnətə daxil olun, orada gözünüzün gördüyü hər nə varsa, sizindir!” Onlar deyəcəklər: “Ey Rəbbimiz, Sən aləmlərdən heç kəsə vermədiyin nemətləri artıq bizə bəxş etmisən”. Uca Allah buyuracaq: “Sizə bundan daha üstün olanını hazırlamışam”. Onlar deyəcəklər: “Ey Rəbbimiz, bundan daha üstün nə ola bilər ki?” Allah buyuracaq: “Mənim sizdən razı qalmağım – Mən artıq heç vaxt sizə qəzəblənməyəcəm”.**[1]

Ağıllı mömin bu deyilənlərdən nəticə çıxarıb ölümdən sonrakı həyatı üçün hazırlıq görməlidir ki, sonra peşman olub deməsin: **“Kaş *axirət* həyatım üçün əvvəlcədən hazırlıq görəydim!”**[2]

Rəvayət edilir ki, Peyğəmbər ﷺ dünyasını dəyişmiş bir səhabəsini dəfn edərkən, qəbrin yanında oturub, ağlaya-ağlaya səhabələrinə belə buyurmuşdur: **“Qardaşlarım, bu gününüz üçün hazırlıq görün!”**[3]

Allahdan istəyimiz budur ki, bizim üçün ismətli olan dinimizi, yaşadığımız dünyamızı və qayıdacağımız axirətimizi yaxşılaşdırsın, habelə, xeyirli işlər üçün ömrümüzü artırsın, ölümümüzü isə şər əməllərdən qurtulmaq üçün rahatlıq vasitəsi etsin!

---

[1] “Səhih Muslim”, 183.

[2] “əl-Fəcr” surəsi, 24.

[3] “Sunən İbn Macə”, 4195; “Səhih ət-Tərğib vət-Tərhib”, 3338.

# Gözəl sonluğun əlamətləri

İnsanın sonluğunun necəliyi onun öz seçiminə bağlıdır. Uca Allah nazil etdiyi Quran və göndərdiyi peyğəmbər ﷺ vasitəsilə insana hər iki yolu – Cənnətə və Cəhənnəmə aparan yolları göstərib, seçimi isə insanın öz öhdəsinə buraxıb. Bu xüsusda Quranda belə buyurulur:

**"Biz Kitabı sənə, insanlar üçün haqq olaraq nazil etdik. Kim doğru yolla getsə, *xeyri* onun özünə, kim azğınlığa düşsə, *ziyanı* onun öz əleyhinə olar. Sən onlara vəkil deyilsən".**[1]

**«De: "Haqq Rəbbiniz tərəfindəndir – kim istəyir inansın, kim də istəyir inanmasın"».**[2]

**"Biz ona iki göz vermədikmi?! Eləcə də, bir dil və iki dodaq *vermədikmi*?! Ona iki yolu – *doğru və əyri yolu* göstərmədikmi?!"**[3]

**«*De:* "Rəbbinizdən sizə göz qabağında olan dəlillər gəldi. Kim *onları* görsə, *xeyri* onun özünə, kim kor olsa, *zərəri* onun öz əleyhinə olar. Mən sizin üstünüzdə gözətçi deyiləm"».**[4]

Deməli, Peyğəmbərin ﷺ yolu ilə gedən möminə gözəl sonluq, şeytana uyan fasiqə isə pis sonluq nəsib olur. Bu xüsusda rəvayət edilmiş hədislərə nəzər salaq:

***Gözəl sonluq barədə Peyğəmbər ﷺ bunları demişdir:***

**1. "Kimin son sözü "la ilahə illəllah" olarsa, Cənnətə daxil olar".**[1]

---

[1] "əz-Zumər" surəsi, 41.
[2] "əl-Kəhf" surəsi, 29.
[3] "əl-Bələd" surəsi, 8.
[4] "əl-Ənam" surəsi, 104.

**2. "Mömin insan vəfat edərkən alnı tərləyər".[2]**

**3. "Cümə günü və ya cümə gecəsi vəfat etmiş elə bir müsəlman yoxdur ki, Allah onu qəbir fitnəsindən qorumuş olmasın".[3]**

**4. "Allah yolunda bir gün və bir gecə sərhəddə keşik çəkmək bir ay *gündüzləri* oruc tutmaq, gecələrini də namazda keçirməkdən daha xeyirlidir. *Mömin adam sərhəddə keşik çəkərkən* ölərsə, etdiyi yaxşı əməlləri davamlı olaraq onun savabını artırar[4], ona xeyirli ruzi bəxş edilər və o, fitnədən qorunar[5]".[6]**

**5. "Allah yanında şəhid üçün xislətlər vardır: *yarasından* axan ilk damla qanla günahları bağışlanar, Cənnətdəki yerini görər, qəbir əzabından qurtular, ən böyük dəhşətdən[7] qorunar,**

---

[1] "Sunən Əbu Davud", 3116; "Səhih əl-Cami", 6479.

[2] "Sunən ət-Tirmizi", 982; "Sunən ən-Nəsai", 1828; "Sunən İbn Macə", 1452; "Musnəd İmam Əhməd", 23014; "Səhih əl-Cami", 6665.

[3] "Sunən ət-Tirmizi", 1074; "Musnəd İmam Əhməd", 6646 və 7050; "Səhih əl-Cami", 5773.

[4] Mömin, sərhəddə keşik çəkdiyi zaman şəhid olarsa, vaxtı ilə etdiyi yaxşı əməlləri Qiyamət gününədək ona savab qazandırar. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Dünyadan köçən hər kəsin əməl dəftərinə möhür vurulur. Yalnız Allah yolunda sərhəd boyu keşik çəkən mömindən başqa – onun əməli Qiyamət gününədək onun savablarını artırır".** ("Sunən Əbu Davud", 2500).

[5] Şəhidin fitnədən qorunmasına gəlincə, bu o deməkdir ki, qəbirdə hər kəsdən: "Rəbbin kimdir? Peyğəmbərin kimdir? Dinin nədir?"– deyə soruşan Nəkir və Munkir adlı mələklər, Allah yolunda şəhid olan kimsənin yanına gəlib ona bu sualları verməyəcəklər. ("Şərh Riyadus-Salihin", 5/355).

[6] "Səhih Muslim", 1913.

[7] Burada söhbət Qiyamət gününün dəhşətindən gedir. O günün dəhşətindən qorunacaq möminlər barədə Quranda belə buyurulur: **"Əzəldən özlərinə ən gözəl aqibət yazılmış kimsələrə gəlincə, onlar Cəhənnəm odundan uzaqlaşdırılacaqlar. Onlar onun xışıltısını belə eşitməyəcəklər.**

**iman bəzəyi ilə bəzədilər[1], [yetmiş iki[2]] huri ilə evləndirilər və öz yaxınlarından yetmiş nəfərə şəfaətçilik edər”.[3]**

**6. “Kim öz malını qorumaq üçün vuruşub ölərsə, şəhiddir. Kim öz dinini qorumaq üçün vuruşub ölərsə, şəhiddir. Kim öz canını qorumaq üçün vuruşub ölərsə, şəhiddir. Kim öz ailəsini qorumaq üçün vuruşub ölərsə, şəhiddir”.[4]**

**7.** Rəvayət edilir ki, bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib dedi: “Ya Rəsulullah, əgər bir adam [haqsız yerə] mənim malımı əlimdən almaq istəsə, *mən nə edim*?” Peyğəmbər ﷺ: **“Malını ona vermə”**– deyə buyurdu. Adam soruşdu: “Yaxşı, bəs mənimlə vuruşsa necə olsun?” Peyğəmbər ﷺ: **“Sən də onunla vuruş”**– deyə buyurdu. Adam soruşdu: “Bəs məni öldürsə necə?” Peyğəmbər ﷺ: **“Sən şəhid olarsan”**[5]– dedi. Adam soruşdu: “Bəs

---

**Onlar ürəkləri istədikləri nemətlər arasında əbədi qalacaqlar. Ən böyük dəhşət onları kədərləndirməyəcək. Mələklər onları qarşılayıb *deyəcəklər*: “Bu sizə vəd olunmuş gününüzdür!”** (“əl-Ənbiya” surəsi, 101-103).

[1] Başqa bir rəvayətdə deyilir ki: **“... onun başına vüqar tacı qoyular. O elə bir tacdır ki, onun üzərindəki yaqutların hər biri bu dünya və onun içindəkilərdən daha xeyirlidir”.** (“Sunən ət-Tirmizi”, 1663).

[2] Bu söz imam Tirmizinin “Sunən” əsərində (1663) rəvayət edilib.

[3] “Sunən ət-Tirmizi”, 1756; “Səhih ət-Tərğib vət-Tərhib”, 1375.

[4] “Sunən Əbu Davud”, 4772; “Səhih əl-Cami”, 6445.

[5] Şəhidlər iki qismə bölünürlər:

Birincisi, Allah yolunda vuruşub ölən kimsələrdir. Bunlar həm axirət mükafatını qazanmaq baxımından, həm də dünyəvi əhkamlara görə şəhid sayılırlar. Yəni şəhid olduqlarına görə onları nə qüsl etmək, nə də onların cənazə namazını qılmağa lüzum olmur.

İkincisi, taun xəstəliyindən ölən, dənizdə batan, uçqun altında qalıb həlak olan, malını qorumaq üçün vuruşub ölən, habelə səhih hədislərdə şəhid adlandırılmış, yalnız axirət mükafatını qazanmaq baxımından şəhid sayılan kimsələrdir. Dünyəvi əhkamlara görə isə digər müsəlmanlar kimi onları

mən onu öldürsəm necə?" Peyğəmbər ﷺ: **"O, cəhənnəmlik olar"**– dedi."[1]

**8. "Beş sinif insan[2] şəhid sayılır: taundan[3] ölən, qarın xəstəliyindən ölən, suda boğulan, uçqun altında qalıb ölən və Allah yolunda *vuruşub* şəhid olan kimsələr".[4]**

**9. "Hamilə qadının bətnindəki övladı onun ölümünə səbəb olarsa, həmin qadın şəhid sayılar".[5]**

**10. "Kim Allah rizasını qazanmaq məqsədilə oruc tutduğu halda vəfat edərsə, Cənnətə daxil olar. Kim Allah rizasını qazanmaq məqsədilə sədəqə verərkən vəfat edərsə, Cənnətə daxil olar[6]".[7]**

*Pis sonluq barədə isə Peyğəmbər ﷺ belə demişdir:*

**"Özündən başqa haqq məbud olmayan Allaha and olsun ki, sizlərdən biri ömrü boyu Cənnət əhlinin əməli kimi əməllər edər[8] və nəhayət, onunla Cənnət arasında bir dirsək**

---

qüsl etmək və onlara cənazə namazı qılmaq vacibdir. Onu da qeyd edək ki, onların axirət mükafatı birincilərin mükafatı kimi olmaya bilər.

[1] "Səhih Muslim", 140.

[2] Burada yalnız mömin insanlar nəzərdə tutulur.

[3] Davamlı qusma və ishal ilə müşayiət olunan yoluxucu xəstəlik.

[4] "Səhih əl-Buxari", 653; "Səhih Muslim", 2674.

[5] "Musnəd İmam Əhməd", 4/201; Albani, "Əhkam əl-Cənaiz", 1/43.

[6] Hədisdə saleh əməllərə nümunə olaraq oruc və sədəqə misal çəkilsə də, İslam alimləri namazın, həccin, ümrənin və digər saleh əməllərin də buna aid olduğunu söyləmişlər.

[7] "Musnəd İmam Əhməd", 5/391; Albani, "Əhkam əl-Cənaiz", 1/39.

[8] Hədisin bu hissəsini izah edən digər rəvayətdə Peyğəmbər ﷺ belə demişdir: **"Həqiqətən, insanlara bir adamın Cənnət əhlinin əməli kimi bir əməl etdiyi görünə bilər, halbuki, həmin adam Cəhənnəm əhlindəndir".** ("Səhih əl-Buxari", 4203).

**məsafə qaldıqda əzəldən yazılmış qədəri onu qabaqlayar və o, Cəhənnəm əhlinin əməlinə bənzər əməl etməklə cəhənnəmlik olar”.**[1]

Əziz müsəlmanlar! Gözəl sonluğa nail olmaq üçün İslam dini bizə bir çox dualar öyrədib. Onlardan bəziləri bunlardır:

﴿ رَبِّ هَبْ لِي حُكْمًا وَأَلْحِقْنِي بِالصَّالِحِينَ، وَاجْعَلْ لِي لِسَانَ صِدْقٍ فِي الآخِرِينَ، وَاجْعَلْنِي مِنْ وَرَثَةِ جَنَّةِ النَّعِيمِ ﴾

---

Hədisdən aydın başa düşülür ki, insana görünən yaxşı əməllər qəbul olmaya bilər. Məsələn, adam münafiq ola bilər, bununla da o adamın sonu əvvəlinin tam əksi ola bilər. Ümumiyyətlə, insanlar özlərinin əvvəlinə və sonluqlarına görə dörd qismə bölünürlər:

1-ci qism, əvvəli də, axırı da yaxşı olan kəslərdir. O kəslər ki, müsəlman ailəsində doğulmuş, müsəlman kimi yaşamış və müsəlman olduqları halda da dünyadan köçmüşlər. Buna azyaşlı səhabələri misal çəkmək olar.

2-ci qism, əvvəli də, axırı da pis olan kəslərdir. O kəslər ki, kafir ailəsində doğulmuş, kafir kimi yaşamış və kafir olduqları halda da dünyadan köçmüşlər. Bunlara müşrik olduqları halda ölmüş Məkkə müşriklərini misal çəkmək olar.

3-cü qism, əvvəli yaxşı, axırı isə pis olan kəslərdir. O kəslər ki, müsəlman ailəsində doğulmuş, müsəlman kimi yaşasa da ömrünün sonunda mürtəd olmuş və kafir olduqları halda dünyadan köçmüşlər. Bunlara Peyğəmbərin ﷺ vəfatından sonra mürtəd olan və bu halda dünyadan köçən kimsələri misal göstərmək olar.

4-cü qism, əvvəli pis, axırı isə yaxşı olan kəslərdir. O kəslər ki, kafir ailəsində doğulmuş, kafir kimi yaşasa da ömrünün sonunda İslamı qəbul etmiş və müsəlman olduqları halda dünyadan köçmüşlər. Buna Musanın عليه السلام dövründə olan sehrbazları misal çəkmək olar. Buna həm də kitab əhlindən olsa da, ölüm yatağında ikən Peyğəmbərin ﷺ dəvətini qəbul edib müsəlman kimi dünyadan köçən bir gənci misal çəkmək olar.

[1] “Səhih əl-Buxari”, 3208; “Səhih Muslim”, 2643.

[Rabbi həb li hukmən və əlhiqni bis-salihin vəc-al li lisanə sidqin fil-axirin vəc-alni min vərəsəti cənnətin-nəim]

**"Ey Rəbbim, mənə hikmət ver və məni əməlisalehlərə qovuşdur! Sonra gələnlər arasında *həmişə yad edilim deyə* mənə yaxşı ad qismət elə və məni Nəim bağının varislərindən et!"[1]**

﴿ فَاطِرَ السَّمَاوَاتِ وَالأَرْضِ أَنْتَ وَلِيِّي فِي الدُّنْيَا وَالآخِرَةِ تَوَفَّنِي مُسْلِمًا وَأَلْحِقْنِي بِالصَّالِحِينَ ﴾

[Fatiras-səmavati vəl-ardi, əntə vəliyyi fid-dunya vəl-axirə, təvəffəni muslimən və əlhiqni bis-salihin]

**"Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim Himayədarımsan. Mənim canımı müsəlman olduğum halda al və məni əməlisalehlərə qovuşdur".[2]**

(( اللَّهُمَّ اغْفِرْ لِي وَارْحَمْنِي وَأَلْحِقْنِي بِالرَّفِيقِ الأَعْلَى ))

[Allahumməğ-firli vər-həmni və əlhiqni bir-rəfiqil-əla]

**"Allahım, məni bağışla, mənə rəhm et və məni uca dostlara qovuşdur!"[3]**

(( اللَّهُمَّ تَوَفَّنِي مَعَ الأَبْرَارِ، وَلاَ تُخَلِّفْنِي فِي الأَشْرَارِ، وَأَلْحِقْنِي بِالأَخْيَارِ ))

[Allahummə, təvəffəni məal-əbrar, vələ tuxəllifni fil-əşrar və əlhiqni bil-əxyar]

---

1 "əş-Şuəra" surəsi, 83-85.

2 "Yusuf" surəsi, 101.

3 "Səhih əl-Buxari", 5743; "Səhih Muslim", 7/15.

**“Allahım, mənim canımı itaətkarlarla birlikdə al, məni pis insanların arasında buraxma və məni xeyirxah insanlara qovuşdur”.**[1]

(( اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ إِيمَاناً لا يَرْتَدُّ، وَنَعِيماً لا يَنْفَدُ، وَمُرَافَقَةَ مُحَمدٍ – ﷺ– فِي أَعَلى جَنَّةِ الْخُلْدِ ))

[Allahummə, inni əs'əlukə imanən lə yərtəd, və nəimən lə yənfəd və murafəqətə Muhəmmədin səllallahu aleyhi və səlləm fi ə'ləl-cənnətil-xuld]

**“Allahım, Səndən dəyişməyən iman, tükənməyən nemətlər və Muhəmməd səllallahu aleyhi və səlləm ilə birlikdə ən uca cənnətdə olmağımı diləyirəm”.**[2]

[1] Buxari, “əl-Ədəb əl-Mufrad”, 629.
[2] “Sunən İbn Macə”, 138; “Musnəd İmam Əhməd”, 1/7.

## Bərzəx aləmi

Bərzəx aləminin[1] mövcud olması həqiqətdir. Bu xüsusda Qurani-Kərimdə kifayət qədər dəlillər vardır. Buna aşağıdakı ayələri misal gətirmək olar:

**– "Onlardan birinə ölüm gəldiyi zaman deyər: "Ey Rəbbim, məni geri** (dünyaya) **qaytar, bəlkə tərk etdiyim yaxşı əməlləri *indi* edəm". Xeyr! Onun bu dedikləri ancaq *boş* bir sözdür. Onları qarşıda diriləcəkləri günə qədər bərzəx *həyatı* gözləyir".**[2]

**– "Ətrafınızdakı bədəvilər və Mədinə əhalisi arasında ikiüzlülükdə mahir olan münafiqlər vardır. Sən onları tanımırsan, Biz isə onları tanıyırıq. Biz onlara iki dəfə əzab verəcəyik, sonra da *axirətdə* böyük bir əzaba düçar olacaqlar".**[3]

* Bu ayədə **"iki dəfə"** deyildikdə, dünyada və bərzəx aləmində verilən əzab qəsd edilir.[4]

**– "Firon nəslini dəhşətli əzab bürüdü. Onları səhər-axşam oda salırlar. Qiyamət gələcəyi gün isə Firon nəslini ən şiddətli əzaba salın!"**[5]

* **"Onları səhər-axşam oda salırlar".** Burada bərzəx aləmindəki əzab qəsd edilir.[6]

---

[1] Bərzəx, insanın öldükdən sonra diriləcəyi günə qədər qalacağı aləmdir. (Bax: İbn Kəsir, "Təfsir", 5/430).

[2] "əl-Muminun" surəsi, 99-100.

[3] "ət-Tövbə" surəsi, 101.

[4] "Təfsir ət-Təbəri", 11/11.

[5] "ət-Tövbə" surəsi, 72.

[6] "Təfsir İbn Kəsir", 4/82.

Peyğəmbərin ﷺ hədislərindən isə aşağıdakı nümunələri misal gətirmək olar:

– İbn Ömər رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **"Biriniz vəfat etdikdən sonra səhər-axşam ona – Cənnət əhlindəndirsə, Cənnətdəki, Cəhənnəm əhlindəndirsə, Cəhənnəmdəki yeri göstərilir. Sonra *ona* deyilir: "Qiyamət günü Allah səni dirildənədək bura sənin qalacağın yer olacaq".**[1]

– Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ belə dua edərdi: **"Allahım, qəbir əzabından, Cəhənnəm əzabından, həyatın və ölümün fitnəsindən, Dəccal Məsihin fitnəsindən Sənə sığınıram!"**[2]

– Digər bir rəvayətdə xəbər verilir ki, Peyğəmbər ﷺ meyiti dəfn etdikdən sonra onun qəbri yanında durub, səhabələrinə belə buyurardı: **"Qardaşınız üçün bağışlanma diləyin və onun sabitqədəm olmasını istəyin. Çünki o, indi sorğu-suala çəkilir".**[3]

– Başqa bir rəvayətdə xəbər verilir ki, Peyğəmbər ﷺ cənazə namazı qılarkən, belə dua edərdi: **"Allahım, onu bağışla, ona rəhm et, ona salamatlıq ver, onu əfv et, onu gözəl tərzdə qarşıla, onun yerini geniş et! Onu su, qar və dolu ilə yu! Ağ paltarı kirdən təmizlədiyin kimi, onu da günahlardan təmizlə! Ona evinin əvəzinə daha xeyirli ev, ailəsinin əvəzinə daha xeyirli ailə, zövcəsinin əvəzinə daha xeyirli zövcə ver! Onu Cənnətə daxil et, onu qəbir əzabından və Cəhənnəm əzabından qoru!"**[4]

---

[1] "Səhih əl-Buxari", 1379.

[2] "Səhih əl-Buxari", 1377.

[3] "Səhih əl-Buxari", 3221; "Səhih əl-Cami", 945.

[4] "Səhih Muslim", 963.

– Yenə bir rəvayətdə Peyğəmbər ﷺ belə demişdir: **“Mənə vəhy olundu ki, siz qəbirlərinizdə Dəccal Məsihin sınağına bənzər** (və ya ona yaxın) **bir sınağa çəkiləcəksiniz.** ***Dünyasını dəyişmiş kimsədən*****: “O kişi haqqında nə bilirsən?”– deyə soruşacaqlar**[1]**. Mömin bəndə: “O, Allahın elçisi Muhəmməddir. O, bizə dəlillər və doğru yol göstəricisi gətirdi, biz də** ***onun dəvətini*** **qəbul edib,** ***onun*** **yolu ilə getdik. O, Muhəmməddir!”– deyəcək və bunu üç dəfə təkrar edəcək. Bundan sonra** ***mələklər*** **ona: “Rahat yat! Biz artıq sənin ona qətiyyətlə iman gətirdiyini bildik”– deyəcəklər. Münafiq isə: “Bilmirəm, mən sadəcə insanların bəzi şeylər danışdıqlarını eşidir və həmin sözləri təkrar edirdim”– deyəcək”.**[2]

– Bu mövzuya aid uzun və əhatəli bir hədisdə rəvayət edilir ki, Peyğəmbərin ﷺ səhabəsi Bəra ibn Azib رضي الله عنه demişdir: “Biz Peyğəmbərlə ﷺ birgə ənsardan olan bir kişinin dəfnində ikən Rəsulullah ﷺ qəbirin yanında oturdu, biz də sakitcə onun ətrafında oturduq. O, əlindəki çubuğu yerə vururdu. Sonra başını qaldırıb dedi: **“Qəbir əzabından Allaha sığının!”** O, bunu üç dəfə təkrar etdikdən sonra dedi: **“Mömin bəndə dünyadan köçüb axirətə qovuşduqda, göydən onun yanına üzləri Günəş kimi parlaq mələklər enir. Onlar özləri ilə Cənnətdən kəfən və ətir gətirir və** ***onun*** **gözünün gördüyü son məsafədə oturub gözləyirlər. Sonra ölüm mələyi gəlir və onun baş tərəfində oturub deyir: “Ey gözəl ruh, Allahın mərhəmətinə və xeyir-duasına qovuşmaq üçün** ***oradan*** **çıx!” Nəhayət, mömin bəndənin ruhu bədənindən su damcısı qabın ağzından süzüldüyü kimi çıxır. Ölüm mələyi ruhu götürdükdən sonra onu bir göz qırpımında** ***oturub gözləyən*** **mələklərə təhvil**

---

[1] Burada Muhəmməd Peyğəmbər ﷺ qəsd edilir.

[2] “Səhih əl-Buxari”, 86.

**verir[1], onlar da onu kəfənə büküb ətirləyirlər. Bundan sonra ondan yer üzündə mövcud olan ən gözəl ətirin qoxusuna bənzər gözəl qoxu gəlir. Sonra mələklər onu götürüb göyə qaldırırlar. Göyə qalxarkən mələklərdən ibarət hansı toplumun yanından keçirlərsə, onlar: "Görəsən, bu gözəl ruh kimin ruhudur?"– deyə soruşur, onlar da: "Bu, filankəsin oğlu filankəsdir"– deyə bu bəndəni *camaatın* onu həyatda ikən çağırdığı ən gözəl adla çağırırlar. Mələklər birinci göyə yetişdikdə göy qapılarının açılmasını xahiş edir və onun qapıları taybatay açılır. Hər bir göyün mələkləri də o ruhu növbəti göyə qədər bu minvalla yola salırlar. Nəhayət, onlar yeddinci göyə çatdıqda qüdrətli və əzəmətli Allah buyurur: "Mənim qulum barədə olan qeydləri İlliyyuna yazın, sonra da onu yerə qaytarın. Çünki Mən onları torpaqdan yaratdığım kimi, öləndən sonra ora qaytaracağıma və *Qiyamət günü* bir daha oradan *dirildib* çıxardacağıma söz vermişəm". Mələklər onun ruhunu bədəninə qaytardıqdan sonra iki mələk gəlib onu otuzdurur və: "Rəbbin kimdir?"– deyə soruşurlar. O: "Rəbbim Allahdır!"– deyə cavab verir. Onlar: "Dinin nədir?"– deyə soruşurlar. O: "Dinim İslamdır!"– deyə cavab verir. Onlar: "Sizə göndərilmiş o kişi kim idi?"– deyə soruşurlar. O: "O, Allahın rəsulu ﷺ idi!"– deyə cavab verir. Onlar: "Həyatda ikən sən nə öyrəndin?"– deyə soruşur, o da: "Mən Allahın Kitabını oxuyub ona iman gətirdim və ona sadiq oldum"– deyə cavab verir. Bu vaxt göydən belə bir səda gəlir: "Mənim qulum doğru danışır. Cənnət nemətlərini onun önünə sərin və onun üçün Cənnətdən bir qapı açın!" Beləliklə, Cənnətin gözəl iyi və havası ona gəlir, qəbri də gözlərinin gördüyü**

[1] **"Sizə müvəkkil olan ölüm mələyi canınızı alacaq, sonra da Rəbbinizin hüzuruna qaytarılacaqsınız!"** ("əs-Səcdə" surəsi, 11).

**son məsafəyə qədər genişlənir. Sonra gözəl görkəmli, əynində yaraşıqlı paltarı olan və üst-başından ətir iyi gələn bir nəfər onun yanına gəlib deyir: "Səni sevindirəcək bir xəbərə sevin: bu, sənə vəd olunan gündür!" Mömin: "Sən kimsən? Sənin üzündən xeyirxahlıq yağır."– deyə soruşur, o da cavabında: "Mən sənin saleh əməlinəm"– deyir. Onda, mömin dua edib deyir: "Allahım, qoy, Qiyamət günü tez gəlsin ki, mən öz ailəmə qayıdıb, var-dövlətimə sahib olum".**

**Kafir bəndə dünyadan köçüb axirətə qovuşduqda isə göydən onun yanına zəhmli və qara simalı mələklər enir. Onlar özləri ilə Cəhənnəmdən giş[1] gətirir və** ***onun*** **gözünün gördüyü son məsafədə oturub gözləyirlər. Sonra ölüm mələyi onun baş tərəfində oturub deyir: "Ey yaramaz ruh, Allahın qəzəbi və qeyzinə düçar olmaq üçün** ***oradan*** **çıx!" Nəhayət, onun ruhu bədənindən tikanlı məftil yaş yunun arasından keçdiyi kimi çıxır. Ölüm mələyi ruhu götürdükdən sonra onu bir göz qırpımında** ***oturub gözləyən*** **mələklərə təhvil verir, onlar da onu gişə bükürlər. Bundan sonra ondan yer üzündə mövcud olan ən pis qoxuya bənzər bir iy gəlir. Sonra mələklər onu götürüb göyə qaldırırlar. Göyə qalxarkən mələklərdən ibarət hansı toplumun yanından keçirlərsə, onlar: "Görəsən, bu iyrənc ruh kimin ruhudur?"– deyə soruşurlar. Onlar: "Bu, filankəsin oğlu filankəsdir"– deyə onu** ***camaatın*** **həyatda ikən onu çağırdığı ən pis adla çağırırlar. Nəhayət, onlar birinci göyə yetişdikdə göy qapılarının açılmasını xahiş edirlər, lakin onun qapıları açılmır.**

Sonra Peyğəmbər ﷺ bu ayəni oxudu: **"Şübhəsiz ki, ayələrimizi yalan sayanlara və onlara təkəbbürlüklə yanaşanlara**

---

[1] Giş: cod parça.

**göyün qapıları açılmayacaq və dəvə iynənin gözündən keçməyincə, onlar Cənnətə girməyəcəklər".**[1]

Sonra o, *sözünə davam edib* dedi: ***"Allah belə buyuracaq:* "Mənim qulum barədə olan qeydləri yerin alt təbəqəsində yerləşən Siccinə yazın. Çünki Mən onları torpaqdan yaratdığım kimi, öləndən sonra ora qaytaracağıma və *Qiyamət günü* bir daha oradan *dirildib* çıxardacağıma söz vermişəm". Mələklər onun ruhunu göydən aşağı atırlar.**

Sonra Peyğəmbər ﷺ bu ayəni oxudu: **"Kim Allaha şərik qoşsa, sanki o, göydən yerə düşər, quşlar onu alıb aparar, yaxud külək onu sovurub uzaq bir yerə atar".**[2]

Sonra o, *sözünə davam edib* dedi: **"Onun ruhu bədəninə qaytarıldıqdan sonra iki mələk gəlib onu otuzdurur və: "Rəbbin kimdir?"– deyə soruşurlar. O, mızıldanıb: "M-mm... bilmirəm"– deyir. Onlar: "Sizə göndərilmiş o kişi kim idi?"– deyə soruşur, o, yenə mızıldanıb: "M-mm... bilmirəm"– deyir. Bu vaxt göydən belə bir səda gəlir: "O yalan danışır. Onun yolunu alovlandırın və onun üçün Cəhənnəmdən bir qapı açın!" Beləliklə, Cəhənnəm atəşi və alovlu külək ona dəyir, qəbri də o qədər sıxılır ki, qabırğaları bir-birinə keçir. Sonra eybəcər sifətli, əynində nimdaş paltarı olan və üst-başından pis qoxu gələn bir kişi onun yanına gəlib deyir: "Mən səni kədərli bir xəbərlə müjdələyirəm: bu, sənə vəd olunan *o dəhşətli* gündür!" Kafir: "Sən kimsən? Sənin üzündən şər yağır"– soruşur, o da: "Mən sənin yaramaz əməllərinəm!"– deyir. Bu zaman kafir yalvarıb deyir: "Allahım, qoyma Qiyamət qopsun".**[3]

---

[1] "əl-Əraf" surəsi, 40.

[2] "əl-Həcc" surəsi, 31.

[3] "Musnəd İmam Əhməd", 18534; "Səhih əl-Cami", 1676.

# Qəbir əzabı

Əvvəlki fəsildə, Qurani-Kərimdən münafiqlərin və Firon nəslinin qəbir əzabına düçar olacaqlarına dəlalət edən ayələri qeyd etdik. Bu fəsildə isə qəbir əzabı ilə bağlı bəzi hədisləri zikr edəcəyik. O hədislər bunlardır:

**– "Kimin üçün vay-şivən salıb ağlasalar,[1] buna görə** ***qəbirdə*** **ona əzab verilər".[2]**

**– "Meyit dəfn edildikdə qara rəngli, göy gözlü Munkər və Nəkir adlı iki mələk onun yanına gəlib ondan: "*Sizə göndərilmiş* o kişi haqqında nə deyirdin?"– soruşur. *Mömin*: "O, Allahın qulu və rəsuludur. Mən şahidlik edirəm ki, Allahdan başqa *ibadətə layiq* məbud yoxdur və Muhəmməd Onun qulu və rəsuludur!"– deyir. Mələklər: "Sənin belə deyəcəyini biz bilirdik!"– deyirlər. Sonra onun qəbri hər tərəfdən yetmiş dirsək uzunluğunda genişləndirilir və qəbri nurla dolur. Sonra ona: "Yat!" – deyilir.**

**Münafiq isə: "İnsanların dedikləri sözü eşidib, onu eynilə təkrar edirdim.** (Lakin mənasını) **bilmirəm!"– deyə cavab verir. Mələklər: «Sənin belə deyəcəyini biz bilirdik!"– deyirlər. Sonra yerə: «Sıx onu!» – deyilir. Yer onu elə sıxır ki, qabırğaları bir-birinə keçir. O, Allah onu yatdığı yerdən dirildib çıxardanadək əzab içində qalacaq".[3]**

---

[1] Qeyd. Əgər mömin adam sağlığında öz yaxınlarına onun ölümünə görə vay-şivən salıb ağlamağı qadağan edibsə, onların bu günahına görə ona əzab verilməyəcək.

[2] "Səhih əl-Buxari", 1291; "Səhih Muslim", 931 və 932.

[3] "Sunən ət-Tirmizi", 1071; "Silsilə əl-Əhadis əs-Səhihə", 1391.

**– "Kafir adam qəbirə qoyulduğu zaman mələk ondan: "Nəyə ibadət edirdin?"– deyə soruşur, kafir də: "Bilmirəm"– deyə cavab verir. Ona: "Heç bilməyəsən!"– deyilir. Sonra ondan: "Sizə göndərilən o kişi barədə nə deyə bilərsən?"– deyə soruşur. O da, belə cavab verir: "İnsanlar nə deyirdilərsə, mən də onu deyirdim?" Həmin vaxt mələk dəmir çəkiclə onun başına bir zərbə vurur və o, elə qışqırır ki, insanlardan və cinlərdən başqa məxluqatın hamısı onun səsini eşidir".**[1]

– Rəvayət edilir ki, Peyğəmbər ﷺ qəbirdə əzab çəkən iki adamın səsini eşidib demişdir: **"Bunlardan biri söz gəzdirər, digəri isə sidikdən qorunmazdı".**[2]

– Səmura ibn Cundəb رضي الله عنه demişdir: "Peyğəmbər ﷺ çox vaxt sübh namazını qıldıqdan sonra üzünü bizə tərəf çevirib: **"Sizlərdən kim bu gecə yuxu görüb?"–** deyə soruşardı. Yuxu görən adam öz yuxusunu danışar, o da, ona: **"Allahın istədiyi oldu!"**– deyərdi. Bir gün yenə: **"Sizlərdən bu gecə yuxu görən olubmu?"–** soruşdu, biz də: "Xeyr!"– deyə cavab verdik. Peyğəmbər ﷺ dedi: **"Mən isə bu gecə yuxuda iki nəfər gördüm. Onlar mənim yanıma gəldilər və əlimdən tutub müqəddəs torpağa apardılar. Bir də gördüm ki, bir nəfər yerdə oturub, başqa birisi də əlində dəmir qarmaq onun başı üstündə dayanıb. O, qarmağı oturan adamın orduna soxub onun ağzının bir tərəfini ənsəsinə qədər cırır, sonra da bu qaydada onun ağzının digər tərəfini cırırdı. Bu əsnada ağzının əvvəl cırılan tərəfi sağalır və o, təzədən həmin tərəfi cırırdı. Mən: "Bu nədir?"– deyə soruşdum. O iki nəfər mənə: "Davam et!"– dedi. Biz yolumuza davam etdik və arxası üstə yerə uzanmış bir**

---

[1] "Sunən Əbu Davud", 4751; "Silsilə əl-Əhadis əs-Səhihə", 1344.

[2] "Səhih əl-Buxari", 216; "Səhih Muslim", 584.

**nəfərin yanına gəldik. Onun başı üstündə əlində böyük bir daş olan başqa birisi dayanmışdı. O, bu daşla uzanmış adamın başını əzirdi. Daşı hər dəfə onun başına vurduqca daş yumbalanırdı. Adam gedib daşı götürüb uzanan adamın yanına qayıdanadək onun başı bitişərək əvvəlki halına qayıdırdı. Adam gəlib yenə onun başını əzirdi. Mən: "Bu kimdir?"– deyə soruşdum, mənə yenə: "Davam et!"– dedilər. Biz yolumuza davam edib təndirə bənzər, üstü dar, altı geniş bir oyuğa çatdıq. Bu oyuğun altından atəş alovlanırdı. Orada lüt kişi və qadınlar var idi. Alov hər dəfə oyuqdakı günahkarlara yaxınlaşdıqda onlar yuxarı qalxırdılar. Hətta az qalırdı ki, oradan bayıra çıxsınlar. Alov səngidikdə isə geri çəkilirdilər. Mən: "Bunlar kimdir?"– deyə soruşdum, mənə yenə: "Davam et!"– dedilər. Biz yolumuza davam edib suyu qandan olan bir çaya çatdıq. Çayın içində bir nəfər, sahilində isə qarşısında çoxlu daşlar olan başqa birisi dayanmışdı. Çayın içindəki adam sahilə çıxmaq istədikcə, sahildəki adam daşla onun ağzından vurur və o, öz yerinə qayıdırdı. Beləcə, o hər dəfə sahilə çıxmaq istədikdə, sahildəki adam daşla onun ağzından vurur və o, öz yerinə qayıdırdı. Mən: "Bu nədir?"– deyə soruşdum, mənə yenə: "Davam et!"– dedilər. Biz yolumuza davam edib yaşıl bir bağa çatdıq. Orada böyük bir ağac, ağacın altında ixtiyar bir qoca və ətrafında çoxlu uşaqlar var idi. Bir nəfər də ağacın yanında dayanıb qarşısındakı odu alovlandırırdı. Sonra o iki nəfər məni ağaca qaldırdı və məni elə bir evə daxil etdi ki, indiyədək bundan gözəlini görməmişdim. Orada qocalar, cavanlar, qadınlar və uşaqlar var idi. Sonra məni oradan çıxardıb bir az da yuxarı qaldırdılar və əvvəlkindən daha gözəl və daha yaxşı bir evə daxil etdilər. Orada**

**qocalar və cavanlar var idi. Mən o iki nəfərə dedim: "Bu gecə siz məni çox gəzdirdiniz. İndi isə, mənə gördüklərim barədə xəbər verin". Onlar dedilər: "Bəli, ağzı cırılan adama gəlincə, o, bir yalançıdır. Dünyada ikən yalan danışar və onun bu yalanı hər tərəfə yayılardı. Qiyamət gününədək onun ağzı beləcə cırılacaq. Başı əzilən adam isə o kimsədir ki, Allah ona Quranı öyrətmiş, ancaq o gecələr yatmış, *namaza qalxmamış,* gündüzlər isə onun içindəkilərə əməl etməmişdir. Qiyamət gününədək onun başı beləcə əziləcək. Oyuqda gördüklərin zinakarlar, çayın içindəkilər isə sələm yeyənlərdir. Ağacın altındakı ixtiyar qoca İbrahim peyğəmbər, ətrafındakı uşaqlar isə insanların** (həddi-büluğa çatmadan ölmüş) **övladlarıdır. Odu alovlandıran kəs Cəhənnəmin gözətçisi Malikdir. Daxil olduğun birinci ev bütün möminlərin, bu gördüyün ev isə şəhidlərin evidir. Mən Cəbrailəm, bu da, Mikaildir. Başını qaldır!" Mən yuxarı baxıb başım üzərində buluda bənzər bir şey gördüm. Mələklər: "Bu sənin mənzilindir"– dedilər. Mən dedim: "Qoyun mən öz mənzilimə daxil olum". Onlar dedilər: "Sənin hələ tamamlanmamış ömrün qalıb. Əgər ömrün tamamlanmış olsaydı, mənzilinə girərdin".**[1]

**–** Rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: **"Dünən gecə iki nəfər mənim yanıma gəldi və qolumdan tutub çala-çuxurla dolu, çətin keçilə bilən bir dağın yanına apardılar. Onlar mənə: "Dağa qalx!"– dedilər. Dedim: "Mən bu dağa qalxa bilmərəm". Onlar dedilər: "Biz bunu sənin üçün asanlaşdıracağıq". Mən dağa qalxmağa başladım. Dağın ətəyinə çatdıqda fəryad səsləri eşitdim. Mən soruşdum: "Bu nə səslərdir belə?" Onlar dedilər: "Bu, Cəhənnəm əhlinin fəryadıdır".**

---

[1] "Səhih əl-Buxari", 1386.

**Biz yolumuza davam etdik. Bir də baxdım ki, bir toplum adam diz vətərlərindən asılıb, ağızları da cırılıb və cırılmış ordlarından qan axır. Soruşdum: "Kimdir bunlar?", dedilər ki: "Bunlar gün batmadan oruclarını açan kimsələrdir". Biz yenə yolumuza davam etdik. Bir də gördüm ki, bir sürü ilan bir toplum qadınların döşlərindən sancır. Mən o iki nəfərdən: "Bunların günahı nədir?"– soruşdum, dedilər ki: "Bunlar öz övladlarına bilərəkdən süd verməyən qadınlardır".**[1]

– Yenə bir hədisdə Peyğəmbər ﷺ demişdir: **"Merac gecəsində mən bir dəstə kişinin oddan olan qayçılarla dodaqlarının kəsildiyini gördüm. Mən: "Kimdir bunlar, ey Cəbrail?"– soruşdum. Cəbrail dedi: "Bunlar sənin ümmətinin o xətibləridir ki, Quran oxuyub, insanlara yaxşı işlər görməyi əmr edir, özləri isə bunu unudurdular. Məgər ağılları kəsmirdi?!"**[2]

Bu hədislərdən bizə aydın oldu ki, qəbirdəki sorğu-suala cavab verə bilməyən kafirlər, habelə, kiçik bayıra çıxdıqdan sonra yuyunmayan və sidiyə bulaşmış libasını təmizləməyən, camaat arasında söz gəzdirənlər, yalan danışanlar, Quranda buyurulanları yerinə yetirməyənlər, namaz qılmayanlar, zina edənlər, sələm yeyənlər[3], üzürlü səbəbi olmadan Ramazan ayında orucunu açanlar, üzürlü səbəbi olmadan körpəsinə süd verməyən analar və haqqı bildikləri halda ondan üz çevirən kimsələr qəbir əzabına düçar olacaqlar.

---

[1] ən-Nəsai, "Sunən əl-Kubra", 3273; "Səhih İbn Xuzeymə", 1986; "Silsilə əl-Əhadis əs-Səhihə", 3951.

[2] "Musnəd İmam Əhməd", 13421; "Silsilə əl-Əhadis əs-Səhihə", 291.

[3] Digər bir hədisdə Peyğəmbər ﷺ sələm verəni, sələm götürəni, ona aid müqavilə yazanı, ona şahid olanları lənətləmiş və demişdir: **"Bunların hamısı eyni günahı qazanır".** ("Səhih Muslim", 1598).

# Qəbir əzabından qurtulmağın yolları

İnsanı qəbir əzabından qoruyacaq amillərin ən birincisi və ən əsası, saleh əməllərin hamısının başında duran, İslam dininin dayağı və imanın özü sayılan tövhiddir. Yəni Allahın tək ilah olduğuna etiqad etmək və Ona şərik qoşmamaq. Bu xüsusda Uca Allah buyurur: **"Allah iman gətirənləri dünya həyatında da, axirətdə də möhkəm sözlə sabit saxlayar. Allah zalımları sapdırar. Allah istədiyini edər".**[1]

Bu ayədə **"möhkəm söz"** deyildikdə tövhid kəlməsi, yəni "la ilahə illəllah" qəsd edilir. Belə ki, insanın qəbir əzabından qurtulması üçün əsas şərt Allahın tək İlah olduğuna etiqad etməsidir. Əvvəlki fəsildə buna dəlalət edən hədisləri qeyd etmişdik.

Bu kəlmə iki təməl üzərində dayanır – inkar və isbat. Kəlmənin əvvəlindəki "la ilahə / ilah yoxdur" ümumi inkar, onun sonundakı "illəllah / Allahdan başqa" isə xüsusi isbatdır. Bu kəlmənin əvvəlindəki ümumi inkar olan "la ilahə" Allahdan başqa ibadət edilən ilahların hamısını inkar edir, "illəllah" isə ibadətin bütünlüklə Tək Allaha məxsus olduğunu təsdiqləyir. "La ilahə" sözündəki "ilah" kəlməsi "məbud (ibadət olunan)" deməkdir. Bir kimsə "la ilahə", yəni "la məbudə" deyirsə, Allahdan başqa ibadət edilən ilahların hamısını inkar edir. Bu cümlədəki "la" inkar ədatı qondarma ilahların hamısını əhatə edir. Demək, "la ilahə illəllah" "Allahdan başqa ibadətə layiq məbud yoxdur" deməkdir. Beləliklə, kimliyindən asılı olmayaraq, Allahdan başqa ibadət edilən ilahların hamısı batildir. Bu xüsusda Quranda belə buyurulur: **"Bu belədir. Çünki Allah**

[1] "İbrahim" surəsi, 27.

**Haqdır. Onların Ondan başqa yalvardıqları** (ibadət etdikləri) **isə batildir".**[1] Bundan aydın olur ki, ibadət yalnız Allahın haqqıdır və heç kəs, heç nə bu haqqa şərik ola bilməz. "La ilahə illəllah" kəlməsini həqiqi mənada, sidq-ürəkdən deyən adam ibadət sayılan heç bir əməli Allahdan qeyrisinə yönəltməz. Beləsi istədiyini yalnız Allahdan istəyər, yalnız Allahdan mədəd və yardım diləyər, bütün ibadətlərini yalnız Allaha yönəldər. Birisi dili ilə "la ilahə illəllah" deməklə yanaşı Allahdan qeyrisinə də dua edərsə, Allahdan qeyrisindən kömək diləyərsə, Allahdan başqasına sığınarsa, Allahdan qeyrisi üçün qurban kəsərsə və hər hansı digər ibadəti Allahdan qeyrisinə yönəldərsə müşriklərdən sayılar. Əgər bu halda ölərsə, bütün əməlləri puç olar. Bu xüsusda Quranda belə buyurulur: «**Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: "Əgər** ***Allaha*** **şərik qoşsan, əməlin puç olar və mütləq ziyana uğrayanlardan olacaqsan"».**[2]

İnsanı qəbir əzabından xilas edəcək ikinci səbəb namaz qılmaq, oruc tutmaq, zəkat vermək kimi saleh əməllərdir. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Meyit qəbirə qoyulduqdan sonra, əgər mömin olmuşsa, namaz onun baş tərəfində, oruc onun sağ tərəfində, zəkat onun sol tərəfində və digər saleh əməllər onun ayaq tərəfində durur. Mələk ona baş tərəfindən yaxınlaşmaq istədikdə namaz onun qarşısnı kəsir, sağ tərəfindən yaxınlaşmaq istədikdə oruc, sol tərəfindən yaxınlaşmaq istədikdə zəkat və nəhayət, ayaq tərəfindən yaxınlaşmaq istədikdə saleh əməlləri onun qarşısını kəsir".**[3]

---

[1] "əl-Həcc" surəsi, 62.

[2] "əz-Zumər" surəsi, 65.

[3] Abdurrəzzaq, "əl-Musənnəf", 3/567-568; Hakim, "əl-Mustədrək", 1403; "Səhih ət-Tərğib vət-Tərhib", 3561.

İnsanı qəbir əzabından qurtaracaq üçüncü səbəb Allah yolunda şəhid olmaqdır. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **“Allah yanında şəhid üçün xislətlər vardır:** ***yarasından*** **axan ilk damla qanla günahları bağışlanar, Cənnətdəki yerini görər, qəbir əzabından qurtular, ən böyük dəhşətdən[1] qorunar, iman bəzəyi ilə bəzədilər; [yetmiş iki] huri ilə evləndirilər və öz yaxınlarından yetmiş nəfərə şəfaətçilik edər”.[2]**

İnsanı qəbir əzabından qurtaran dördüncü səbəb o əzabdan Allaha sığınmaqdır. Peyğəmbər ﷺ müsəlmanlara səhər-axşam qəbir əzabından Allaha sığınmağı əmr etmişdir.

Bu xüsusda ən əfzəl dualardan biri budur:

(( أَصْبَحْنَا وَ أَصْبَحَ الْمُلْكُ للهِ، وَالْحَمْدُ للهِ، لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، رَبِّ أَسْأَلُكَ خَيْرَ مَا فِي هَذَا الْيَوْمِ وَخَيْرَ مَا بَعْدَهُ، وَأَعُوذُ بِكَ مِنْ شَرِّ مَا فِي هَذَا الْيَوْمِ وَشَرِّ مَا بَعْدَهُ، رَبِّ أَعُوذُ بِكَ مِنَ الْكَسَلِ، وَسُوءِ الْكِبَرِ، رَبِّ أَعُوذُ بِكَ مِنْ عَذَابٍ فِي النَّارِ وَعَذَابٍ فِي الْقَبْرِ ))

[Əsbəhnə və əsbəhəl-mulku lilləh, vəlhəmdulilləh. La ilahə illəllahu vəhdəhu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qədir. Rabbi əs'əlukə xayra mə fi hazəl-yovmi və xayra mə bə'dəhu və əuzu bikə min şərri mə fi hazəl-yovmi və şərri mə bə'dəhu. Rabbi əuzu bikə minəl-kəsəli va suil-kibəri. Rabbi əuzu bikə min azəbin fin-nari və azəbin fil-qabr]

**“Səhərə çıxdıq, mülk də Allahın olaraq səhərə çıxdı, Allaha həmd olsun! Allahdan başqa məbud yoxdur, O təkdir,**

---

1 Yəni Qiyamət gününün dəhşətindən.

2 “Sunən ət-Tirmizi”, 1756; “Səhih ət-Tərğib vət-Tərhib”, 1375.

**Onun şəriki yoxdur, mülk Onundur və həmd Onadır, O, hər şeyə Qadirdir! Ey Rəbbim, Səndən bu günün xeyrini və bundan sonrakı xeyri diləyirəm. Bu günün şərindən və bundan sonrakı şərdən Sənə sığınıram. Ey Rəbbim, tənbəllikdən və qocalığın düşkün çağından Sənə sığınıram. Ey Rəbbim, Cəhənnəmdəki əzabdan və qəbirdəki əzabdan Sənə sığınıram".**[1]

Eyni dua axşam zikrlərində belə oxunur:

(( أَمْسَيْنَا وَ أَمْسَى الْمُلْكُ للهِ، وَالْحَمْدُ للهِ، لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، رَبِّ أَسْأَلُكَ خَيْرَ مَا فِي هَذِهِ اللَّيْلَةِ وَخَيْرَ مَا بَعْدَهَا، وَأَعُوذُ بِكَ مِنْ شَرِّ مَا فِي هَذِهِ اللَّيْلَةِ وَشَرِّ مَا بَعْدَهَا، رَبِّ أَعُوذُ بِكَ مِنَ الْكَسَلِ، وَسُوءِ الْكِبَرِ، رَبِّ أَعُوذُ بِكَ مِنْ عَذَابٍ فِي النَّارِ وَعَذَابٍ فِي الْقَبْرِ ))

[Əmsəynə və əmsəl-mulku lilləh, vəlhəmdulilləh. La ilahə illəllahu vəhdəhu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qədir. Rabbi əs'əlukə xayra mə fi hazihil-leyləti və xayra mə bə'dəhə və əuzu bikə min şərri mə fi hazihil-leyləti və şərri mə bə'dəhə. Rabbi əuzu bikə minəl-kəsəli va suil-kibəri. Rabbi əuzu bikə min azəbin fin-nari və azəbin fil-qabr]

**"Axşama çıxdıq, mülk də Allahın olaraq axşama çıxdı, Allaha həmd olsun! Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur, mülk Onundur və həmd Onadır, O, hər şeyə Qadirdir! Ey Rəbbim, Səndən bu gecənin xeyrini və bundan sonrakı xeyri diləyirəm. Bu gecənin şərindən və bundan**

[1] "Səhih Muslim", 2723.

**sonrakı şərdən Sənə sığınıram. Ey Rəbbim, tənbəllikdən və qocalığın düşkün çağından Sənə sığınıram. Ey Rəbbim, Cəhənnəmdəki əzabdan və qəbirdəki əzabdan Sənə sığınıram".**[1]

İnsanı qəbir əzabından qurtaran beşinci səbəb vəfat etmiş mömin üçün dua etməkdir. Rəvayət edilir ki, Peyğəmbər ﷺ meyiti dəfn etdikdən sonra onun qəbrinin yanında durub səhabələrinə belə buyurardı: **"Qardaşınız üçün bağışlanma diləyin və onun sabitqədəm olmasını istəyin. Çünki o, indi sorğu-suala çəkilir".**[2]

İnsanı qəbir əzabından qurtaran altıncı səbəb "əl-Mulk" surəsini oxumaq və ayələrin tələblərini yerinə yetirməkdir. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"əl-Mulk" surəsi, *onu oxuyan mömini* qəbir əzabından qoruyur".**[3]

Allahdan istəyimiz budur ki, bizə son nəfəsimizədək tövhid üzərində yaşamağı, tövhid üzərində bu dünyadan köçməyi nəsib etsin və bunun sayəsində bizi qəbir əzabından qorusun.

---

[1] "Səhih Muslim", 2723.

[2] "Səhih əl-Buxari", 3221; "Səhih əl-Cami", 945.

[3] Əbu əş-Şeyx, "Təbəqat əl-Əsbəhaniyyin", 264; "Silsilə əl-Əhadis əs-Səhihə", 1140; "Səhih əl-Cami", 3643.

# Dirilmə

Hər bir müsəlman etiqad edir ki, Qiyamət günü insanlar dirilib haqq-hesaba çəkilmək üçün məhşərdə Allahın hüzuruna toplanacaqlar. "Qiyamət" kəlməsi ərəbcə قَامَ (ayağa qalxmaq) feilindən əmələ gəlmiş isimdir. Qurani-Kərimdə Qiyamət günü insanların dirilib qəbirlərindən qalxacağını xəbər verən neçə-neçə ayələr var. Onlardan bəziləri bunlardır:

**"*Qiyamət* saatı gələcək, ona heç bir şəkk-şübhə yoxdur və Allah qəbirlərdə olanları dirildəcəkdir".**[1]

**"Sizi bir dəfə çağıran kimi, dərhal qəbirlərinizdən qalxıb çıxacaqsınız".**[2]

**"Ölülərə gəlincə, Allah onları dirildəcək, sonra da onlar Onun hüzuruna qaytarılacaqlar".**[3]

Bu ayələr Qiyamət günü ölülərin dirilib, Yaradanın hüzuruna toplanacaqlarını xəbər verir. Bu dirilmə nə vaxt baş verəcək?

Əvvəla qeyd edək ki, Qiyamətin nə zaman qopacağını yalnız Allah bilir. Bu xüsusda Quranda belə buyurulur: «**İnsanlar səndən Qiyamət saatı barədə soruşurlar. De: "Onun *vaxtını* yalnız Allah bilir"**».[4]

Ayədən aydın başa düşülür ki, Qiyamətin nə zaman qopacağını Allahdan başqa heç kəs bilmir. Hətta Muhəmməd peyğəmbər ﷺ və Allahdan ona vəhy gətirən mələk Cəbrail عليه السلام

[1] "əl-Həcc" surəsi, 7.
[2] "ər-Rum" surəsi, 25.
[3] "əl-Ənam" surəsi, 36.
[4] "əl-Əhzab" surəsi, 63.

belə Qiyamətin nə zaman qopacağını bilmirdilər. Səhih hədisdə rəvayət edilir ki, Cəbrail ﵇ Muhəmməd peyğəmbərdən ﷺ Qiyamət barədə soruşduqda, Peyğəmbər ﷺ ona: **"Bu haqda soruşulan soruşandan çox bilmir"**[1]– deyə cavab vermişdir. Peyğəmbərin ﷺ bu cavabı göstərir ki, onlardan heç birinin Qiyamətin nə zaman qopacağı haqqında dəqiq bilgisi yox idi. Onlar onun sadəcə əlamətlərini bilirdilər.

Qiyamətin əlamətləri böyük və kiçik olmaqla iki qismdir. Peyğəmbərin ﷺ xəbər verdiyi Qiyamətin kiçik əlamətlərinin demək olar ki, hamısı baş vermişdir. Qiyamət isə on böyük əlamət meydana gəldikdən bilavasitə sonra qopacaq. Bu on əlamət barədə Peyğəmbər ﷺ belə xəbər vermişdir: **"On əlamət baş verməyincə Qiyamət qopmayacaq: məşriqdə, məğribdə və Ərəb yarımadasında batma hadisələrinin baş verməsi, tüstünün gəlməsi, Dəccalın peyda olması, heyvanın zühur etməsi, Günəşin məğribdən çıxması, Məryəm oğlu İsanın yerə enməsi, Yəcuc və Məcucun axışıb gəlməsi və Yəməndən çıxan alovun insanları məhşərə qovması".**[2]

Bunların hamısı baş verdikdən sonra carçı mələk[3] sura[4] birinci dəfə üfürdükdə hər kəs öləcək, ikinci dəfə üfürdükdə isə yenidən diriləcək. Bu xüsusda Quranda belə xəbər verilir:

---

1 "Səhih Muslim", 8.

2 "Səhih Muslim", 2901.

3 Bəzi şərhlərdə sura üfürəcək mələyin İsrafil ﵇ olduğu deyilsə də, bu məlumatın doğruluğu barədə Peyğəmbərdən ﷺ heç bir səhih hədis varid olmayıb.

4 Rəvayət edilir ki, bədəvilərdən biri Peyğəmbərdən ﷺ sur barədə soruşmuş, Peyğəmbər ﷺ də ona belə cavab vermişdir: **"Buynuzdur, *Qiyamət günü* ona üfürüləcək".** ("Sunən Əbu Davud", 4742; "Sunən ət-Tirmizi", 2430; "Silsilə əl-Əhadis əs-Səhihə", 1080).

**“Sur üfürüləcək və Allahın istədiyi kimsələrdən başqa göylərdə və yerdə kim varsa, hamısı öləcək. Sonra bir daha ona üfürülən kimi onlar qalxıb baxacaqlar”.**[1]

Ayədən aydın başa düşülür ki, mələk sura iki dəfə üfürəcək. Bu iki üfürmə arasında nə qədər vaxt keçəcəyi barədə isə Əbu Hureyranın ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ belə demişdir: **“Surun birinci üfürülməsindən ikinci üfürülməsinədək qırx keçəcək”.** Əbu Hureyradan ﷺ: “Qırx gün?”– deyə soruşdular, o cavab vermədi. “Qırx il?”– deyə soruşdular, yenə cavab vermədi. “Qırx ay?”– deyə soruşdular, yenə cavab vermədi”.[2]

Deməli, bu iki üfürmə arasında nə qədər vaxt keçəcəyini də ancaq Allah bilir. Bizə məlum olan budur ki, carçı mələk sura ikinci dəfə üfürdükdə ölülər diriləcəklər. Bu xüsusda Quranda belə deyilir: **“Sur *ikinci dəfə* üfürülən kimi onlar dərhal qəbirlərdən çıxıb Rəbbinə tərəf axışacaqlar. Onlar deyəcəklər: “Vay halımıza! Bizi yatdığımız yerdən kim qaldırdı? Bu, Mərhəmətli *Allahı*n vəd etdiyi *qiyamətdir*. Elçilər doğru deyirlərmiş”. Bircə dəhşətli səs qopan kimi, onların hamısı hüzurumuza gətiriləcək”.**[3]

<u>Dirilməyə inanmayanlara düşünmələri üçün xatırlatma:</u>

**“İnsan soruşar: “Doğrudanmı, mən öldükdən sonra *qəbirdən* diri çıxardılacağam?!” Məgər, insan ilk dəfə onu yoxdan yaratdığımızı bilmirmi?! Rəbbinə and olsun ki, Biz onları**

---

[1] “əz-Zumər” surəsi, 68.

[2] “Səhih əl-Buxari”, 4814; “Səhih Muslim”, 2955.

[3] “Ya sin” surəsi, 51-53.

**şeytanlarla birlikdə bir yerə toplayacaq, sonra da onları diz üstə çökmüş halda Cəhənnəmin ətrafına yerləşdirəcəyik".**[1]

**«Kafirlər dedilər: "Məgər, biz və atalarımız torpağa qarışdıqdan sonra** *qəbirlərdən* **çıxardılacağıq?! Bu** *dirilmə* **həm bizə, həm də əvvəllər atalarımıza vəd olunmuşdu. Bu, keçmişdəkilərin** *uydurduğu* **əfsanələrdən başqa bir şey deyil". De: "Yer üzündə gəzib-dolaşın və görün, günahkarların aqibəti necə olmuşdur"».**[2]

**"Onlar dedilər: "Həyat ancaq bu dünya həyatımızdan ibarətdir, biz bir daha diriləcək deyilik!" Sən onları Rəbbinin hüzurunda dayandırıldıqları zaman bir görəydin!** *Allah onlara*: **"Məgər, bu** *dirilmə* **haqq deyilmi?!"– deyəcək, onlar: "Əlbəttə, Rəbbimizə and olsun** *ki, bu haqdır!*"**– deyəcəklər.** *Allah da*: **"Elə isə, inkar etdiyinizə görə dadın əzabı!"– buyuracaq. Allahın hüzuruna çıxmağı yalan sayanlar, həqiqətən də, ziyana uğramışlar".**[3]

**«Kafir olanlar heç vaxt dirildilməyəcəklərini iddia edirlər. De: "Xeyr, Rəbbimə and olsun ki, siz mütləq dirildiləcəksiniz. Sonra isə etdiyiniz əməllər sizə xəbər veriləcək. Bu, Allah üçün çox asandır!"»**[4]

**"Allaha necə küfr edirsiniz ki, siz ölü idiniz, O, sizi diriltdi** (yoxdan yaratdı)**?! Sonra O, sizi öldürəcək, sonra dirildəcək, sonra da siz Onun hüzuruna qaytarılacaqsınız".**[5]

---

[1] "Məryəm" surəsi, 66-68.
[2] "ən-Nəml" surəsi, 67-69.
[3] "əl-Ənam" surəsi, 29-31.
[4] "ət-Təğabun" surəsi, 7.
[5] "əl-Bəqərə" surəsi, 28.

# Məhşər günü

Əvvəlki fəsildə qeyd etdik ki, Qiyamət günü insanlar dirilib məhşərdə Allahın hüzuruna toplanacaqlar. Bu fəsildə isə biz müxtəsər şəkildə məhşər günü baş verəcək hadisələrdən bəhs edəcəyik.

Qurani-Kərimdə və səhih hədislərdə məhşər günü xüsusunda olduqca çox dəlillər mövcuddur. Bu mövzuya dair İslam alimləri də qalın-qalın kitablar yazmışlar. Biz isə, sadəcə, xatırlatmaq üçün hər mərhələyə aid bir neçə ayə və hədis nəql etməklə kifayətlənəcəyik.

Qiyamət günü baş verəcək hadisələr bunlardır:

**1)** İnsanlar dirilib qəbirlərindən çıxdıqdan sonra məhşərə toplanıb ayaq üstə, həyacan və qorxu içində haqq-hesaba çəkiləcəklərini gözləyəcəklər. Bu xüsusda Quranda belə buyurulur:

**“Onlar dirildiləcəkləri barədə fikirləşmirlərmi?! *Özü də* əzəmətli bir gündə. O gün ki, insanlar qalxıb aləmlərin Rəbbinin hüzurunda duracaqlar”.**[1]

**“Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar”.**[2]

**2)** Bu haqq-hesab əlli min ilə bərabər olan bir gün ərzində baş verəcək. Günahkarlar bu uzun müddət ərzində məhşərdə günün altında duracaqlar. Dünya həyatında Peyğəmbərin ﷺ sünnəsinə tabe olmuş və bidətlərdən uzaq durmuş möminlər

[1] “əl-Mutaffifin” surəsi, 4-6.

[2] “ən-Nur” surəsi, 37.

isə onun hovuzunun yanında və kölgə altında gözləyəcəklər. Bir günün əlli min ilə bərabər olması xüsusunda Quranda belə buyurulur: **"Mələklər və Ruh *Cəbrail Allaha* doğru sayı əlli min ilə bərabər bir gün ərzində qalxırlar".**[1]

Səhih hədislərdə Peyğəmbər ﷺ insanların bir çoxunun Günəşin şiddətli istisi altında duracağını[2] və əlli min il haqq-hesaba çəkiləcəyini[3] bildirmişdir. Möminlər isə kölgə altında olacaqlar. Bu xüsusda Peyğəmbər ﷺ belə demişdir: **"Yeddi qisim *mömin* insan var ki, Allah onları Öz kölgəsindən başqa heç bir kölgənin olmayacağı *o dəhşətli* gündə Öz kölgəsi altında kölgələndirəcəkdir: ədalətli rəhbər; Rəbbinə ibadət etməklə böyüyüb boya-başa çatmış gənc; qəlbi məscidlərə bağlı olan kişi; bir-birini Allah xatirinə sevən, Onun yolunda birləşib, Onun yolunda ayrılan iki nəfər; gözəl və zadəgan bir qadın tərəfindən zinaya çağırıldıqda: "Mən Allahdan qorxuram!"– deyən kişi; sağ əli ilə verdiyi sədəqəni sol əlindən gizlədən adam və xəlvətə çəkilib Allahı yad etdikcə gözləri yaşla dolan kimsə".**[4]

Hovuz barədə isə Peyğəmbər ﷺ belə demişdir: **"Mənim hovuzumun sahəsi bir ay gedilən yol qədər, suyunun rəngi süddən ağ, qoxusu müşkdən daha gözəl, ətrafına düzülmüş qədəhlər isə göydəki ulduzlar qədərdir. Ondan *bir dəfə* içən kimsə heç vaxt susamaz".**[5]

---

1 "əl-Məaric" surəsi, 4.
2 "Səhih Muslim", 2864.
3 "Səhih əl-Buxari", 2371; "Səhih Muslim", 987.
4 "Səhih əl-Buxari", 6806; "Səhih Muslim", 1031.
5 "Səhih əl-Buxari", 6579; "Səhih Muslim", 2292.

Digər rəvayətdə Peyğəmbər ﷺ demişdir: **"O hovuzun suyu Cənnətdən çəkilmiş iki nov[1] vasitəsilə axıb bu hovuza tökülür. O novlardan biri gümüşdən, digəri isə qızıldandır".**[2]

**3)** Həmin vaxt Peyğəmbər ﷺ möminlərin bir qismi üçün şəfaətçilik edəcək[3]. Bu xüsusda Quranda belə buyurulur:

---

[1] Nov: yarımdairə şəklində düzəldilmiş su yolu.

[2] "Səhih Muslim", 2301.

[3] Şəfaət, birisinin mənfəət əldə etməsi və ya ziyana düşməməsi üçün onunla başqa birisi arasında vasitəçilik etməsidir. "Mənfəət əldə etməyə", Cənnət əhlinin Cənnətə daxil olmasında Peyğəmbərimizin ﷺ onlar üçün şəfaət etməsini misal çəkmək olar. "Zərəri dəf etməyə" isə, Cəhənnəmə düşənlərin oradan çıxarılmasında Peyğəmbərimizin ﷺ onlar üçün şəfaət etməsini misal çəkmək olar.

Qeyd edək ki, şəriətə uyğun şəfaət üç şərtlə gerçəkləşə bilər:

1. Allahın şəfaət edən kimsədən razı qalması;

2. Allahın şəfaət edilən kimsədən razı qalması;

3. Bir də Allahın şəfaət etməyə izin verməsi ilə.

Bu şərtlərə aşağıdakı ayələri dəlil göstərmək olar:

**"Onlar yalnız Allahın razı qaldığı şəxslərdən ötrü şəfaət diləyir və Onun qorxusundan tir-tir əsirlər".** ("əl-Ənbiya" surəsi, 28).

**"Göylərdə neçə-neçə mələklər vardır ki, onların şəfaəti Allahın istədiyi və Özünün razı qaldığı kimsələrdən başqa *heç kəsə* heç bir fayda verməz".** ("ən-Nəcm", surəsi, 26).

Şəriətə uyğun şəfaət iki qismə bölünür – ümumi və xüsusi.

Xüsusi şəfaət Peyğəmbərimizə ﷺ xas olan şəfaətdir. Bunun özü də üç qismə bölünür:

1. Onun Məhşər günü yanına gələn insanlar üçün şəfaət etməsi.

2. Cənnət əhlinin Cənnətə daxil olması üçün şəfaət etməsi. ("Səhih Muslim", 196 və 197).

3. Əmisi Əbu Talibin əzabının yüngülləşdirilməsi üçün şəfaət etməsi. ("Səhih Muslim", 209).

**"O gün Mərhəmətli *Allahın* izin verdiyi və söz deməsinə razı olduğu şəxslərdən başqa heç kimin şəfaəti fayda verməyəcəkdir".**[1]

**"Rəbbin səni təriflənən bir məqama[2] yüksəldəcək".**[3]

Səhih hədisdə rəvayət edilir ki, Əbu Hureyra ﷺ demişdir: "Bir gün Peyğəmbərə ﷺ bir cəmdək gətirdilər. Sonra bu cəmdəyin qol tərəfini *bişirib* ona verdilər. Ətin bu yeri onun xoşuna gəlirdi. Ətdən bir tikə dişlədikdən sonra o dedi: **"Qiyamət günü mən insanların ən hörmətlisi olacağam. Bunun nə səbəbdən belə olduğunu bilirsinizmi? Allah Qiyamət günü əvvəlkiləri və sonrakıları** (dünyada yaşamış insanların hamısını) **düz və geniş bir yerə toplayacaq.** ***Elə bir yerə ki,*** **carçı onları**

---

Ümumi şəfaətə gəlincə, bu, Peyğəmbərimizə ﷺ və digər peyğəmbərlərə, habelə mələklərə və möminlərə aid olan şəfaətdir. Bu şəfaət də üç qismə bölünür:

1. Cəhənnəmə layiq olanların Cəhənnəmə girməməsi üçün şəfaət etmək. ("Səhih Muslim", 2242).

2. Cəhənnəmə düşənlərin oradan çıxması üçün şəfaət etmək. ("Səhih Muslim", 184 və 185).

3. Cənnət əhlinin Cənnətdəki dərəcələrinin artması üçün şəfaət etmək. ("Səhih Muslim", 2169). [Bax: "Şərh Əqidətu əs-Səffariniyyə", 1/389-392; "Şərh Lumatul-İtiqad", 1/36; "əl-Qovl əl-Mufid", 1/333)].

[1] "Ta ha" surəsi, 109.

[2] Burada Muhəmməd peyğəmbərin ﷺ Qiyamət günü şəfaətçilik edəcəyi məqam qəsd edilir. Bu xüsusda rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: **"Qiyamət günü insanlar məhşərə toplanacaqlar. Mən öz ümmətimlə birgə bir təpənin üstünə yığışacağıq. O zaman Rəbbim mənə yaşıl bir libas əta edəcək, sonra da mənə (danışmağa) izin veriləcək və mən Allahın istədiyi qədər danışacağam. Təriflənən məqam da elə budur".** ("Səhih ibn Hibban", 6445; "Musnəd İmam Əhməd", 3/465; "Silsilə əl-Əhadis əs-Səhihə", 2370).

[3] "əl-İsra" surəsi, 79.

**çağırdıqda hamısı eşidəcək, bir baxışla da hamısını görmək mümkün olacaq. Günəş insanlara yaxınlaşdıqdan sonra onları elə bir dərd və kədər bürüyəcək ki, onlar buna nə tab gətirəcək, nə də dözə biləcəklər. Onda, insanların bəziləri digərlərinə deyəcəklər: "Nə vəziyyətə düşdüyünüzü görmürsünüzmü? Başınıza nələr gəldiyini görmürsünüzmü? Bəlkə, Rəbbiniz yanında sizin üçün şəfaət edəcək bir adam tapasınız?" Onda, insanların bəziləri digərlərinə: "Haydı, Adəmin yanına gedək!"– deyəcək.**

**Onlar Adəmin yanına gəlib: "Ey Adəm, sən bəşəriyyətin atasısan. Allah səni Öz Əli ilə yaratmış, Öz Ruhundan sənə üfürmüş, sonra da mələklərə əmr etmiş və onlar sənə səcdə etmişlər[1].** ***Elə isə,*** **Rəbbinin yanında bizdən ötrü havadarlıq et** (şəfaətçi ol)**. Məgər, sən bizim nə vəziyyətdə olduğumuzu, başımıza nələr gəldiyini görmürsənmi?"– deyə ona müraciət edəcəklər. Adəm deyəcək: "Bu gün Rəbbim elə qəzəblənib ki, O, bundan əvvəl heç vaxt belə qəzəblənməmiş və bundan sonra əsla belə qəzəblənməyəcəkdir. O, mənə** ***bəlli*** **bir ağaca yaxınlaşmağı qadağan etdi, lakin mən Ona asi oldum. Ah nəfsim, nəfsim! Başqasının yanına gedin, Nuhun yanına gedin!"**

**Onlar Nuhun yanına gəlib deyəcəklər: "Ey Nuh, sən yer üzünə göndərilmiş ilk rəsulsan. Özünü də Allah, şükür edən bəndə adlandırmışdır[2].** ***Elə isə,*** **Rəbbinin yanında bizdən ötrü havadarlıq et! Məgər, sən bizim nə vəziyyətdə olduğumuzu,**

---

[1] **"Bir zaman sənin Rəbbin mələklərə belə buyurmuşdur: "Mən palçıqdan bir insan yaradacağam. Mən ona surət verib Öz ruhumdan üfürdüyüm zaman ona səcdə edin!" Mələklərin hamısı birlikdə səcdə etdi. Yalnız İblisdən başqa – o təkəbbür göstərdi və kafirlərdən oldu".** ("Sad" surəsi, 71-74).

[2] **"Nuh, həqiqətən, şükür edən bir qul idi".** ("əl-İsra" surəsi, 3).

**başımıza nələr gəldiyini görmürsənmi?" Nuh onlara deyəcək: "Bu gün Rəbbim elə qəzəblənib ki, O, bundan əvvəl heç vaxt belə qəzəblənməmiş və bundan sonra əsla belə qəzəblənməyəcəkdir. Mənim dua etməyə imkanım var idi, lakin mən qövmümün əleyhinə bəddua etdim. Ah nəfsim, nəfsim! İbrahimin yanına gedin!"**

**Onlar İbrahimin yanına gəlib deyəcəklər: "Ey İbrahim, sən həm Allahın peyğəmbəri, həm də yer əhli arasında Allahın sevimli dostusan.**[1] ***Elə isə,*** **Rəbbinin yanında bizdən ötrü havadarlıq et! Məgər, sən bizim nə vəziyyətdə olduğumuzu, başımıza nələr gəldiyini görmürsənmi?" İbrahim onlara deyəcək: "Bu gün Rəbbim elə qəzəblənib ki, O, bundan əvvəl heç vaxt belə qəzəblənməmiş və bundan sonra əsla belə qəzəblənməyəcəkdir". Sonra o: "*Üç dəfə* yalan danışdığını**[2] **xatırlayacaq və deyəcək: "Ah nəfsim, nəfsim! Gedin, başqasının yanına. Musanın yanına gedin!"**

**Onlar Musanın yanına gəlib deyəcəklər: "Ey Musa, sən Allahın rəsulusan. Allah Öz risaləti**[3] **ilə, üstəlik səninlə bilavasitə danışmaqla**[4] **səni digər insanlardan üstün etmişdir. *Elə isə,* Rəbbinin yanında bizdən ötrü havadarlıq et! Məgər, sən bizim nə vəziyyətdə olduğumuzu, başımıza nələr gəldiyini görmürsənmi?" Musa onlara deyəcək: "Bu gün Rəbbim elə qəzəblənib ki, O, bundan əvvəl heç vaxt belə qəzəblənməmiş və bundan sonra əsla belə qəzəblənməyəcəkdir. Mən adam**

---

[1] **"Allah İbrahimi sevimli dost tutmuşdur".** ("ən-Nisa" surəsi, 125).

[2] Bax: "əl-Ənam" surəsi, 75-79, "əl-Ənbiya" surəsi, 51-72 və "əs-Saffat" surəsi, 89.

[3] Musaya عليه السلام həvalə etdiyi peyğəmbərlik vəzifəsi.

[4] **"Musa təyin etdiyimiz vaxtda gəldikdə, Rəbbi onunla danışdı".** ("əl-Əraf" surəsi, 143).

**öldürmüşəm, halbuki, onu öldürmək mənə buyurulmamışdı. Ah nəfsim, nəfsim! İsanın yanına gedin!"**

**Onlar İsanın yanına gəlib deyəcəklər: "Ey İsa, sən Allahın rəsulusan. Sən hələ körpə ikən beşikdə insanlarla danışmısan. Sən həm Allahın Məryəmə göndərdiyi kəlməsi, həm də Allahın Ruhundansan**[1]**.** ***Elə isə,*** **Rəbbinin yanında bizdən ötrü havadarlıq et! Məgər, sən bizim nə vəziyyətdə olduğumuzu, başımıza nələr gəldiyini görmürsənmi?" İsa onlara deyəcək: "Bu gün Rəbbim elə qəzəblənib ki, O, bundan əvvəl heç vaxt belə qəzəblənməmiş və bundan sonra əsla belə qəzəblənməyəcəkdir". İsa öz xətasını bildirməyəcək, sadəcə deyəcək: "Ah nəfsim, nəfsim! Gedin, başqasının yanına, gedin, Muhəmmədin yanına!"**

**Onlar mənim yanıma gəlib deyəcəklər: "Ey Muhəmməd, sən həm Allahın rəsulu, həm də peyğəmbərlərin sonuncususan. Allah sənin keçmiş və gələcək günahlarını bağışlamışdır.** ***Elə isə,*** **Rəbbinin yanında bizdən ötrü havadarlıq et! Məgər, sən bizim nə vəziyyətdə olduğumuzu, başımıza nələr gəldiyini görmürsənmi?" Onda mən Ərşin altına gəlib Rəbbimin qarşısında səcdə edəcəm. Sonra Allah mənə** ***elə bir şüur*** **bəxş edəcək, Özünə edilən həmd-sənalardan və ən gözəl təriflərdən elə bir ilham verəcək ki, məndən əvvəl heç kəsə beləsini verməmişdir. Sonra** ***mənə*** **belə buyurulacaq:**

---

[1] Hədisdə **"Allahın ruhu"** deyildikdə Onun yaratdığı ruh qəsd edilir. Belə ki, Allahın yaratdığı məxluq Ona məxsus olduğu üçün Ona isnad edilir. "Beytullah / Allahın evi", Rəsulullah / Allahın elçisi", "Abdullah / Allahın qulu" və s. buna bənzər söz birləşmələrində olduğu kimi. Bu xüsusda Quranda belə deyilir: **"İsmətini qoruyan** ***Məryəmi də yada sal!*** **Biz ona Öz ruhumuzdan** ***Cəbrail vasitəsilə*** **üfürdük, onu və onun oğlunu aləmlərə bir möcüzə etdik".** ("əl-Ənbiya" surəsi, 91).

**“Ey Muhəmməd, başını qaldır və istə, sənə istədiyin veriləcək, havadarlıq et, havadarlığın qəbul olunacaq. Mən başımı qaldırıb deyəcəm: “Ey Rəbbim, ümmətim, ümmətim!” Onda,** *mənə* **belə buyurulacaq: “Ey Muhəmməd, ümmətindən sorğu-suala çəkilməyəcək kimsələri Cənnət qapılarından sağ qapısından içəri daxil et! Halbuki, onlar başqa insanlarla birlikdə** *Cənnətin* **digər qapılarından da keçə bilərlər”.**[1]

Digər rəvayətdə Peyğəmbər ﷺ demişdir: **“Mən Allahın qarşısında səcdəyə qapanacağam. Onda, mənə belə buyurulacaq: “Ey Muhəmməd, başını qaldır, söylə, sözün dinlənəcək, istə, sənə** *istədiyin* **veriləcək, havadarlıq et, havadarlığın qəbul olunacaq”. Mən** *başımı səcdədən qaldırıb*: **“Ey Rəbbim, ümmətim, ümmətim!”– deyə şəfaət diləyəcəyəm. Onda mənə: “Get, qəlbində buğda və ya arpa dənəsi ağırlığında iman olan kimsələri Cəhənnəmdən çıxart”– deyiləcək. Mən gedib** *əmri* **yerinə yetirəcəyəm, sonra da Rəbbimin yanına qayıdıb Onu** *söylədiyim* **o həmd-sənalarla tərif edəcəyəm və səcdəyə qapanacağam. Mənə yenə deyiləcək: “Ey Muhəmməd, başını qaldır, söylə, sözün dinlənəcək, istə, sənə** *istədiyin* **veriləcək, havadarlıq et, havadarlığın qəbul olunacaq”. Mən** *başımı qaldırıb*: **“Ey Rəbbim, ümmətim, ümmətim!”– deyə şəfaət diləyəcəyəm. Onda, mənə: “Get, qəlbində xardal dənəsi ağırlığında iman olan kimsələri Cəhənnəmdən çıxart”– deyiləcək. Mən gedib** *əmri* **yerinə yetirəcəyəm, sonra da Rəbbimin yanına qayıdıb Onu o həmd-sənalarla tərif edəcəyəm və səcdəyə qapanacağam. Mənə yenə deyiləcək: “Ey Muhəmməd, başını qaldır, söylə, sözün dinlənəcək, istə, sənə** *istədiyin* **veriləcək, havadarlıq et, havadarlığın qəbul olunacaq”. Mən**

---

[1] “Səhih əl-Buxari”, 4712; “Səhih Muslim”, 194.

***başımı qaldırıb*: "Ey Rəbbim, ümmətim, ümmətim!"– deyə şəfaət diləyəcəyəm. Onda mənə: "Get, qəlbində xardal dənəsi ağırlığından daha az, daha az, daha az iman olan kimsələri Cəhənnəmdən çıxart"– deyiləcək. Mən də gedib *əmri* yerinə yetirəcəyəm..."**[1]

**4)** Sonra insanların etdikləri əməllər özlərinə ərz ediləcək və əməlləri yazılmış kitabları onlara təqdim ediləcək – sağ tərəf sahiblərinə kitabları sağ tərəfdən, sol tərəf sahiblərinə isə kitabları sol tərəfdən veriləcək və onlar haqq-hesaba çəkiləcəklər. Bu xüsusda Quranda bunlar xəbər verilir:

**"Yer öz Rəbbinin nuru ilə işıqlanacaq, *əməllər yazılmış* kitab *hər kəsin qarşısına* qoyulacaq, peyğəmbərlər və şahidlər gətiriləcəkdir. İnsanlar arasında ədalətlə hökm veriləcək və onlara haqsızlıq edilməyəcək".**[2]

**"O gün siz *məhşərə* gətiriləcəksiniz və heç bir sirriniz gizlin qalmayacaq. Kitabı sağ əlinə verilən kimsə deyəcək: "Budur, oxuyun kitabımı! Mən bilirdim ki, etdiklərimin hesabına qovuşacağam". O, uca Cənnətdə xoşbəxt həyat sürəcək".**[3]

**"Kimin kitabı sağ əlinə veriləcəksə, o, yüngül haqq-hesaba çəkiləcək".**[4]

**"Kitabı sol əlinə verilən kimsə isə deyəcək: "Kaş, kitabım mənə verilməyəydi, hesabımdan da xəbərim olmayaydı! Kaş, ilk ölümüm həmişəlik olaydı! Var-dövlətim məni *əzabdan* qurtarmadı, hökmranlığım da məhv olub getdi". *Mələklərə belə***

---

[1] "Səhih Muslim", 194.
[2] "əz-Zumər" surəsi, 69.
[3] "əl-Haqqə" surəsi, 18-22.
[4] "əl-İnşiqaq" surəsi, 7-8.

*buyurulacaq:* **"Onu yaxalayıb zəncirləyin, sonra da Cəhənnəmə atın!"**[1]

Aişə ﵂ rəvayət edir ki, Peyğəmbər ﷺ: **"Kim haqq-hesaba çəkilərsə, həlak olar"**– deyə buyurdu. Mən dedim: "Canım sənə fəda olsun, ya Rəsulullah! Məgər, qüdrətli və əzəmətli Allah: **"Kimin kitabı sağ əlinə veriləcəksə, o, yüngül haqq-hesaba çəkiləcək"**[2]– deyə buyurmurmu?" Peyğəmbər ﷺ dedi: **"Sən dediyin ərz edilməkdir[3]. *Əməlləri barədə* münaqişə ediləcək** (birəbir hesaba çəkiləcək) **kimsə isə həlak olacaq".**[4]

Digər bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: **"Qiyamət günü Adəm övladından dörd şey barədə soruşulmayınca addımını kənara qoya bilməyəcək: ömrünü nəyə sərf etdiyi, nə əməllər etdiyi, malını haradan qazandığı və nəyə xərclədiyi və bir də sağlamlığını nəyə sərf etdiyi".**[5]

**5)** Sonra insanların yaxşı və pis əməlləri tərəzidə çəkiləcək. Bu xüsusda Quranda belə buyurulur:

**"O gün *əməllərin tərəzidə* çəkilməsi bir həqiqətdir".**[6]

**"Biz Qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir. *Görülmüş iş* bir xardal dənəsi mislində olsa belə, onu gətirib *tərəziyə* qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik".**[7]

---

[1] "əl-Haqqə" surəsi, 25-31.
[2] "əl-İnşiqaq" surəsi, 8.
[3] Yəni etdiyi əməllər ona bildiriləcək.
[4] "Səhih əl-Buxari", 4939; "Səhih Muslim", 2876.
[5] "Sunən ət-Tirmizi", 2417; "Səhih əl-Cami", 7300.
[6] "əl-Əraf" surəsi, 8.
[7] "əl-Ənbiya" surəsi, 47.

**"*O gün* məhz tərəziləri ağır gələnlər nicat tapacaqlar. Tərəziləri yüngül gələnlər isə özlərini ziyana uğradanlardır. *Onlar* Cəhənnəmdə əbədi qalacaqlar".**[1]

Əməllərin Qiyamət günü tərəzidə çəkiləcəyinə dəlalət edən hədislərdə isə Peyğəmbər ﷺ belə demişdir:

**"Mərhəmətli Allaha sevimli, tələffüzü asan və tərəzidə ağır gələn iki kəlmə var ki, bunlar: "Sübhanəllahi və bihəmdihi, sübhanəllahil-əzim!"[2] *kəlmələridir*".**[3]

**"Allahın peyğəmbəri Nuh ﵇ ölüm ayağında ikən oğluna belə demişdir: "Mən sənə vəsiyyət etmək istəyirəm: sənə iki şeyi əmr edir və iki şeyi qadağan edirəm. Sənə "la ilahə illəllah"ı əmr edirəm. Əgər yeddi göy və yeddi yer tərəzinin bir gözünə, "la ilahə illəllah" da digər gözünə qoyulsa, bu kəlmə onlardan ağır gələr..."**[4]

**"Ümmətimdən bir kişi Qiyamət günü məxluqatın qarşısına gətiriləcək və ona *içində günahları yazılmış* doxsan doqquz ədəd kitab göstəriləcək. Hər bir kitabın ölçüsü gözün gördüyü son məsafəyə qədər olacaq. Sonra uca Allah buyuracaq: "Bunlardan hər hansı birini inkar edə bilərsənmi?" O: "Xeyr, ey Rəbbim!"– deyə cavab verəcək. Allah buyuracaq: "*Əməlləri* yazan gözətçi mələklərim sənə zülm ediblərmi? Bu qədər kitabın qabağında sənin savabın ola bilərmi?" O, qorxu içində: "Xeyr!"– deyə cavab verəcək. Allah buyuracaq: "Əksinə, dərgahımızda sənin üçün savab vardır. Odur ki, bu gün sənə zülm edilməyəcək". Bu vaxt onun qarşısına içində**

---

[1] "əl-Muminun" surəsi, 102-103.

[2] Tərcüməsi: Allah pak və müqəddəsdir! Allaha həmd olsun! Əzəmətli Allah pak və müqəddəsdir!

[3] "Səhih əl-Buxari", 6682; "Səhih Muslim", 2694.

[4] "Musnəd İmam Əhməd", 2/213; "Silsilə əl-Əhadis əs-Səhihə", 135.

**"Əşhədu ən la ilahə illəllah və ənnə Muhəmmədən abduhu və rəsuluh!" yazılmış bir kağız parçası qoyulacaq. O deyəcək: "Ey Rəbbim, bu qədər kitabın qarşısında bu kağız parçası nə fayda verə bilər?" Allah buyuracaq: "Sənə zülm olunmayacaq!" Sonra kitablar tərəzinin bir gözünə, kağız parçası isə digər gözünə qoyulacaq və bu kağız parçasının ağırlığından o kitablar havaya qalxacaq".**[1]

**6)** Sonra insanlar dəstələrə bölünəcək və hər dəstə tabe olduğu başçının yanında, onun bayrağı altında toplanacaqdır. Beləcə, hər bir peyğəmbərin ardıcılları o peyğəmbərin yanına toplanacaqlar: **"Allaha və Onun rəsuluna itaət edənlər – məhz onlar Allahın nemət bəxş etdiyi peyğəmbərlərlə, siddiqlərlə, şəhidlərlə və əməlisalehlərlə bir yerdə olacaqlar. Onlar necə də gözəl dostlardır!"**[2]

Zalımlar və kafirlər isə öz həmfikirləri ilə bir yerə toplanacaqlar. Yəni müşrik müşriklərlə, münafiq münafiqlərlə, haqq-hesab gününü inkar edən o günü inkar edənlərlə, əyyaş əyyaşlarla, zinakar zinakarlarla, qumarbaz qumarbazlarla, oğru oğrularla və s. – hər bir zalım öz həmfikirləri ilə bir yerə toplanacaq. Bu xüsusda Quranda belə xəbər verilir: ***"O gün mələklərə belə əmr olunacaq:*** **"Toplayın bir yerə zalımları, onların dostlarını və Allahdan başqa ibadət etdiklərini. Onları Cəhənnəm yoluna yönəldin".**[3]

Peyğəmbər ﷺ belə demişdir:

**"Hər kəs sevdiyi kimsə ilə bir yerdə olacaq".**[4]

---

[1] "Musnəd İmam Əhməd", 2/213; "Silsilə əl-Əhadis əs-Səhihə", 135.

[2] "ən-Nisa" surəsi, 69.

[3] "əs-Saffat" surəsi, 22-23.

[4] "Səhih əl-Buxari", 6168; "Səhih Muslim", 2640.

**“Ümmətlər[1] mənə göstərildi[2]. Elə peyğəmbər gördüm ki, yanında bir toplum insan var idi. Başqa bir peyğəmbər gördüm, yanında bir və ya iki nəfər var idi. Hətta elə peyğəmbər gördüm ki, yanında heç kəs yox idi. *Həmin vaxt* mənə böyük bir qaraltı göstərildi. Mən onların ümmətim olduğunu güman etdim. *Mənə*: “Bu, Musa və onun qövmüdür. Sən üfüqə doğru bax”– deyildi. Mən *dərhal ora* baxdım və orada böyük bir qaraltı gördüm. Mənə yenə: “Üfüqün digər tərəfinə bax!”– deyildi. *Mən daha* böyük bir qaraltı gördüm. Mənə: “Bu sənin ümmətindir. Onlardan yetmiş min nəfəri sorğu-sual olunmadan və əzab çəkmədən Cənnətə daxil olacaqdır”– deyildi”.[3]**

**“Qiyamət günü Allah insanları *məhşərə* toplayacaq və belə buyuracaq: “Kim nəyə ibadət edirdisə, onun ardınca getsin!” Beləcə, Günəşə ibadət edənlər Günəşin, Aya ibadət edənlər Ayın, tağutlara[4] ibadət *və itaət* edənlər də tağutların ardınca *gedib Cəhənnəmə düşəcəklər*”.[5]**

---

[1] Burada özlərinə peyğəmbər göndərilən ümmətlər nəzərdə tutulur. Uca Allah buyurur: **“Biz hər ümmətə: “Allaha ibadət edin, tağutdan uzaq olun!”– *deyə* elçi göndərdik”.** (“ən-Nəhl” surəsi, 36).

[2] Çox güman ki, Peyğəmbər ﷺ bunu yuxuda görmüşdür. (“Fəth əl-Bari”, 11/407).

[3] “Səhih əl-Buxari”, 5705; “Səhih Muslim”, 220.

[4] Tağut sözü aşağıdakı mənalarda işlənir:

(a) Allahdan başqa ibadət olunan hər hansı bir məxluq;

(b) Allahın haram buyurduğunu bilərəkdən qəbul etməyən günahkar;

(c) Şeytanlar və İblis;

(ç) Cadugərlər və baxıcılar;

(d) Allahın dininə zidd olan əmr və ya qadağanı qəbul edən kafirlər;

(e) Büt yerləşdirilən məbəd.

[5] “Səhih əl-Buxari”, 7437; “Səhih Muslim”, 182.

**7)** Sonra Cəhənnəmə doğru zülmət qaranlıqlı bir yol açılacaq. Möminlər özlərinə bəxş edilmiş nurla düz yol tutub Cənnətə doğru, münafiqlər və kafirlər zülmət qaranlıqda Cəhənnəmə doğru gedəcəklər. Bu xüsusda Quranda belə buyurulur: **"*O gün* möminlərin nuru önlərindən və sağ tərəflərindən ətrafa yayılacaq. Onlar deyəcəklər: "Ey Rəbbimiz, nurumuzu bizim üçün tamamla və bizi bağışla. Həqiqətən, Sən hər şeyə qadirsən!"**[1]

**"O gün münafiq kişilər və münafiq qadınlar iman gətirənlərə: "Gözləyin, biz də sizin nurunuzdan alaq"– deyəcəklər. *Onlara* deyiləcək: "Geriyə qayıdıb nur axtarın!" Onların arasına içəri tərəfində mərhəmət, çöl tərəfində əzab olan qapılı bir sədd çəkiləcək. *Münafiqlər* onları səsləyib deyəcəklər: "Məgər *dünyada* biz sizinlə birlikdə deyildikmi?" *Möminlər* deyəcəklər: "Bəli, lakin siz öz-özünüzü aldadırdınız, *möminlərə müsibət üz verməsini* gözləyirdiniz, *haqqa* şübhə edirdiniz və Allahın əmri gələnədək xülyalar sizi yoldan çıxartdı. Tovlayan *şeytan* Allah barəsində sizi yaman aldatdı".**[2]

Hədisdə Peyğəmbər ﷺ demişdir: **"Qiyamət günü mən önümə, arxama, sağıma, soluma baxacam və məhşərə toplanmış insanlar arasından öz ümmətimi tanıyacam".** Bir nəfər soruşdu: "Ya Rəsulullah, Nuh peyğəmbərdən sənin ümmətinə qədər gəlib-getmiş ümmətlər içindən sən öz ümmətini necə tanıyacaqsan?" Peyğəmbər ﷺ dedi: **"Onların dəstəmaz aldıqları əzaları nur saçacaq, bu əlamət onlardan başqa heç kəsdə olmayacaq".**[3]

---

1 "ət-Təhrim" surəsi, 8.

2 "əl-Hədid" surəsi, 13-14.

3 "Musnəd İmam Əhməd", 21785; "Səhih ət-Tərğib vət-Tərhib", 180.

Rəvayət edilir ki, səhabə Cabir ibn Abdullah ﷺ demişdir: "Biz *müsəlmanlar* Qiyamət günü *bəlli bir* yerə gələcəyik.[1] Ora insanların fövqündə bir yer olacaq. Ümmətlər öz bütləri və tapındıqları *tanrılarla* birgə növbə ilə çağırılacaqlar. Sonra Rəbbimiz bizim yanımıza gələcək və: **"Kimi gözləyirsiniz?"**– deyə buyuracaq. *Müsəlmanlar*: "Rəbbimizi gözləyirik"– deyəcəklər. Allah buyuracaq: **"Mən sizin Rəbbinizəm!"** Onlar deyəcəklər: "Sənin camalını görməyənə qədər *əmin olmarıq*". Onda Allah gülərək Özünü onlara göstərəcək, sonra onları *Özü ilə* aparacaq və onlar da Onun ardınca gedəcəklər. Onlardan istər münafiq, istərsə də mömin olsun, hər birinə nur veriləcək, onlar da Onun ardınca gedəcəklər. Cəhənnəm körpüsü üstündə bir çox qarmaqlar və dəmir tikanlar vardır ki, bunlar ancaq Allahın dilədiyi kimsələri yaxalayacaqlar. Elə bu dəm münafiqlərin nuru sönəcək, möminlər isə xilas olacaqlar. Üzləri Bədr gecəsindəki ay kimi olan yetmiş min nəfərlik ilk zümrə sorğu-suala çəkilmədən *körpüdən keçib* xilas olacaq. Onlardan sonra keçənlər də göydəki ən parlaq ulduz kimi nur saçacaqlar".[2]

**8)** Sonra Muhəmməd peyğəmbər ﷺ gəlib Cəhənnəmin üzərinə salınmış körpünün başında durub: **"Allahım, xilas et, xilas et!"**– deyə ümmətinin Cəhənnəm odundan qurtulmasını Allahdan diləyəcək. Allahın rəhm etdiyi kimsələr o körpünün

---

[1] Peyğəmbər ﷺ demişdir: **"Qiyamət günü insanlar məhşərə toplanacaqlar. Mən öz ümmətimlə birgə bir təpənin üstünə yığışacağıq. O zaman Rəbbim mənə yaşıl bir libas əta edəcək. Sonra mənə *danışmağa* izin veriləcək, mən də Allahın istədiyi qədər danışacağam. Təriflənən məqam da elə budur".** ("Səhih ibn Hibban", 6445; "Müsnəd İmam Əhməd", 3/465; "Silsilə əl-Əhadis əs-Səhihə", 2370).

[2] "Səhih Muslim", 191.

üstündən keçəcək, günahkar möminlərin bir qismi isə Cəhənnəmə düşəcək. Cəhənnəmə düşən günahkar möminlər bir müddətdən sonra Cəhənnəmdən çıxarılıb Cənnətə girəcəklər. Bu xüsusda Quranda belə buyurulur: **"İçinizdən hər kəs oraya varid olacaq** *(Cəhənnəmin üstündən keçəcək)*. ***Bu,*** **Rəbbinin** *əzəldən* **müəyyən etdiyi qəti bir qərardır".**[1]

Peyğəmbər ﷺ demişdir: ***"O gün*** **Cəhənnəmin üzərində körpü qurulacaq və şəfaət etməyə izin veriləcəkdir.** ***Həmin vaxt peyğəmbərlər*****: "Allahım, xilas et, xilas et!"– deyəcəklər".** Səhabələr soruşdular: "O, nə körpüdür elə, ya Rəsulullah?" Peyğəmbər ﷺ dedi: "(Sirat) **sürüşkən və hamar bir körpüdür. Orada çəngəllər, qarmaqlar və dəmir tikanlar vardır. Bunlar Nəcd bölgəsindədə**[2] **bitən,** ***üstü*** **tikanla** ***dolu,*** **"sadan" deyilən bir bitkiyə** ***bənzəyir.*** **Möminlər əməllərinə görə bu körpünün üzərindən fərqli sürətlə keçəcəklər:** ***kimisi*** **bir göz qırpımında,** ***kimisi*** **şimşəktək,** ***kimisi*** **külək kimi,** ***kimisi*** **quş kimi,** ***kimisi də*** **ən bərk qaçan cins at və ya dəvə kimi** ***sürətlə həmin körpünün üstündən*** **keçəcək.** ***Bir qismi*** **sağ-salamat qurtulacaq, bir qismi** ***tikanlara ilişib*** **didik-didik ediləcək, lakin axırda xilas olacaq, bir qismi də Cəhənnəm odunda qalaqlanacaqlar.**

**Nəhayət, möminlər oddan xilas olduqları zaman – canım Əlində olan** ***Allaha*** **and olsun ki, sizlərdən birinizin haqqı araşdırmaq xüsusunda göstərdiyi cəhd, möminlərin Qiyamət günü Cəhənnəmə düşmüş qardaşları üçün Allaha yalvarmaları qədər şiddətli ola bilməz**[3] **– onlar: "Ey Rəbbimiz,**

---

[1] "Məryəm" surəsi, 71.

[2] Nəcd: Məkkə ilə İraq arasında olan ərazi nəzərdə tutulur.

[3] Yəni biriniz bu dünyada haqqı tapmaq və haqq yolu tutub getmək üçün Allaha nə qədər çox yalvarırsa, Qiyamət günü möminlər

*bu zavallılar* **bizimlə bərabər oruc tutar, namaz qılar və həcc ziyarətini yerinə yetirərdilər"– deyəcəklər. Onda onlara: "***Gedin,* **tanıdığınız kimsələri** *oddan* **çıxardın! Onların vücudu Cəhənnəm oduna haram edildi"– deyiləcək. Onlar da ayağının yarısına qədər, habelə dizinə qədər atəşə giriftar olmuş bir çox insanı** *oradan* **çıxaracaqlar. Sonra deyəcəklər: "Ey Rəbbimiz, bizə əmr etdiyin kimsələrdən Cəhənnəmdə heç kəs qalmadı". Onda, Allah buyuracaq: "Geri qayıdın və qəlbində dinar ağırlığında iman olan** *hər* **kəsi** *oradan* **çıxarın!" Onlar yenə bir çoxlarını** *oddan* **çıxaracaqlar. Sonra deyəcəklər: "Ey Rəbbimiz, bizə əmr etdiyin kimsələrdən heç kəsi Cəhənnəmdə buraxmadıq,** *hamısını çıxartdıq***". Allah buyuracaq: "Geri dönün, qəlbində yarım dinar ağırlığında iman olan bir kimsə tapsanız, onu da** *oradan* **çıxarın!" Onlar yenə bir çoxlarını** *oradan* **çıxaracaqlar. Sonra deyəcəklər: "Ey Rəbbimiz, bizə əmr etdiyin kimsələrdən heç kəsi orada buraxmadıq". Allah buyuracaq: "Geri dönün, qəlbində zərrə ağırlığında iman olan bir kimsə tapsanız, onu da** *oradan* **çıxarın!" Onlar yenə bir çoxlarını** *oradan* **çıxaracaqlar. Sonra deyəcəklər: "Ey Rəbbimiz, orada qəlbində iman olan bir nəfər adam buraxmadıq...".**

**Bundan sonra izzətli və qüdrətli Allah: "Mələklər şəfaət etdilər, peyğəmbərlər şəfaət etdilər, möminlər şəfaət etdilər.** *Şəfaət etməyən* **bircə rəhmlilərin Rəhmlisi** (Allah) **qaldı"– deyə buyuracaq. Sonra Allah, heç vaxt yaxşılıq etməmiş və** *odda* **yanıb kömürə dönmüş bir toplumu ovuclayıb, Cəhənnəmdən çıxaracaq və onları Cənnətin yollarında axan, "Həyat çayı" deyilən bir çaya atacaq. Onlar o çayda selin gətirdiyi toxumların**

---

öz qardaşlarını Cəhənnəm odundan qurtarmaq üçün Allaha daha əzmlə yalvaracaqlar.

**cücərib yetişdiyi kimi yenidən diriləcəklər. Məgər, *yabanı toxumların* istər daşın, istərsə də ağacın dibində necə cücərdiyini görmürsünüz? – Günəş *şüaları* altında qalanı sarı və yaşıl, kölgədə qalanı isə ağ olur...**

**Onlar boyunlarında *gözoxşayan* halqalarla, özləri də mirvari tək gözəl görkəmdə *Həyat çayından* çıxacaqlar. Cənnət əhli onları tanıyacaq və deyəcək: "Nə bir *yaxşı* əməli, nə də özləri üçün əvvəlcədən tədarük gördükləri xeyirləri olmadığı halda Allahın Cənnətə daxil etdiyi, azadlığa buraxdığı kimsələr bunlardır!" Sonra Allah *onlara* belə buyuracaq: "Cənnətə daxil olun! Gözünüzün gördüyü hər nə varsa, sizindir". Onlar deyəcəklər: "Ey Rəbbimiz, Sən aləmlərdən heç kəsə vermədiyin nemətləri bizə verdin!" Allah buyuracaq: "Sizə bundan da üstün olanını hazırlamışam". Onlar deyəcəklər: "Ey Rəbbimiz, bundan üstün nə ola bilər ki?" Allah buyuracaq: "Mənim razılığım! Artıq bundan sonra Mənim sizə heç vaxt qəzəbim tutmayacaq".[1]**

**9)** Nəhayət, möminlər Cəhənnəmin üzərinə salınmış körpünün üstündən keçdikdən sonra Cənnətin qarşısındakı Ərəsatda[2] toplanacaqlar ki, məzlum zalımdan öz haqqını alsın. Bu xüsusda Peyğəmbər ﷺ demişdir:

**"*Qiyamət günü* möminlər Oddan xilas olduqdan sonra[3] Cənnətlə Cəhənnəm arasındakı körpünün o biri başında dayandırılacaq və dünyada ikən *bir-birinə qarşı* etdikləri**

---

[1] "Səhih Muslim", 183.

[2] Ərəsat: Möminlərin bir-biri ilə hesablaşmaları – məzlumun zalımdan öz haqqını tələb etməsi üçün toplaşacaqları yer, meydan.

[3] Yəni Cəhənnəmin üzərində qurulmuş körpüdən keçdikdən sonra.

**haqsızlıqlara görə bir-birinin haqqını ödəyəcəklər. Nəhayət, onlar *günahlardan* təmizləndikdən sonra onlara Cənnətə daxil olmağa izin veriləcək."**[1]

**"Qoy, birisinin namusuna toxunmaqla və ya ona başqa bir pislik etməklə zülm etmiş adam bu gün, dinar və dirhəmin *fayda verməyəcəyi gün* gəlməmişdən əvvəl ondan halallıq diləsin. Əgər *Qiyamət günü* onun savabı olarsa, etdiyi zülm qədər savabından götürülər *və zülm etdiyi adama verilər*. Yox, əgər savabı olmazsa, onda zülm etdiyi adamın günahlarından götürülüb onun günahları üstünə artırılar".**[2]

Başqa bir hədisdə rəvayət edilir ki, bir dəfə Peyğəmbər ﷺ səhabələrindən: **"Bilirsiniz, müflis kimdir?"**– deyə soruşdu. Onlar: "Müflis, ya Rəsulullah, nə bir dirhəmi, nə də bir malı olmayan kimsələrimizdir"– deyə cavab verdilər. Onda, Rəsulullah ﷺ dedi: **"Ümmətimin həqiqi müflisi o kəsdir ki, Qiyamət günü namazın, orucun və zəkatın savabları ilə gələr. Lakin eyni zamanda o,** (dünyada ikən) **birini söymüş, birinə böhtan atmış, birinin malını yemiş, birinin qanını tökmüş, birini də vurmuşdur. Elə bu səbəbdən də onun savablarından götürülüb haqq sahiblərinə** (məzluma) **verilər. Əgər ondan tam olaraq qisas alınmadan öncə savabları qurtararsa, haqq sahibinin** (məzlumun) **günahlarından götürülüb onun günahları üzərinə əlavə edilər, sonra da bu adam Cəhənnəm oduna atılar".**[3]

---

[1] "Səhih əl-Buxari", 2440.

[2] "Səhih əl-Buxari", 2449.

[3] "Sunən ət-Tirmizi", 2418; "Səhih Tərğib vət-Tərhib", 2843.

**10)** Haqq-hesab başa çatdıqdan sonra ilk əvvəl Muhəmməd peyğəmbər ﷺ, ardınca da möminlər Cənnətə daxil olacaqlar. Bu xüsusda Quranda belə buyurulur:

**"Rəbbindən qorxanlar isə dəstə-dəstə Cənnətə gətiriləcəklər. Nəhayət, ora çatdıqda onun qapıları açılacaq və onun gözətçiləri onlara deyəcəklər: "Sizə salam olsun, xoş sizin halınıza! Əbədi qalmaq üçün buraya daxil olun!"**[1]

**"Ey qullarım, bu gün sizə qorxu yoxdur və siz heç kədərlənməyəcəksiniz də. Siz ayələrimizə iman gətirib müsəlman olmusunuz. Siz də, zövcələriniz də fərəhlə Cənnətə daxil olun!"**[2]

**"Onlar Cənnətə daxil olacaq və heç bir haqsızlığa məruz qalmayacaqlar".**[3]

Peyğəmbər ﷺ belə demişdir:

**"Mən Qiyamət günü Cənnətin qapısına yaxınlaşacam və onun açılmasını xahiş edəcəyəm. Bu vaxt gözətçi: "Sən kimsən?"– deyə soruşacaq, mən də: "Muhəmmədəm!"– deyə cavab verəcəyəm.** *Bunu eşidəndə* **o deyəcək: "Mənə** *bu qapıları* **səndən əvvəl heç bir kəsə açmamaq və ilk əvvəl sənin üçün açmaq əmr edilib".**[4]

**"Ümmətimdən yetmiş min nəfər sorğu-sualsız Cənnətə daxil olacaq".**[5]

Digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: **"Ümmətimdən yetmiş min nəfər sorğu-sualsız Cənnətə daxil olacaq.**

---

[1] "əz-Zumər" surəsi, 73.

[2] "əz-Zuxruf" surəsi, 68-70.

[3] "Məryəm" surəsi, 60.

[4] "Səhih Muslim", 197.

[5] "Səhih Muslim", 216.

**Onların üzü Bədr gecəsindəki ay kimi nur saçacaq, qəlbləri də *mömin* bir adamın qəlbi kimi olacaq. Rəbbimdən bundan artığını istədim, O, mənə *həmin yetmiş min nəfərin* hər biri ilə bərabər, daha yetmiş min nəfərin də sorğu-sualsız Cənnətə daxil olacağı barədə müjdə verdi".**[1]

**"Muhəmmədin canı Əlində olan *Allaha* and olsun ki, mən sizin Cənnət əhlinin yarısını təşkil edəcəyinizə ümid edirəm. *Bilin ki,* Cənnətə yalnız müsəlman olan kəs daxil olacaq".**[2]

Kafir, müşrik, münafiq və zalımlara gəlincə, onlar Cəhənnəmə giriftar olacaqlar. Bu xüsusda Quranda belə buyurulur:

**"Kafirlər dəstə-dəstə Cəhənnəmə sürüklənəcəklər. Nəhayət, ora çatdıqda onun qapıları açılacaq və onun gözətçiləri onlara deyəcəklər: "Məgər, öz içərinizdən Rəbbinizin ayələrini sizə oxuyan və sizi bu gününüzə qovuşacağınızla xəbərdar edən elçilər gəlməmişdi?" Onlar: "Bəli, *gəlmişdi*"– deyəcəklər. Lakin əzab sözü kafirlər barəsində gerçəkləşdi. *Onlara* deyiləcək: "İçində əbədi qalacağınız Cəhənnəmin qapılarından içəri girin!" Təkəbbürlülərin yeri necə də pisdir".**[3]

**"O gün onlar amansızcasına *sürüklənib* Cəhənnəm oduna atılacaqlar".**[4]

**"Üzüstə sürüklənib Cəhənnəmə toplanacaq kimsələr – məhz onlar yerləri ən pis olan, *haqq* yoldan ən çox azan kimsələrdir".**[5]

Hədisdə Peyğəmbər ﷺ bunları demişdir:

---

[1] "Musnəd İmam Əhməd", 1/203; "Səhih əl-Cami", 1057.

[2] "Səhih əl-Buxari", 6528; "Səhih Muslim", 221. Bu ləfz Muslimindir.

[3] "əz-Zumər" surəsi, 71-72.

[4] "ət-Tur" surəsi, 13.

[5] "əl-Furqan" surəsi, 34.

**“Kim Allaha şərik qoşub ölərsə, Cəhənnəmə girər”.**[1]

**“Cənnət əhli Cənnətə, Cəhənnəm əhli də Cəhənnəmə yerləşdikdən sonra ölüm** [qoç şəklində] **Cənnətlə Cəhənnəmin arasına gətirilib boğazlanacaq. Sonra carçı: “Ey Cənnət əhli, artıq ölüm yoxdur! Ey Cəhənnəm əhli, artıq ölüm yoxdur!”– deyəcək. Bu, Cənnət əhlinin fərəhinin üstünə fərəh artırar, Cəhənnəm əhlinin isə qəminin üstünə qəm gətirər”.**[2]

**“Cənnətə girən hər kəsə Cəhənnəmdəki** (ehtimal edilən) **yeri göstəriləcək və ona: “Əgər günah işləsəydin, mütləq bura düşəcəkdin!”– deyiləcək. Bu, həmin şəxsin şükrünü daha da artırmaq üçün belə ediləcək. Eyni zamanda, Cəhənnəmə girən hər kəsə də Cənnətdəki** (ehtimal edilən) **yeri göstəriləcək və ona: “Əgər yaxşı işlər görsəydin, mütləq bura düşəcəkdin!”– deyiləcək. Bu da, həmin kimsənin həsrət və peşmanlığını bir az da artırmaq üçün belə ediləcək”.**[3]

Möminlərin Cənnətə, günahkarların isə Cəhənnəmə daxil olacaqları və orada hər iki toplumu nələr gözlədiyi barədə Qurani-Kərimdə və Peyğəmbərin ﷺ hədislərində olduqca çox dəlillər var. Biz, xatırlatma olsun deyə, bu dəlillərdən sadəcə bir neçəsi ilə kifayətləndik.

---

[1] “Səhih əl-Buxari”, 1238; “Səhih Muslim”, 92.

[2] “Səhih əl-Buxari”, 6548; “Səhih Muslim”, 2850.

[3] “Səhih əl-Buxari”, 6569.

# Cənnət[1] və Cəhənnəm[2]

Allahdan qorxan möminləri Cənnətdə xoş gün-güzəran, tükənməz nemətlər və Allahın razılığı gözləyir.

Cənnəti vəsf edən ayələrin bəziləri bunlardır:

**"Kim Allaha və Onun rəsuluna itaət edərsə, *Allah* onu *ağacları və qəsrləri* altından çaylar axan, içində əbədi qalacağı Cənnətlərə daxil edər. Bu, böyük uğurdur".**[3]

**"*Allahdan* qorxanlar üçün Rəbbi yanında *ağacları və qəsrləri* altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər, pak zövcələr və Allahın rizası vardır".**[4]

**"İman gətirib, saleh əməllər edənləri isə *ağacları və qəsrləri* altından çaylar axan, içində əbədi qalacaqları Cənnətlərə daxil edəcəyik. Orada onlar üçün pak zövcələr vardır. Biz onları sıx kölgəlikdə yerləşdirəcəyik".**[5]

**"Etdikləri əməllərə görə onların mükafatları qat-qat artırılacaq və onlar *Cənnətdəki* mənzillərində əmin-amanlıq içində yaşayacaqlar".**[6]

---

[1] Cənnət, Allahın Ona itaət edən qulları üçün hazırladığı, içində əbədi qalacaqları yurddur: **"*Dində* hamını ötüb keçən ilk mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da *Allahdan* razıdırlar. *Allah* onlar üçün *ağacları və qəsrləri* altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər hazırlamışdır. Bu, böyük uğurdur".** ("ət-Tövbə" surəsi, 100).

[2] Cəhənnəm, Allahın Ona asi olan qulları üçün hazırladığı yerdir: **"Həqiqətən, Biz Cəhənnəmi kafirlər üçün mənzil hazırlamışıq".** ("əl-Kəhf" surəsi, 102).

[3] "ən-Nisa" surəsi, 13.

[4] "Ali-İmran" surəsi, 15.

[5] "ən-Nisa" surəsi, 57.

[6] "Səba" surəsi, 37.

**"O gün *mömin insanın* üzündə fərəh görünəcək, *dünyadakı* səylərindən məmnun qalacaq, uca Cənnətdə olacaq və orada faydasız söz eşitməyəcək. Orada axar çeşmələr, hündür taxtlar, düzülmüş piyalələr, yan-yana qoyulmuş yastıqlar və *döşəmələrə* sərilmiş xalçalar vardır".[1]**

**"Müttəqilərə[2] vəd edilən Cənnətin vəsfi belədir: orada *onlar üçün* xarab olmayan sudan çaylar, dadı dəyişməyən süddən çaylar, içənlərə ləzzət verən şərabdan çaylar və süzülmüş baldan çaylar vardır. Orada onları hər cür meyvə və Rəbbi tərəfindən bağışlanma gözləyir".[3]**

**"Orada gözlərini *öz ərlərinə* dikmiş, onlardan əvvəl özlərinə heç bir insan və cin toxunmamış qızlar vardır".[4]**

**"*Dünyada xeyirxah işlərdə* öndə gedənlər *Cənnətdə də* öndədirlər! Onlar *Allaha* yaxın olanlar, Nəim cənnətlərində *qalacaq kimsələrdir*. Onların bir qismi əvvəlki ümmətlərdən, az bir qismi də axırıncılardandır. *Onlar* bəzənmiş taxtlar üstündə qarşı-qarşıya əyləşib dirsəklənəcəklər. Onların ətrafında həmişəcavan *xidmətçi* oğlanlar çeşmə şərabı ilə dolu badələr, bardaqlar və qədəhlərlə dolanacaqlar. Ondan başları ağrımaz və məst olmazlar. Həmçinin, bəyənib seçdikləri meyvələr və istədikləri quş əti ilə də *dolanacaqlar*. *Onları* iri qara gözlü hurilər gözləyir – *sədəf içində* saxlanılmış mirvariyə bənzər *hurilər*. *Bu,* onların etdikləri əməllərin mükafatı olacaq. Onlar orada nə boş söz, nə də günaha səbəb olan söhbət eşidəcəklər. Ancaq: "Salam! Salam!"– sözləri *eşidəcəklər*.**

---

[1] "əl-Ğaşiyə" surəsi, 8-16.

[2] Müttəqi: Allahdan qorxub pis əməldən çəkinən mömin.

[3] "Muhəmməd" surəsi, 11.

[4] "ər-Rəhman" surəsi, 56.

**Sağ tərəf sahibləri. Nə xoşbəxtdir sağ tərəf sahibləri! *Onlar* tikansız sidr ağacları arasında, habelə, meyvələri salxım-salxım asılmış banan ağacları arasında, uzanmış kölgəliklərdə, daim axan sular kənarında, çoxlu meyvələr, tükənməz və qadağan edilməyən *meyvələr* içində və hündür döşəklər üstündə olacaqlar. Biz *Cənnətdəki* qadınları yeni biçimdə yaradacağıq. Onları bakirə qızlar edəcəyik – ərlərini sevən, həmyaşıdlar. *Bunlar* sağ tərəf sahibləri üçündür".[1]**

**"İman gətirib yaxşı əməllər edənlərə gəlincə, Biz yaxşı işlər görənlərin mükafatını puç etmərik. Məhz onlar üçün *ağacları və qəsrləri* altından çaylar axan Ədn cənnətləri hazırlanmışdır. Onlar orada qızıl bilərziklərlə bəzədiləcək, taftadan və atlazdan yaşıl paltarlar geyəcək və orada taxtların üstündə dirsəklənəcəklər. Nə gözəl mükafat, necə də gözəl məskəndir!"[2]**

**"Şübhəsiz ki, müttəqilər kölgəliklərdə, çeşmələr başında və istədikləri meyvələr içində olacaqlar. *Onlara deyiləcək*: "*Xeyirxah* əməllərinizə görə nuşcanlıqla yeyin-için! Sözsüz ki, Biz yaxşı əməl sahiblərini belə mükafatlandırırıq!"[3]**

**"*Allah* onlara səbir etdiklərinə görə Cənnəti bəxş edəcək və *onları orada geyəcəkləri* ipəklə mükafatlandıracaq. *Onlar* orada taxtlar üzərində *mütəkkələrə* dirsəklənəcək və orada nə Günəş, nə də şaxta görəcəklər. *Cənnət ağaclarının* kölgələri *özləri* onlara yaxınlaşacaq, meyvələri də tam onların ixtiyarına veriləcək. Onların ətrafına *təamlarla dolu* gümüşdən hazırlanmış qablar və büllur qədəhlər dolandırılacaq. Gümüşdən**

---

[1] "əl-Vaqiə" surəsi, 10-39.

[2] "əl-Kəhf" surəsi, 30-31.

[3] "əl-Mursəlat" surəsi, 41-44.

**olan elə büllur qədəhlər ki, *xidmətçilər* onları *cənnətdəkilərin* içmək istədikləri həcmdə hazırlamışlar. Orada onlara zəncəfil qatılmış *şərab* badəsi də içirdiləcək. *Bu elə* bir bulaqdandır ki, *o, Cənnətdə* Səlsəbil adlanır. Onların ətrafında həmişəcavan olan *xidmətçilər* dolanacaqlar. Onları gördükdə səpələnmiş mirvari dənələri olduqlarını sanarsan. *Cənnətdə* hara baxsan nemət və əzəmətli səltənət *nişanəsi* görərsən. Onlar əyinlərinə taftadan və atlazdan yaşıl paltarlar geyəcəklər. Onların *qoluna* gümüş bilərziklər taxılacaq. Onların Rəbbi onlara tərtəmiz şərab içirdəcək. *Onlara deyiləcək*: "Həqiqətən, bu, sizə bir hədiyyədir və səyiniz təşəkkürə layiqdir".[1]**

**"Həqiqətən, itaətkarlar nemət içində olacaqlar. Onlar taxtlar üstündə seyrə dalacaqlar. Sən onların üzündə səadət parlaqlığı görəcəksən. Onlara möhürlü şərabdan içirdiləcək. Onun möhürü müşkdür. Qoy, yarışanlar ona *nail olmaq* üçün yarışsınlar! Onun qatışığı təsnim *bulağındandır*. *O təsnim elə* bir bulaqdır ki, ondan *Allaha* yaxın olanlar içərlər".[2]**

**"Həqiqətən, müttəqilər üçün nicat yeri vardır. *Həmçinin,* bağlar və üzümlüklər".[3]**

**"Hər iki Cənnətdə *cürbəcür* meyvələr, xurma ağacları və nar vardır".[4]**

**"Axirət günü *bir çox* üzlər parlayacaq və öz Rəbbinə baxacaq".[5]**

---

[1] "əl-İnsan" surəsi, 12-22.
[2] "əl-Mutaffifin" surəsi, 22-28.
[3] "ən-Nəbə" surəsi, 31-32.
[4] "ər-Rəhman" surəsi, 68.
[5] "əl-Qiyamə" surəsi, 22-23.

**“Orada onlar üçün istədikləri hər şey hazırlanmışdır. Üstəlik, hüzurumuzda bundan artığı –** ***Allahı görmək*** **var”.**[1]

**“*Cənnət əhli* deyəcək: “Həmdlər, qəm-qüssəni bizdən uzaq edən Allaha məxsusdur! Həqiqətən, Rəbbimiz bağışlayandır, şükrün əvəzini verəndir. Öz lütfü ilə bizi əbədi iqamətgahda yerləşdirən Odur. Orada bizə nə bir yorğunluq üz verəcək, nə də bir üzgünlük toxunacaqdır”.**[2]

**“*Cənnət əhli* deyəcək: “Bizə verdiyi vədini yerinə yetirən və bizi bu yerə varis edən Allaha həmd olsun! Biz Cənnətdə istədiyimiz yerdə sakin oluruq. *Yaxşı* əməl sahiblərinin mükafatı necə də gözəldir!”**[3]

**“Cənnət əhlinin oradakı duası: “Allahım, Sən pak və müqəddəssən!”, orada *bir-birilərini* salamlaması: “Salam!” *sözü*, dualarının sonu da: “Həmd aləmlərin Rəbbi Allaha məxsusdur!” *sözləri olacaq*”.**[4]

Hədislərə gəlincə, bu xüsusda Peyğəmbər ﷺ demişdir:

«***Axirət günü*** **uca Allah belə buyuracaq: “Mən əməlisaleh qullarım üçün heç bir gözün görmədiyi, qulağın eşitmədiyi və qəlbin dərk etmədiyi nemətləri hazırlamışam”. İstəyirsinizsə, bu ayəni oxuyun: “Etdikləri əməllərin mükafatı kimi onlar üçün gözlərinə sevinc gətirəcək nələr saxlandığını heç kəs bilmir”.**[5]**».**[6]

---

[1] “Qaf” surəsi, 35.

[2] “Fatir” surəsi, 34-35.

[3] “əz-Zumər” surəsi, 74.

[4] “Yunus” surəsi, 10.

[5] “əs-Səcdə” surəsi, 17.

[6] “Səhih əl-Buxari”, 3244; “Səhih Muslim”, 2824.

**“Uca Allah Cənnət əhlinə belə buyuracaq: “Ey Cənnət əhli!” Onlar: “Buyur, ey Rəbbimiz, əmrinə müntəzirik!”– deyəcəklər. *Allah* soruşacaq: “Razı qaldınızmı?” Onlar: “Bizə nə olub ki, razı qalmayaq?! Axı Sən bizə yaratdıqlarından heç kəsə vermədiyin nemətləri bəxş etmisən!”– deyəcəklər. Allah buyuracaq: “Mən sizə bundan da yaxşısını verəcəm!” Onlar deyəcəklər: “Ey Rəbbimiz, bundan yaxşı nə ola bilər?” Allah buyuracaq: “Mən Öz razılığımı sizə halal edirəm və bundan sonra Mənim sizə heç vaxt qəzəbim tutmayacaq”.**[1]

**“Cənnət əhli Cənnətə daxil olduqda uca Allah belə buyuracaq: “Sizə nə isə artırmağımı istəyirsinizmi?” Onlar: “*Ey Rəbbimiz,* Sən bizim üzümüzü ağ etmədinmi? Bizi atəşdən qurtarıb Cənnətə daxil etmədinmi?”– deyəcəklər. Bunun ardından Allah hicabı qaldıracaq**[2]**. Artıq onlara özlərinin izzətli və qüdrətli Rəbbinə baxmaqdan daha əziz bir şey verilməmişdir”.**[3]

**“Cənnətdə altmış mil enində, içi boş mirvarilərdən hazırlanmış çadırlar vardır. Onun hər küncündə bir-birini görməyən zövcələr vardır ki, möminlər vaxtaşırı onların yanına girəcəklər”.**[4]

---

[1] “Səhih əl-Buxari”, 6549; “Səhih Muslim”, 2829.

[2] Bu nemət yalnız möminlərə məxsusdur. Kafirlər isə Allahı görə bilməyəcəklər. Bu xüsusda Quranda belə buyurulur: **“Xeyr, həmin gün onlarla Rəbbi arasına pərdə çəkiləcək. Sonra onlar Cəhənnəmə girəcəklər və *onlara* deyiləcək: “Budur sizin yalan hesab etdiyiniz *Cəhənnəm*!”** (“əl-Mutaffifin” surəsi, 15).

[3] “Səhih əl-Buxari”, 4879; “Səhih Muslim”, 2838.

[4] “Səhih Muslim”, 181.

**“Cənnətə girəcək ilk zümrədə olanların siması on dörd gecəlik ay kimi gözəl və parlaq olacaq. Cənnətdə onlar nə tüpürcək, nə *burunlarından* selik ifraz edəcək, nə də təbii ehtiyaclarını rəf edəcəklər. *İşlətdikləri* qabları qızıldan, daraqları isə həm qızıldan, həm də gümüşdən olacaq. Buxurdanlarında[1] ud[2] *yandırılacaq*. Onların tərindən müşk qoxusu gələcək. Onlardan hər birinin iki zövcəsi olacaq. Bu qızlar elə gözəl və elə zərif olacaqlar ki, dərilərinin altından ayaq sümüyünün iliyi görünəcək. *Cənnət əhlinin* arasında nə bir ixtilaf, nə də kin-küdurət olacaq, özləri də canbir qəlb olacaqlar. Onlar səhər-axşam Allahın şəninə təriflər deyəcəklər”.[3]**

**“Cənnətə girəcək ilk zümrədə olanların siması on dörd gecəlik ay kimi *gözəl və parlaq* olacaq. Onların ardınca *ora* girənlər isə parlaq ulduz kimi olacaqlar. Onlar canbir qəlbdə yaşayacaq və aralarında nə bir ixtilaf, nə də kin-küdurət olacaq. Onlardan hər birinin iki zövcəsi olacaq. Bu qızlar elə gözəl və elə zərif olacaqlar ki, dərilərinin altından ayaq sümüyünün iliyi görünəcək. *Cənnət əhli* səhər-axşam Allahın şəninə təriflər deyəcək. Onlar nə xəstələnəcək, nə *burunlarından* selik ifraz edəcək, nə də tüpürəcəklər. Qabları qızıldan və gümüşdən, daraqları isə qızıldan olacaq. Buxurdanlarında ud yandırılacaq. Onların təri müşk iyi verəcək”.[4]**

---

[1] Buxur, yandırıldıqda ətir saçan qatran, ağac qabığı və sair məmulatdır. Buxurdan isə içində buxur yandırılan kiçik qabdır.

[2] Vətəni Hindistan sayılan, yandırılanda xoş iy verən ağacdır. Təbii ki, Cənnət udu bizim bildiyimiz uddan fərqli olacaq.

[3] “Səhih əl-Buxari”, 3245; “Səhih Muslim”, 2834.

[4] “Səhih əl-Buxari”, 3246.

**"Cənnətdəki qamçı boyda yer dünya və onun üzərindəkilərdən daha xeyirlidir".[1]**

**"Merac gecəsində mən İbrahim peyğəmbəri gördüm. O dedi: "Ey Muhəmməd, məndən ümmətinə salam söylə və onlara bildir ki, Cənnətin torpağı ətirli, suyu da olduqca şirindir. Yeri dümdüzdür, üzərinə əkilənlər isə: "Sübhanəllah, əlhəmdulillah, la ilahə illəllah vəllahu əkbər" sözləridir".[2]**

**"Merac səfərində** *son həddəki* **Sidr ağacının dibindən çıxan dörd çay gördüm. Bu çaylardan ikisi üstdən, ikisi də altdan axırdı. Mən soruşdum: "Bu nə çaylardır, ey Cəbrail?" O, dedi. "Altdakı çaylar Cənnətdən axır[3], üstdəki çaylar isə Nil və Fərat çaylarıdır".[4]**

**"Mən Meracda ikən hər iki sahilində içiboş mirvarilərdən hazırlanmış çadırlar düzülmüş,** *göz oxşayan* **bir çayın yanına çatdım və dedim: "Ey Cəbrail, bu nə** *çaydır*?**" O dedi: "Bu, Kövsərdir![5]"[6]**

**"Cənnətdə elə bir ağac vardır ki, atlı onun kölgəsində yüz il yol gedəcək,** *lakin onu qət edə bilməyəcək*"**.[7]**

**"Tubə Cənnətdə bitən ağacdır. Onun kölgəsi yüz il gediləcək yol qədər uzanır. Cənnət əhlinin libası onun yarpaqlarından əmələ gəlir".[8]**

---

[1] "Səhih əl-Buxari", 3250.
[2] "Sunən ət-Tirmizi", 3462; "Silsilə əl-Əhadis əs-Səhihə", 105.
[3] Bu, Seyhan və Ceyhan çaylarıdır. ("Səhih Muslim", 2839).
[4] "Səhih əl-Buxari", 3887; "Səhih Muslim", 164.
[5] **"Həqiqətən, Biz sənə Kövsəri bəxş etdik".** ("əl-Kövsər" surəsi, 1).
[6] "Səhih əl-Buxari", 4964.
[7] "Səhih əl-Buxari", 3252.
[8] "Musnəd İmam Əhməd", 11673; "Səhih əl-Cami", 3918.

**"Cənnət əhli bədənlərində tük olmadığı, gözləri də sürməli, otuz üç yaşlarında, boyları da Adəm peyğəmbərin boyuna uyğun – altmış dirsək hündürlüyündə olduqları halda Cənnətə daxil olacaqlar".**[1]

**"Cənnət sakinləri bir-birilərindən üstün olduqları üçün,** *onların alt mərtəbədə olanları* **üst mərtəbədəki otaqlarda yerləşmiş möminləri şərq və ya qərb istiqamətində axıb gedən parlaq ulduzu seyr etdikləri kimi seyr edəcəklər".** *Səhabələr* dedilər: "Ya Rəsulullah, yəqin ki, bu peyğəmbərlərə ayrılmış yerdir və onlardan başqa heç kəs orada sakin ola bilməyəcək". Peyğəmbər ﷺ dedi: **"Xeyr, canım Əlində olan Allaha and olsun ki,** *bu otaqlar* **Allaha iman gətirmiş və peyğəmbərləri təsdiq edən kimsələr üçündür".**[2]

**"Cənnətdə yüz mərtəbə var. Bu mərtəbələr arasındakı məsafə yerlə göy arasındakı məsafə qədərdir. Firdovs onun ən yüksək mərtəbəsidir. Firdovsdan Cənnətin dörd çayı axır. Onun üstündə isə Ərş yerləşir. Odur ki, Allahdan dilədikdə Firdovs cənnətini diləyin!"**[3]

**"Yuxu ölümün qardaşıdır,** *odur ki,* **Cənnət əhli yatmayacaq".**[4]

**"Cənnət əhlinin ilk yediyi yemək balinanın qara ciyərinin ən dadlı hissəsi olacaq".**[5]

---

[1] "Sunən ət-Tirmizi", 2545; "Səhih əl-Cami", 8072.

[2] "Səhih əl-Buxari", 3256; "Səhih Muslim", 2831.

[3] "Sunən ət-Tirmizi", 2531; "Silsilə əl-Əhadis əs-Səhihə", 922.

[4] "Şuəb əl-İman", 4745; "Silsilə əl-Əhadis əs-Səhihə", 1087.

[5] "Səhih əl-Buxari", 3329; "Səhih Muslim", 315.

**“*Balinanın qara ciyərinin* ardından onlar üçün Cənnət ətrafında otlayan Cənnət öküzü kəsiləcəkdir”.**[1]

**“Cənnət əhlinin Cənnətdə toplanacağı bir yer var. Onlar hər cümə ora gələcəklər. Həmin vaxt şimal tərəfdən bir külək gəlib onların üzlərinə və libaslarına toxunacaq, bununla da onların gözəlliyi bir qədər də artacaq. Sonra onlar gözəllikləri artmış olduqları halda zövcələrinin yanına qayıdacaqlar. Zövcələri onlara: “Vallahi, sizin gözəlliyiniz artıb”– deyəcək, onlar da zövcələrinə: “Vallahi, sizin də gözəlliyiniz artıb”– deyəcəklər”.**[2]

Cəhənnəmi vəsf edən ayələrin bəziləri bunlardır:

**“İş bitdikdə, şeytan *günahkarlara* deyəcək: “Həqiqətən, Allah sizə *Cəhənnəmə düşəcəyiniz barədə* gerçək vəd vermişdi. Mən də sizə, *kömək edəcəyimə dair* vəd vermişdim, ancaq *vədimə* xilaf çıxdım. Mənim sizin üstünüzdə heç bir hökmranlığım yox idi. Mən sizi *günah işlərə* dəvət etdim, siz də *dəvətimi* qəbul etdiniz. Buna görə də məni yox, özünüzü qınayın. Nə mən sizin köməyinizə çata bilərəm, nə də siz mənim köməyimə çata bilərsiniz. Şübhəsiz ki, mən bundan əvvəl sizin məni *Allaha* şərik qoşmağınızı inkar etmişdim”. Həqiqətən, zalımlar üçün ağrılı-acılı bir əzab vardır”.**[3]

**“Şübhəsiz ki, günahkarlar əbədi olaraq Cəhənnəm əzabı içində qalacaqlar. Onların *əzabı* yüngülləşdirilməyəcək və onlar orada naümid qalacaqlar. Biz onlara zülm etmədik, lakin onlar özləri zalım idilər. Günahkarlar *Cəhənnəm gözətçisini* çağırıb deyəcəklər: “Ey Malik, qoy, Rəbbin canımızı alıb**

[1] “Səhih Muslim”, 315.
[2] “Səhih Muslim”, 2833.
[3] “İbrahim” surəsi, 22.

**qurtarsın!" O isə: "Siz *burada* əbədi qalacaqsınız!"– deyəcək. Biz sizə haqqı təbliğ etmişdik, lakin sizin çoxunuz haqqı xoşlamırdı".[1]**

**"Ayələrimizi yalan sayıb təkəbbürlüklə onlardan üz çevirənlər Cəhənnəm sakinləridir. Onlar orada əbədi qalacaqlar".[2]**

**"Küfr edib, kafir olaraq ölən kəslərə Allahın, mələklərin və bütün insanların lənəti olsun! Onlar bu *lənətin* içərisində həmişəlik qalarlar. Onların əzabı yüngülləşdirilməz və onlara möhlət də verilməz".[3]**

**"*Kafirlər* Oddan çıxmaq istərlər, lakin onlar oradan çıxan deyillər. Onlar üçün davamlı bir əzab vardır".[4]**

**"Cənnət əhli Cəhənnəm əhlini səsləyib deyəcək: "Biz Rəbbimizin bizə vəd etdiyinin haqq olduğunu gördük. Siz də Rəbbinizin sizə vəd etdiyinin haqq olduğunu gördünüzmü?" Onlar: "Bəli!"– deyəcəklər. Bu zaman onların arasından bir carçı səslənib deyəcək: "Allahın lənəti olsun zalımlara!"[5]**

**"Cəhənnəm əhli Cənnət əhlinə səslənib deyəcək: "Bizim üstümüzə bir az su və ya Allahın sizə verdiyi ruzidən tökün". Onlar isə *cavabında* deyəcəklər: "Allah bunları kafirlərə haram etmişdir". O kəslər ki, dinlərini əyləncə və oyun etmişdilər, dünya həyatı da onları aldatmışdı. Onlar bu günləri ilə qarşılaşacaqlarını unutduqları və ayələrimizi *israrla* inkar etdikləri kimi, Biz də onları bu gün unudarıq".[6]**

---

[1] "əz-Zuxruf" surəsi, 74-78.
[2] "əl-Əraf" surəsi, 36.
[3] "əl-Bəqərə" surəsi, 160-161.
[4] "əl-Maidə" surəsi, 37.
[5] "əl-Əraf" surəsi, 44.
[6] "əl-Əraf" surəsi, 50-51.

*“Cəhənnəm əhlindən soruşacaqlar:* **“Sizi Səqərə** (Cəhənnəmə) **salan nədir?” Onlar deyəcəklər: “Biz namaz qılan deyildik, kasıbı da yedizdirməzdik.** ***Batil sözlər*** **danışanlarla birlikdə biz də** ***batil söz*** **danışar və Haqq-hesab gününü yalan hesab edərdik”.**[1]

**“Qızıl-gümüş yığıb, onları Allah yolunda sərf etməyənləri** (zəkat verməyənləri) **ağrılı-acılı bir əzabla müjdələ. O gün bu** ***yığdıqları sərvətlər*** **Cəhənnəm odunda qızdırılacaq və bununla onların alınlarına, böyürlərinə və kürəklərinə damğa vurulacaq və** ***onlara:*** **“Budur özünüz üçün yığdıqlarınız, elə isə dadın yığdıqlarınızı!”–** ***deyiləcəkdir*****”.**[2]

**“Şübhəsiz ki, Cəhənnəm günahkarların hamısına vəd olunmuş bir yerdir. Onun yeddi qapısı var, hər qapıdan da onlardan müəyyən bir dəstə girəcək”.**[3]

**“Haqqında heç bir dəlil nazil etmədiyi şeyi Allaha şərik qoşduqlarına görə kafirlərin qəlblərinə qorxu salacağıq. Onların gedəcəkləri yer Oddur. Zalımların məskunlaşacağı yer necə də pisdir!”**[4]

**“Sənin Rəbbinə and olsun ki, Biz günahkarları şeytanlarla birlikdə bir yerə toplayacaq, sonra da onları diz üstə çökmüş halda Cəhənnəmin ətrafına yerləşdirəcəyik. Sonra hər firqədən Mərhəmətli** ***Allaha*** **ən çox asi olanı çıxardacağıq. Orada yanmağa daha çox layiq olanları, əlbəttə ki, Biz yaxşı tanıyırıq”.**[5]

---

[1] “əl-Muddəssir” surəsi, 42-46.
[2] “ət-Tövbə” surəsi, 34-35.
[3] “əl-Hicr” surəsi, 43-44.
[4] “Ali-İmran” surəsi, 151.
[5] “Məryəm” surəsi, 68-70.

**“Günahkarlar azğınlarla birlikdə *Cəhənnəmə* atılarlar. İblisin bütün əsgərləri** (kafir cinlər) **də, həmçinin”.**[1]

**“Rəbbinin: “Mən Cəhənnəmi bütün *günahkar* cinlər və insanlarla dolduracağam!” sözü tamamilə yerinə yetdi”.**[2]

**“*Allah* belə *buyuracaq*: “Sizdən əvvəl gəlib-getmiş *günahkar* cin və insan tayfaları ilə birlikdə Oda girin!”**[3]

**“*Günahkarlar* od içində əbədi qalacaq və onlara bağırsaqlarını parça-parça edən qaynar su içirdiləcək”.**[4]

**“Onlar orada nə bir sərinlik, nə də *sərinləşdirici* içki dadacaqlar. *İçdikləri* yalnız qaynar su və irin *olacaq*”.**[5]

**“Həqiqətən, *Cəhənnəmdəki* zəqqum ağacı günahkar adamın yeməyidir. O, qarınlarda əridilmiş yağın çöküntüsü kimi, qaynar su qaynayan kimi qaynayar. *Günahkar barədə belə buyurulacaq:* “Onu tutub Cəhənnəmin ortasına sürüyün! Sonra əzab vermək üçün başına qaynar su tökün! Dad *bu əzabı!* Axı, sən qüdrətli və hörmətli birisi idin”.**[6]

**“Ziyafət üçün *Cənnət nemətləri* yaxşıdır, yoxsa zəqqum ağacı?! – Biz onu zalımlar üçün bir sınaq etdik. O, Cəhənnəmin lap dibindən bitib çıxan bir ağacdır. Onun meyvəsi şeytanların başı kimidir. *Günahkarlar* ondan yeyib qarınlarını dolduracaqlar. Sonra da üstündən onları qaynar su ilə qatışdırılmış bir içki gözləyir. Sonra onların qayıdacağı yer, əlbəttə ki, Cəhənnəmdir”.**[7]

---

[1] “əş-Şuəra” surəsi, 94-95.
[2] “Hud” surəsi, 119.
[3] “əl-Əraf” surəsi, 38.
[4] “Muhəmməd” surəsi, 15.
[5] “ən-Nəbə” surəsi, 24-25.
[6] “əd-Duxan” surəsi, 43-49.
[7] “əs-Saffat” surəsi, 62-68.

**“Sonra, siz ey *haqq yoldan* azanlar, *haqqı* yalan sayanlar. Siz mütləq zəqqum ağacından yeyəcəksiniz – qarnınızı onunla dolduracaq, üstündən də qaynar su içəcəksiniz. *Siz onu* susamış xəstə dəvələr kimi içəcəksiniz”. Bu, onların Din günündəki ziyafətidir”.**[1]

**“Həqiqətən, Bizdə *onlar üçün* qandallar və Cəhənnəm hazırlanmışdır, boğazda tıxanıb keçməyən yemək və ağrılı-acılı bir əzab da v*ardır*”.**[2]

**“Günahkarı Cəhənnəm gözləyir; *orada* ona irinli su içirdiləcək. O, bu irinli suyu qurtum-qurtum içəcək, amma onu zorla udacaqdır. Ona hər yandan ölüm gələcək, lakin o, ölməyəcək. Bunun ardınca da ağır bir əzab gələcək”.**[3]

**“Onlara dari'dən**[4] **başqa bir yemək verilməyəcək. *O onları* nə doydurar, nə də aclıqdan xilas edər”.**[5]

**“Kafirlər üçün oddan paltar biçiləcək, başlarına da qaynar su töküləcəkdir. Bununla, onların bətnlərindəkilər və dərisi əridiləcəkdir. Onlar üçün dəmir toppuzlar da hazırlanmışdır. Onlar hər dəfə oradan çıxmaq, qəmdən qurtarmaq istədikdə yenidən oraya qaytarılacaq *və onlara*: “Dadın odun əzabını!”– *deyiləcəkdir*”.**[6]

**“O gün günahkarları zəncirlərə vurulmuş görəcəksən. Onların paltarları qatrandan olacaq, üzlərini də alov bürüyəcək”.**[7]

---

[1] “əl-Vaqiə” surəsi, 51-56.
[2] “əl-Muzzəmmil” surəsi, 12-13.
[3] “İbrahim” surəsi, 16-17.
[4] Dari' – tikanlı bitki. (İbn Rəcəb, “ət-Təxfiv min ən-Nar”, səh: 115).
[5] “əl-Ğaşiyə” surəsi, 6-7.
[6] “əl-Həcc” surəsi, 19-22.
[7] “İbrahim” surəsi, 49-50.

**“Şübhəsiz ki, ayələrimizi inkar edənləri oda atacağıq. Hər dəfə onların dəriləri yandıqca, əzabı *daim* dadsınlar deyə, Biz o *dəriləri* başqa dərilərlə əvəz edəcəyik”.**[1]

**“Onlar orada əbədi qalacaq, *özlərinə* nə bir himayəçi, nə də bir yardımçı tapa biləcəklər. Üzləri odda o yan-bu yana döndəriləcəyi gün onlar deyəcəklər: “Kaş, Allaha və Onun rəsuluna itaət edəydik!”**[2]

**“Həqiqətən, münafiqlər Cəhənnəmin ən alt təbəqəsində olacaqlar. Sən onlar üçün heç bir yardımçı tapa bilməzsən”.**[3]

**“Sol tərəf sahibləri. Nə bədbəxtdir sol tərəf sahibləri! Onlar qızmar yel və qaynar su içində, qapqara duman kölgəsində olacaqlar. *Bu duman* nə sərin, nə də xoşagələndir”.**[4]

**“*Günahkarlara belə deyiləcək*: “Gedin yalan hesab etdiyiniz *Cəhənnəmə!* Üç qola ayrılan kölgəliyə gedin!” Ora nə kölgə salır, nə də alovdan qoruyur. *Cəhənnəm* hər biri hündür bir imarət boyda olan qığılcımlar püskürür. Onlar sanki qara dəvələrdir”.**[5]

**“Günahkarların gedəcəkləri yer Cəhənnəmdir. *Onun alovu* azaldıqca, onlar üçün alovu artıracağıq”.**[6]

**“Kim bir mömini qəsdən öldürərsə, onun cəzası içərisində əbədi qalacağı Cəhənnəm *olar.* Allah ona qəzəblənər, onu lənətləyər və onun üçün böyük bir əzab hazırlayar”.**[7]

---

[1] “ən-Nisa” surəsi, 56.
[2] “əl-Əhzab” surəsi, 65-66.
[3] “ən-Nisa” surəsi, 145.
[4] “əl-Vaqiə” surəsi, 41-44.
[5] “əl-Mursəlat” surəsi, 29-33.
[6] “əl-İsra” surəsi, 97.
[7] “ən-Nisa” surəsi, 93.

**“Ey iman gətirənlər! Qarşılıqlı razılıqla aparılan ticarət istisna olmaqla, mallarınızı öz aranızda haqsız yerə yeməyin və özünüzü öldürməyin. Həqiqətən, Allah sizə qarşı rəhmlidir. Kim düşmənçilik və zülm edərək bu işləri görərsə, Biz onu *Cəhənnəm* oduna daxil edərik. Bu, Allah üçün asandır”.**[1]

**“Onlar *Cəhənnəm* odunu uzaq məsafədən gördükdə belə, onun necə qəzəblə qaynamasını duyacaq və xışıltısını eşidəcəklər”.**[2]

**“Onların nə əzabı yüngülləşdirilər, nə də onlara kömək göstərilər”.**[3]

Hədislərə gəlincə, bu xüsusda Peyğəmbər ﷺ demişdir:

**“*Bir dəfə* Cənnətlə Cəhənnəm höcətləşdi. Cəhənnəm dedi: “Mən *məxsusi olaraq* inadkarlar və təkəbbürlülər üçün yaradılmışam”. Cənnət dedi: “Nə üçün mənə ancaq zəif və aciz *görünən* adamlar daxil olmalıdır?” Onda, uca Allah Cənnətə buyurdu: “Sən Mənim rəhmətimsən. Mən sənin vasitənlə qullarımdan dilədiyim kimsəyə rəhm edərəm”. Sonra Cəhənnəmə buyurdu: “Sən də Mənim əzabımsan. Mən sənin vasitənlə qullarımdan dilədiyim kimsəyə əzab verərəm”. Onların hər biri *kifayət qədər insan və cinlə* doldurulacaq. Cəhənnəm ancaq o zaman dolacaq ki, Allah Öz Ayağını onun üstünə qoyacaq və o: “Yetər! Yetər!”– deyəcək. Onda, o, dolacaq və *içindəkiləri* qaplayacaq. Allah Öz qullarından heç kəsə zülm etməz. Cənnətə gəlincə, Allah onun *dolması* üçün başqa varlıqlar da yaradacaq”.**[4]

---

[1] “ən-Nisa” surəsi, 29-30.

[2] “əl-Furqan” surəsi, 12.

[3] “əl-Bəqərə” surəsi, 86.

[4] “Səhih əl-Buxari”, 4850; “Səhih Muslim”, 2846.

**“Qiyamət günü Cəhənnəm əhlinin ən yüngül əzab çəkəni o kimsə olacaq ki, ayağının altındakı çuxurlara köz qoyulacaq, bunların istisindən onun beyni qaynacaq”.**[1]

*“Cəhənnəmə düşən hər bir* **kafirin çiyinləri arasındakı məsafə atlının** *öz atını* **dördnala çapıb üç günə qət etdiyi məsafəyə bərabər olacaq”.**[2]

**“Kafirin arxa dişi, yaxud köpək dişi Uhud dağı boyda, dərisinin qalınlığı isə üç günə qət edilən məsafəyə bərabər olacaq”.**[3]

**“Cəhənnəm əhli o qədər ağlayacaq ki, nəhayət, onların göz yaşları quruyacaq. Sonra gözlərindən qan axacaq. Bu hal o qədər davam edəcək ki, onların üzlərində böyük xəndəklər əmələ gələcək. Elə xəndəklər ki, ora gəmi buraxılsa, orada üzə bilər”.**[4]

**“Sizin istifadə etdiyiniz od Cəhənnəm odunun yetmiş hissəsindən biridir”.** Bir nəfər dedi: “Ya Rəsulullah, elə, bu da bəs edər”. Peyğəmbər ﷺ dedi: **“Cəhənnəm odu dünyadakı oddan altmış doqquz dəfə üstündür. Həm də bunların hər biri** *gördüyünüz* **od qədər yandırıb-yaxandır”.**[5]

*“Hava* **bərk istiləşdikdə, namazı sərin düşənədək təxirə salın[6]. Belə ki, istinin şiddəti Cəhənnəmin alovlanmasına görədir”.**[7]

---

[1] “Səhih əl-Buxari”, 6562; “Səhih Muslim”, 213. Bu ləfz Muslimindir.

[2] “Səhih əl-Buxari”, 6551; “Səhih Muslim”, 2852.

[3] “Səhih Muslim”, 2851.

[4] “Mustədrək əl-Hakim”, 4/245; “Silsilə əl-Əhadis əs-Səhihə”, 1679.

[5] “Səhih əl-Buxari”, 3263; “Səhih Muslim”, 2843.

[6] Hava bərk isti olduğu zaman zöhr namazını axır vaxtına qədər yubatmaq müstəhəbdir. Ancaq qeyd edək ki, bu hökm yalnız həmin vaxt istiyə düşəcək kimsələrə aiddir.

[7] “Səhih əl-Buxari”, 536; “Səhih Muslim”, 615.

**"İstilərin artması Cəhənnəmin nəfəs almasına görədir.** *Bir zaman* **Cəhənnəm öz Rəbbinə şikayət edib demişdir: "Ey Rəbbim, bir hissəm digər hissəmi yedi!" Rəbbi də ona iki dəfə nəfəs almağa izn verdi: bir dəfə qışda, bir dəfə də yayda. Bu, sizin** *il boyu* **gördüyünüz ən şiddətli isti və ən şiddətli soyuqdur".**[1]

**"Təkəbbürlülər Qiyamət günü insan qiyafəsində, həm də qarışqa boyda olduqları halda**[2] **məhşərə toplanılacaqlar. Onları hər tərəfdən zillət bürüyəcək və onları Cəhənnəmdəki "Buləs" adlı zindana sürükləyəcəklər. Onları alovlar alovu**[3] **qaplayacaq və onlara Cəhənnəm əhlinin bədənindən axan irindən içirdiləcək".**[4]

**"Ey qadınlar, sədəqə verin! Çünki mənə Cəhənnəm əhlinin əksəriyyətinin qadınlar olduğu göstərildi".** Qadınlar: "Nəyə görə, ya Rəsulullah?"– deyə soruşdular, Peyğəmbər ﷺ də dedi: **"Çünki qadınlar** *insanları* **tez-tez lənətləyir və ərlərinə qarşı nankorluq edirlər".**[5]

**"Cəhənnəm mənə göstərildi. Mən heç vaxt bu gün** ***gördüyüm*** **mənzərədən daha dəhşətlisini görməmişdim. Mən Cəhənnəm əhlinin əksəriyyətinin qadınlar olduğunu gördüm".** Səhabələr soruşdu: "Nəyə görə, ya Rəsulullah?" O dedi: **"Nankorluqlarına görə!"** *Yenə* soruşdular: "Allaha qarşımı nankordurlar?" O dedi: **"Onlar ərlərinə qarşı nankordurlar, yaxşılığı yerə**

---

[1] "Səhih əl-Buxari", 537; "Səhih Muslim", 617.

[2] Burada Peyğəmbər ﷺ onların alçaldılacaqlarını xəbər verir.

[3] Bu, onları yandıracaq alovun olduqca şiddətli olduğuna işarədir.

[4] Buxari, "əl-Ədəb əl-Mufrad", 557; "Sunən ət-Tirmizi", 2623; "Musnəd İmam Əhməd", 2/189.

[5] "Səhih əl-Buxari", 304; "Səhih Muslim", 79.

**vururlar. Birisinə il boyu yaxşılıq etsən, sonra da səndən** ***xoşuna gəlməyən*** **bir şey görsə: "Mən səndən heç vaxt xeyir görmədim"– deyər".**[1]

**"Cəhənnəmlik olacaq kimsələrdən iki sinif var ki, mən onları** ***bu dünyada*** **görmədim:** ***birincisi,*** **yanlarında inək quyruğuna bənzər qamçılar daşıyan və onunla insanları qamçılayan kimsələr; ikincisi isə geyinmiş halda çılpaq, yanlarını oynadan, forslanaraq gəzən, başları dəvələrin güvənlərinə bənzər olan qadınlar. Onlar Cənnətə girməz, hətta onun iyisini belə duymazlar. Halbuki, Cənnətin iyi uzaq məsafədən duyulur".**[2]

**"*Axirət günü* Allah Cəhənnəmdə ən yüngül əzaba məruz qalacaq kimsəyə deyəcək: "Əgər dünyada olan hər şey sənin olsaydı, onu** ***əzabdan xilas olmağın üçün*** **fidyə verərdinmi?" O: "Bəli!"– deyə cavab verəcək. Onda, Allah buyuracaq: "Sən hələ Adəmin belində ikən Mən bundan daha yüngül olanını – Mənə şərik qoşmamağı – səndən tələb etmişdim. Sən isə məhz şərik qoşmağı seçdin".**[3]

**"Mənim ümmətim yetmiş üç firqəyə bölünəcək, onların birindən başqa hamısı Cəhənnəmə girəcək".** Səhabələr رضي الله عنهم soruşdular: "Kimlərdir Cənnətlik olanlar, ya Rəsulullah?" Peyğəmbər ﷺ dedi: **"Onlar mənim və səhabələrimin yolunu tutub gedənlərdir".**[4]

**"Mənim ümmətim yetmiş üç firqəyə bölünəcək, onların birindən başqa hamısı Cəhənnəmə girəcək".** Səhabələr رضي الله عنهم

---

[1] "Səhih əl-Buxari", 1052; "Səhih Muslim", 907.

[2] "Səhih Muslim", 2128.

[3] "Səhih əl-Buxari", 3334; "Səhih Muslim", 2805.

[4] "Sunən ət-Tirmizi", 2641; "Səhih əl-Cami", 5343.

soruşdular: "Kimlərdir Cənnətlik olanlar, ya Rəsulullah?" Peyğəmbər ﷺ dedi: **"Bu, camaatdır".**[1]

**"Kim mənim adımdan bilərəkdən yalan danışarsa, qoy, Cəhənnəmdəki yerini tutsun".**[2]

Peyğəmbər ﷺ dedi: **"Həlakedici yeddi günahdan çəkinin!"** Səhabələr soruşdu: "Ya Rəsulullah, nədir onlar?" Peyğəmbər ﷺ dedi: **"Allaha şərik qoşmaq, sehirbazlıq, Allahın haram buyurduğu cana nahaq yerə qəsd etmək, yetimin malını yemək[3], sələm yemək[4], döyüş meydanından qaçmaq və *zinadan* xəbəri olmayan namuslu, ismətli mömin qadınları zinada ittiham etmək".**[5]

**Qeyd:** Biz burada Cənnət və Cəhənnəmi vəsf edən ayə və hədislərin bir qismini misal gətirdik. Əslində isə Cənnət və Cəhənnəmi vəsf edən onlarla ayə və hədislər mövcuddur.

---

[1] "Sunən Əbu Davud", 2/503-504; "Musnəd İmam Əhməd", 4/102; "Silsilə əl-Əhadis əs-Səhihə", 204.

[2] "Səhih əl-Buxari", 110; "Səhih Muslim", 4.

[3] **"Yetimlərin mallarını haqsızlıqla yeyənlər öz qarınlarına ancaq od doldururlar və onlar *Qiyamət günü* yandırıb-yaxan Oda girəcəklər".** ("ən-Nisa", surəsi, 10).

[4] **"Sələm yeyənlər, *qəbirlərindən* şeytan toxunub dəli eləmiş kimsənin qalxdığı kimi qalxarlar. Bu, onların: "Alış-veriş də sələmçilik kimidir!"– deməlVərinə görədir. Halbuki, Allah alış-verişi halal, sələmçiliyi isə haram etmişdir. Hər kim özünə Rəbbindən xəbərdarlıq gəldikdən sonra *sələmçiliyə* son qoyarsa, olub-keçənlər ona bağışlanar və onun işi Allaha qalar. *Sələmçiliyə* qayıdanlar isə Od sakinləridir. Onlar orada əbədi qalacaqlar".** ("əl-Bəqərə" surəsi, 275).

[5] "Səhih əl-Buxari", 2766; "Səhih Muslim", 89.

# Cənnətə ən son daxil olacaq möminin əhvalatı

Əbu Səid əl-Xudri ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: **“Qiyamət günü Cəhənnəmin üzərində körpü qurulacaq və ümməti ilə birlikdə bu körpüdən keçən elçilərin birincisi mən olacağam. O gün elçilərdən başqa heç kəs danışa bilməyəcək, elçilər isə: “Allahım, xilas et, xilas et!”– deyəcəklər. Cəhənnəmdə sadan tikanlarına[1] bənzər qarmaqlar vardır. Siz sadan tikanlarını görmüsünüzmü?”** *Səhabələr:* “Bəli”– dedilər. Peyğəmbər ﷺ buyurdu: **“Bu qarmaqlar “sadan” tikanlarına bənzəyir, ancaq Allahdan başqa heç kəs onların nə qədər böyük olduğunu bilmir. Onlar insanları əməllərinə görə tutacaqlar: kimisi əməlinə görə məhv olacaq, kimisi də didik-didik edilsə də, axırda xilas olacaq.**

**Nəhayət, Allah Cəhənnəmə vasil olanlardan dilədiyinə mərhəmət göstərmək istədiyi zaman mələklərə Allaha ibadət etmiş kimsələri** ***oradan*** **çıxarmağı əmr edəcək. Mələklər onları** ***üzlərindəki*** **səcdə izindən tanıyıb** ***oradan*** **çıxaracaqlar. Çünki Allah Cəhənnəm oduna səcdə izlərini yandırmağı haram etmişdir. Beləliklə, onlar Cəhənnəmdən çıxarılacaqlar. Od Adəm övladının vücudunu, səcdə yerləri istisna olmaqla, başdan-ayağa yandırıb-yaxdığından onlar sümüklərinə qədər yanmış halda oddan çıxacaqlar. Bundan sonra onların üstünə dirilik suyu töküləcək və onlar selin gətirdiyi toxumun cücərib yetişdiyi kimi, diriləcəklər.**

**Nəhayət, Allah Öz qulları üzərində mühakiməsini bitirdikdə Cənnətlə Cəhənnəm arasında bir nəfər qalacaq. Bu adam**

[1] Sadan, dadı şirin tikanlı bitkidir.

**Cəhənnəmdən çıxıb Cənnətə girəcək kimsələrin sonuncusu olacaq. Onun üzü Cəhənnəmə tərəf olacaq və o deyəcək: "Ey Rəbbim, mənim üzümü oddan döndər, çünki onun tüstüsü məni zəhərləmiş, alovu da məni yandırıb-yaxmışdır". Allah deyəcək: "Bu istədiyin yerinə yetirilsə, başqa bir şey istəyəcəksənmi?"** *Adam:* **"Sənin izzətinə and olsun ki, yox"– deyəcək və Allaha dilədiyi qədər and içib söz verəcək. Allah da onun üzünü oddan döndərəcək. Allah onun üzünü Cənnətə tərəf çevirdikdə o,** *Cənnətin* **gözəlliyini görüb Allahın istədiyi qədər susacaq, sonra isə deyəcək: "Ey Rəbbim, məni Cənnətin qapısına yaxınlaşdır". Allah ona deyəcək: "Məgər, sən and içib söz verməmişdin ki, bu istədiyindən başqa heç nə istəməyəcəksən?" O deyəcək: "Ey Rəbbim, qoy, Sənin yaratdıqlarının ən bədbəxti mən olmayım!" Allah deyəcək: "Bu istədiyin yerinə yetirilsə, başqa bir şey istəyəcəksənmi?" O** *yenə*: **"Sənin izzətinə and olsun ki, mən başqa heç nə istəməyəcəyəm"– deyəcək və Allaha dilədiyi qədər and içib söz verəcək. Allah onu Cənnətin qapısına yaxınlaşdıracaq. Cənnətin qapısına çatdıqda onun gözəlliyini, içindəki sevinc və zövq-səfanı görüb Allahın istədiyi qədər susacaq, sonra deyəcək: "Ey Rəbbim, məni Cənnətə daxil et!" Allah deyəcək: "Vay sənin halına, ey Adəm oğlu, sən nə qədər vədinə xilaf çıxırsan. Məgər, sən and içib söz verməmişdin ki, sənə verilənlərdən başqa heç nə istəməyəcəksən?!" O deyəcək: "Ey Rəbbim, qoy, Sənin yaratdıqlarının ən bədbəxti mən olmayım!" Onda, qüdrətli və böyük Allah güləcək, sonra ona Cənnətə daxil olmağa izin verəcək və belə buyuracaq: "***Nə diləyirsən,*** **dilə!" O adam o qədər diləyəcək ki, axırda** *heç bir* **diləyi qalmayacaq. Onda qüdrətli və böyük Allah ona belə buyuracaq: "Filan və filan şeyləri də dilə!" Beləcə, Rəbbi ona**

(onun istəklərini) **xatırladacaq. Artıq onun heç bir istəyi qalmadıqda uca Allah buyuracaq: “Sənə bu istədiklərin və üstəlik onun on misli** ***verilmişdir*****”.**[1]

Abdullah ibn Məsud رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: **“Cənnətə daxil olanların sonuncusu o kimsə olacaq ki, o, körpüdən keçərkən gah yeriyəcək, gah üzüqoylu yıxılacaq, gah da Cəhənnəm alovu onun üzünə çırpılacaq. Nəhayət, Cəhənnəmin üstündən keçdikdən sonra ona tərəf çevrilib deyəcək: “Məni səndən xilas edən Allah nə qədər uludur! O, əvvəlkilərdən və sonrakılardan heç kəsə vermədiyi neməti mənə verdi”. Sonra ona bir ağac göstəriləcək. Onda həmin adam deyəcək: “Ey Rəbbim, məni o ağaca yaxınlaşdır, onun kölgəsində kölgələnim, suyundan içim”. İzzətli və qüdrətli Allah buyuracaq: “Ey Adəm oğlu, əgər bu istədiyini sənə versəm, yəqin ki, daha artığını istəməzsən”. O: “Yox, ey Rəbbim,** ***istəmərəm*****”– deyəcək və Allahdan bundan başqa** ***heç nə*** **istəməyəcəyinə dair Ona söz verəcək. Rəbbi onun bu nemətə qarşı səbirsiz olduğunu yəqin bildiyindən onu üzürlü sayacaq və onu o ağaca yaxınlaşdıracaq. Adam** ***bir müddət*** **bu ağacın kölgəsində kölgələnəcək və onun suyundan içəcəkdir. Sonra ona əvvəlkindən daha gözəl bir ağac göstəriləcək. Onda, o deyəcək: “Ey Rəbbim, məni bu ağaca yaxınlaşdır, onun suyundan içim, kölgəsində kölgələnim. Səndən bundan başqa bir şey istəməyəcəyəm”. Allah buyuracaq: “Ey Adəm oğlu, məgər, sən bundan başqa bir şey istəməyəcəyinə dair Mənə söz vermədinmi?! Əgər səni ona yaxınlaşdırsam, yəqin ki, daha artığını istəməzsən”. O, yenə bundan başqa** ***heç nə*** **istəməyəcəyinə dair Allaha söz verəcək. Rəbbi onun**

---

[1] “Səhih əl-Buxari”, 806.

**bu nemətə qarşı səbirsiz olduğunu yəqin bildiyindən onu üzürlü sayacaq və onu bu ağaca yaxınlaşdıracaq. Adam *bir müddət* bu ağacın kölgəsində kölgələnəcək və onun suyundan içəcəkdir. Sonra ona Cənnət qapısının yanında əvvəlkilərdən daha gözəl bir ağac göstəriləcək. Onda, o deyəcək: "Ey Rəbbim, məni o ağaca yaxınlaşdır, onun kölgəsində kölgələnim, suyundan içim. Səndən bundan başqa bir şey istəməyəcəyəm". Allah buyuracaq: "Ey Adəm oğlu, məgər, sən bundan başqa bir şey istəməyəcəyinə dair Mənə söz vermədinmi?!" O deyəcək: "Elədir, ey Rəbbim, bunu da *ver*, Səndən daha heç nə istəməyəcəyəm". Rəbbi onun bu nemətə qarşı səbirsiz olduğunu yəqin bildiyindən onu üzürlü sayacaq və onu bu ağaca yaxınlaşdıracaq. O, o ağaca yaxınlaşıb Cənnət əhlinin səsini eşitdiyi zaman: "Ey Rəbbim, məni Cənnətə daxil et!"– deyə yalvaracaq. Allah buyuracaq: "Ey Adəm oğlu, istəklərinə son qoyacaqsanmı?! Sənə *Cənnətdə* dünya və onun misli qədər *yer* versəm razı qalacaqsanmı?" O deyəcək: "Ey Rəbbim, Sən aləmlərin Rəbbi ola-ola mənə istehzamı edirsən?"**

*Bunu deyəndə* İbn Məsud güldü və yanındakılara: "Nə üçün gülməyimin səbəbini soruşmursunuz?"– dedi. Onlar: "Niyə güldün?"– deyə soruşdular. İbn Məsud dedi: "Çünki Rəsulullah ﷺ *sözün bu yerində* gülmüş *və səhabələr ondan*: "Niyə güldün, ya Rəsulullah?"– deyə soruşduqda, o belə cavab vermişdir: **"Bu adamın: "Sən aləmlərin Rəbbi ola-ola mənə istehzamı edirsən?"– dediyi vaxt aləmlərin Rəbbi güldü deyə, mən də güldüm". Sonra Allah buyurdu: "Mən sənə istehza etmirəm, sadəcə Mən istədiyimi etməyə qadirəm".**[1]

[1] "Səhih Muslim", 187.

# SON SÖZ

Əziz müsəlmanlar! Gördüyünüz kimi, biz bu kitabda insanı həm Allahın əzabı ilə qorxudan, həm də Onun mərhəmətilə müjdələyən ayə və hədisləri zikr etmişik. Əsl müsəlmanın etiqadı məhz belə olmalıdır. Yəni həm Allahın əzab verəcəyindən qorxmalı, həm də Onun mərhəmət göstərəcəyinə ümid etməlidir. Peyğəmbərlər ﷺ insanları Allahın yoluna bu üslubla dəvət etmişlər. Bu xüsusda Quranda belə xəbər verilir:

**"İnsanlar tək ümmət idilər. Allah *onlara* müjdə verən və qorxudan peyğəmbərlər göndərdi, onlarla birlikdə haqq olan kitab nazil etdi ki, insanların ixtilafa düşdükləri şeylərə dair onların arasında hökm versinlər".**[1]

**"*Biz* müjdə verən və qorxudan elçilər *göndərdik* ki, insanların elçilərdən sonra Allaha qarşı bir bəhanəsi olmasın. Allah qüdrətlidir, hikmət sahibidir".**[2]

"(Ey Muhəmməd!) **Qullarıma bildir ki, Mən Bağışlayanam, Rəhmliyəm. Əzabım isə ağrılı-acılı əzabdır".**[3]

"(Ey Muhəmməd!) *Qullarıma mənim bu sözümü* **de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmətindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!"**[4]

Rəvayət edilir ki, bir dəfə Peyğəmbərin ﷺ səhabələrindən bir neçəsi gülüb-danışarkən Peyğəmbər ﷺ onlara yaxınlaşıb dedi: **"Canım əlində olan *Allaha* and olsun ki, əgər mənim**

---

[1] "əl-Bəqərə" surəsi, 213.
[2] "ən-Nisa" surəsi, 165.
[3] "əl-Hicr" surəsi, 49-50.
[4] "əz-Zumər" surəsi, 53.

**bildiklərimi[1] bilsəydiniz, az gülüb çox ağlayardınız".** Peyğəmbər ﷺ onlardan aralandıqdan sonra səhabələr ağladı. Bu zaman uca Allah ona belə vəhy etdi: **"Ey Muhəmməd, nə üçün qullarımı ruhdan salırsan?"[2]** Peyğəmbər ﷺ də qayıdıb onlara belə buyurdu: **"*Qazandığınız savablara* sevinin, doğru yolla gedin və *ən kamil olanı yerinə yetirə bilməsəniz də, heç olmasa ona* yaxınlaşın[3]".[4]**

Sonda hamımız üçün Allaha dua edib deyirik:

(( اللَّهُمَّ اغْفِرْ لَنَا، وَارْحَمْنَا، وَآتِنَا فِي الدُّنْيَا حَسَنَةً، وَفِي الآخِرَةِ حَسَنَةً، وَقِنَا عَذَابَ النَّارِ ))

**"Allahım, bizi bağışla və bizə rəhm et! Bizə həm *bu* dünyada, həm də Axirətdə gözəl nemətlər bəxş et və bizi Cəhənnəm əzabından qoru!"[5]**

---

[1] Burada Peyğəmbər ﷺ qəbirdə, sonra da Qiyamət günü baş verəcək dəhşətləri və Cəhənnəmdəki əzaba işarə edir. Belə xəbərdarlıq isə insanı Allaha daha çox ibadət etməyə təşviq edir.

[2] Bu dəlildir ki, insanları Allahın yoluna dəvət edən kəs onları həm Allahın əzabı ilə qorxutmalı, həm də Onun mərhəməti ilə müjdələməlidir.

[3] Yəni, Sünnəyə tam şəkildə riayət edə bilməsəniz belə, heç olmasa buna yaxınlaşın.

[4] Buxari, "əl-Ədəb əl-Mufrad", 633.

[5] Buxari, "əl-Ədəb əl-Mufrad", 254; Beyhəqi, "Şoəbul-İman", 2/22/1058.

# Mündəricat

Müqəddimə ........ 5
Ölümü xatırlamaq ........ 9
Ölüm anı ........ 12
Ölüm anında insanı xilas edən zikrlər ........ 15
Ölümdən sonrakı həyata hazırlıq görmək ........ 18
Gözəl sonluğun əlamətləri ........ 23
Bərzəx aləmi ........ 30
Qəbir əzabı ........ 36
Qəbir əzabından qurtulmağın yolları ........ 41
Dirilmə ........ 46
Məhşər günü ........ 50
Cənnət və Cəhənnəm ........ 72
Cənnətə ən son daxil olacaq möminin əhvalatı ........ 92
Son söz ........ 96

# Azərbaycan dilinə tərcümə etdiyimiz kitablar



























# Azərbaycan dilinə tərcümə etdiyimiz kitablar



























# Azərbaycan dilinə tərcümə etdiyimiz kitablar



























# Azərbaycan dilinə tərcümə etdiyimiz kitablar



























# Azərbaycan dilinə tərcümə etdiyimiz kitablar



























# Azərbaycan dilinə tərcümə etdiyimiz kitablar
























## Azərbaycan dilində yazdığımız kitablar



























## Azərbaycan dilində yazdığımız kitablar



























# Azərbaycan dilində yazdığımız kitablar



























# Azərbaycan dilində yazdığımız kitablar



























# Azərbaycan dilində yazdığımız kitablar



























# Türk dilində yazdığımız kitablar



























# Türk dilində yazdığımız kitablar












# Rus dilində yazdığımız kitablar



























# Rus dilində yazdığımız kitablar
























## İngilis dilində yazdığımız kitablar















# Ərəb dilində yazdığımız kitablar







